# USAID işğalçının “dəyirman”ına pul tökür

**Fransa, Avropa İttifaqı, ABŞ Konqresi və Senatı, bir də onların yedəyində gedən USAID. Bir mərkəzdən koordinasiya olunan bu ermənipərəst düşərgə son vaxtlar özünün anti-Azərbaycan fəaliyyətinin aktiv fazasına keçib.**

ABŞ Dövlət Departamentindən Bakıya intensivləşən telefon zəngləri, Konqresdə “Qarabağ ermənilərinin hüquqları” ilə bağlı dinləmələr və USAID-in qərəzli və diplomatik etiketə sığmayan açıqlamaları Azərbaycanı sülh danışıqlarında güzəştə məcbur etməyi, eləcə də digər məqsədləri daşıyır.

*(ardı 7-ci səhifədə)*

*Dağıdılan Azərbaycan, yardımlar alan isə dağıdan ölkədir*

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 205 (30609) 20 sentyabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azad Qarabağın yüksəliş simfoniyası



Səhifə ⇨ 2

# Ermәni separatizmi üçün “ölüm hökmü”

## *Yaxud “dəmir yumruq” və Zəfər sərəncamı*

**"Miatsum” kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dıqnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, “parlament”i buraxmaq.**



Guya, orada “parlament” fəaliyyət göstərir, guya, orada prezident var, guya, nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki, hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə “parlament” buraxılmalıdır, özünü “prezident” adlandıran ünsür təslim olmalıdır, bütün “nazirlər”, “deputatlar” və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər”. Bu fikirləri Prezident İlham Əliyevin 2023-cü il mayın 28-də Laçın sakinləri ilə görüşündə səsləndirmişdi. Dövlətimizin başçısı fikirlərini bildirdi və sözünü Silahlı Qüvvələrimizin Qarabağda sentyabrın 19-da reallaşdırdığı lokal xarakterli antiterror tədbirləri ilə tutdu. Ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu.

Qətiyyətlə demək olar ki, Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” 19 sentyabr 2024-cü il tarixli Sərəncamı bir il əvvəl yaşadığımız hadisənin əbədiləşdirilməsi baxımından son dərəcə mühüm əhəmiyyətə malikdir. Sərəncam ölkəmizin Qarabağda 2023-cü il sentybarın 19-da həyata keçirdiyi və cəmi 23 saat davam etmiş lokal xarakterli antiterror tədbirlərinin tarixiliyini vurğulayan yüksək mənəvi və siyasi dəyərə malik dövlət sənədidir. “Miatsum” adlı separatçılıq kitabını bir daha açılmamaq şərti ilə bağlamış, ona “ölüm hökmü” kəsmiş sənəd. Bu sənəd, eyni zamanda, fəxarət və qürur leksikonumuzun zənginləşdirən təmayülə malikdir. Çünki orada Azərbaycanın bütövlüyü və bölünməzliyi bir daha vurğulanır.

Bəli, 19 sentyabr tarixinin əbədiləşdirilməsinə ehtiyac var idi və bu ehtiyacı Prezident İlham Əliyev ali səviyyədə dəyərləndirdi. Azərbaycanın ötən əsrin 90-cı illərindən başlayaraq erməni işğalına məruz qaldığının, bu zaman bütün beynəlxalq hüquq normalarının pozulduğunun diqqətə çatdırıldığı sərəncamda Ermənistanın işğalçılıq planlarından söz açılır, ölkənin növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində əldə etdiyimiz böyük Zəfər yada salınır, ərazi bütövlüyümüzün bərpası ilə həm də BMT Təhlükəsizlik Şurasının torpaqlarımızın işğalının yolverilməzliyinə dair dörd qətnaməsinin icrasının təmin olunduğu vurğulanır. Həmçinin “2023-cü il sentyabrın 19-da



Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir.

Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır”.

Qeyd edək ki, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa 2023-cü ilin bu günündəki tarixi müraciətində torpaqlarımızda otuz ildən artıq müddətdə mövcud olmuş erməni separatizminin kökünün kəsildiyini yüksək şövqlə bildirmişdi. Bir il əvvəl toplum olaraq qürurverici, fəxarət dolu olaya şahidlik etmişdik. Olayın müstəsnalığının ən mükəmməl ifadəçisi elə dövlətimizin başçısının özü olmuşdu. Ölkəmizin liderinin həmin müraciətindəki hər fikir Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan hadisənin miqyasını Cənubi Qafqaz, bütövlükdə isə dünya müstəvisində vurğulamışdı. Hesab edirik ki, “Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Sərəncam da məhz bu baxımdan son dərəcə vacibdir.

Yada salaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan ötən ilin sentyabrında Bakı–İrəvan münasibətlərinin durumu, sülh gündəmi ilə bağlı söz açarkən, Qarabağdakı artıq canını tapşırmış sabiq separatçı rejimi özünün seçkili hakimiyyəti olan dövlət qurumu kimi qələmə vermiş, beləliklə misilsiz həyasızlığa imza atmışdı. Nikolun bu bəyanatı onun Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığına dair Qərb platformalarında səsləndirdiyi fikirlərin mənasızlığını, heç bir önəm daşımadığını, yalnız siyasi manipulyasiyaya hesablandığını təsdiqləmişdi. Səbr kasamızı daşdıran da elə bu idi. Ancaq başqa məqamlar da var idi ki, dövlətimizin başçısı xalqa 20 sentyabr 2023-cü il tarixli müraciətində onlardan söz açmış, diqqəti mina terroruna yönəltmişdi. 2020-ci ildə bu yana yüzlərlə can alan terrora: “Bu minalar 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardır. Yəni, bu, bir daha onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün bu minalar gətirilmişdir”.

*(ardı 5-ci səhifədə)*

# Qərb və Rusiya üçün alət tarixi

## *Yaxud Paşinyanın “dövlətçilik məntiqi”nin iflası*



**Bəri başdan deyək ki, bu yazıda Ermənistanın baş naziri Nikol Paşinyanın Ümumdünya erməni sammiti adlandırılan tədbirdəki çıxışından bir nüansın üzərində dayanacağıq. Əlbəttə ki, digər əlaqəli məqamları da diqqətə çatdırmaqla.**

Beləliklə, Nikol yenə tarixdən və dövlətçilikdən danışıb. Əvvəla, onu deyək ki, ümumən, Paşinyanın ayrı-ayrı çıxışlarına diqqət yetirəndə qəribə təəssürat yaranır. Sanki, onun daxilində iki adam var. Biri hayların baş naziridir, digəri bütün siyasi intriqalardan uzaq şəxs. Təxminən belə: Paşinyan hökumət rəhbəri kimi kabinetə girəndə, yaxud hansısa iclasda iştirak edəndə, xüsusən də beynəlxalq toplantıya qatılanda, belə demək mümkünsə, qatı erməniyə çevrilir. Başqa sözlə, hər cür fitnə-fəsada hazırdır. Bu “ampluada”, o, özündən əvvəlki rəhbərlərdən – Serj Sarkisyandan və Robert Koçaryandan qətiyyən fərqlənmir, hələ bəzən məkrlilik baxımından onları geridə qoyur.

*(ardı 7-ci səhifədə)*

# “Əsrin müqaviləsi” – Yeni neft strategiyasının şah əsəri



Səhifə ⇨ 12

# Hayların Qarabağ iddiaları səngimir



Səhifə ⇨ 10

# Prezident İlham Əliyevin Ağdam, Xankəndi və Şuşaya səfəri

## Eyvazxanbəyli kəndinin təməli qoyulub




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 19-da Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlqoyma mərasimində iştirak ediblər.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, kəndin layihələndirilən ümumi ərazisi 300 hektara yaxındır. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Şişpapaqlar, Kosalar və Eyvazxanbəyli kəndləri ilə birlikdə layihələndirilib.

Eyvazxanbəyli kəndində 4038 nəfərin məskunlaşdırılması planlaşdırılıb. Bu məqsədlə 1091 fərdi evin tikilməsi nəzərdə tutulub.

Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 88,3 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1563 nəfərin köçürülməsi üçün 427 fərdi evin inşası planlaşdırılır. İnşa ediləcək evlər iki, üç, dörd və beşotaqlı olacaq.

Diqqətə çatdırıldı ki, kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, bayraq meydanı, tibb məntəqəsi, digər xidməti obyektlərin tikintisi və istirahət parkının salınması planlaşdırılıb. Əhalinin məşğulluğunun təmin edilməsi üçün zəruri tədbirlər də görüləcək.

Prezident İlham Əliyev Eyvazxanbəyli kəndinin təməlini qoydu.

## Kəngərli kəndində bərpa işləri ilə tanışlıq




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam rayonunun Kəngərli kəndində aparılan bərpa işləri ilə tanış olub.**

Dövlətimizin başçısına kənddə görülən işlər barədə məlumat verildi.

İşğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da quruculuq işləri geniş vüsət alıb. Quruculuq işlərinin davam etdiyi yerlərdən biri də rayonun Kəngərli kəndidir. Kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Qeyd edildi ki, Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2544 nəfərin (632 ailə) məskunlaşdırılması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşdırılacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 292 fərdi ev inşa edilir.

Bildirildi ki, kəndin ərazisində söküntü və şaquli planlaşdırma işləri artıq tamamlanıb. Bundan başqa, 292 fərdi evin torpaq, bünövrə, hörgü işləri və 278 fərdi evin isə xarici tamamlama işləri başa çatdırılıb.

Hazırda 94 fərdi ev üzrə daxili bəzək işləri görülür və mebel avadanlığı quraşdırılır. Həmçinin kəndin mərkəzi kommunikasiya sisteminin və yol infrastrukturunun da inşası davam etdirilir.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə sakinlərin işlə təmin olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev kənddə hazır evlərə baxdı.

# Prezident İlham Əliyev Ağdam Sənaye Parkında

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılış mərasimlərində iştirak edib.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına sənaye parkında görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. İqtisadiyyatımızın inkişaf vektorlarının dayanıqlı mənbələr hesabına qlobal çağırışlara uyğunlaşdırılması qeyri-neft sənayesinin gücləndirilməsinin önəmini artırır.

Buna görə də mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə olunması, innovativ metodların cəlb edilməsi ilə sənaye istehsalının artırılması, yeni sənaye sahələrinin yaradılması, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli məhsul istehsalı, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər görülür.

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə uğurlu sənayeləşmə siyasəti həyata keçirilir. Bu məqsədlə ölkənin müxtəlif bölgələrində sənaye parkları və məhəllələri yaradılır. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Hazırda ölkədə 8 sənaye parkı fəaliyyət göstərir. Bunlar Sumqayıt kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarıdır.

Bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərurda 4 sənaye məhəlləsi də fəaliyyət göstərir.

Sənaye zonalarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla - qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Onlar qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma (müəyyən edilmiş siyahıya əsasən) aiddir.

Hazırda ölkəmizdə mövcud sənaye zonalarında 73 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 6,8 milyard manat investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb.

Növbəti mərhələdə sənaye zonalarına mövcud layihələr üzrə 1 milyard manata yaxın investisiyanın yatırılması, 7100-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Sənaye zonalarında indiyədək ümumilikdə 13,5 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 4,3 milyard manatlıq hissəsi ixrac olunub. 2024-cü ilin birinci yarısında sənaye zonalarının rezidentləri tərəfindən 1,4 milyard manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 476,6 milyon manatı ixracın payına düşür.

Xüsusi qeyd olunmalıdır ki, sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 70-dək ölkəsinə ixrac edilir.

Xatırladaq ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam Sənaye Parkı dövlətimizin başçısının 2021-ci il 28 may tarixli Fərmanına əsasən yaradılıb. Sənaye parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Bölgənin coğrafi mövqeyi, insan resursları və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirəcək. Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılır. Bunun nəticəsidir ki, artıq İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parkları arasında Ağdam Sənaye Parkı rezident sayına görə Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci yerdədir. Parkda ümumi investisiyalarının məbləği 238 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən sənaye parkında ümumilikdə 2090 iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parkına 72 milyon manatdan çox investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb.

*

Azərbaycan Prezidenti İlham Əliyev sənaye parkında əvvəlcə "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun açılışında iştirak etdi.

Dövlətimizin başçısına məlumat verildi ki, "BAFCO İnvest" MMC 2023-cü ilin mart ayında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Sənaye parkının 2,5 hektar ərazisində Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmə, tikintidə istifadə üçün nəzərdə tutulan, dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalı həyata keçirilir. İnvestisiya dəyəri 10 milyon manatdan çox olan müəssisədə ümumilikdə 120 nəfər işlə təmin ediləcək. İşçilərin Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Zavod ildə 510 min cüt ayaqqabı istehsalı gücünə malikdir ki, bunun da 350 min cütü təhlükəsizlik ayaqqabıları, 160 min cütünü isə poliuretan çəkmələr təşkil edəcək. İstehsal olunan məhsulların 65 faizinin yerli, 35 faizinin isə xarici bazarlarda satışı planlaşdırılır.

"BAFCO İnvest" MMC sənaye parklarında tətbiq olunmuş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər bir milyon manatdan çox vəsaitə qənaət edib.

Dövlətimizin başçısı zavodu işə saldı.

*

Sonra Prezident İlham Əliyev "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı zavodunun açılışında iştirak etdi.

Dövlətimizin başçısı zavodun fəaliyyəti ilə tanış oldu.

Bildirildi ki, sənaye parkının 1,7 hektar ərazisində "Eel Electric" MMC tərəfindən Avropa və Türkiyənin qabaqcıl texnologiyasının tətbiqi ilə 35 kV, 10 Kv və 0.4 kV-luq elektrik paylayıcı qurğularının istehsalı üzrə müəssisə fəaliyyət göstərəcək.

"Eel Electric" MMC 2022-ci ilin noyabr ayında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. İnvestisiya dəyəri 3 milyon manatdan çox olan müəssisədə 70 nəfər işlə təmin ediləcək. Burada da işçilərin əsasən Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Müəssisədə ildə 600 ədəd ortagərginlikli qurğu, 600 ədəd aşağıgərginlikli qurğu, 150 ədəd monoblok beton yarımstansiya və elektrik avtomobilləri üçün 140 ədəd şarjdoldurma avadanlığı istehsal ediləcək. İstehsal olunan məhsulların 60 faizinin yerli, 40 faizinin isə xarici bazarlarda satışı planlaşdırılır.

"Eel Electric" MMC sənaye parklarında tətbiq edilmiş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 73 min manatdan çox vəsaitə qənaət edib.

*

Prezident İlham Əliyev Ağdam Sənaye Parkının rezidentlərindən biri olan "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun açılışında da iştirak etdi.

Məlumat verildi ki, "Rail Trans Service" MMC 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. "Rail Trans Service" MMC sənaye parkının 1,6 hektar ərazisində "Avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı" layihəsini həyata keçirəcək.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev Ağdam Sənaye Parkında





*(əvvəli 2-ci səhifədə)*

İnvestisiya dəyəri 8,92 milyon manat olan müəssisədə 60 nəfər işlə təmin ediləcək. İşçilərin əsasən Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Zavodun illik istehsal gücü 5 min ədəd rabitə və işarəvermə, 250 ədəd mikroprosessor mərkəzləşmə sistemi avadanlığı həcmindədir. İstehsal olunan mallar daxili və xarici bazarlar üçün nəzərdə tutulub.

"Rail Trans Service" MMC sənaye parklarında tətbiq edilmiş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 70 min manata yaxın vəsaitə qənaət edib.

*

Daha sonra dövlətimizin başçısı "Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) divar kağızları istehsalı zavodunun açılışında iştirak etdi.

Bildirildi ki, "Mister Decor" MMC-yə 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti statusu verilib.

Ərazisi 1,6 hektar olan müəssisədə divar kağızlarının istehsalı həyata keçiriləcək. İnvestisiya həcmi 8 milyon manat olan müəssisə Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk zavoddur. İllik gücü 2,1 milyon ədəd rulon divar kağızının istehsalı olan müəssisədə 76 nəfərin işlə təmin edilməsi nəzərdə tutulur.

Alman texnologiyasından istifadə edilən müəssisədə istehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə ixracı da planlaşdırılır.

"Mister Decor" MMC sənaye parklarında tətbiq edilmiş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 400 min manatdan çox vəsaitə qənaət edib.

Dövlətimizin başçısı zavodu işə saldı.

*

Prezident İlham Əliyev Ağdam Sənaye Parkında, həmçinin "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodunun açılışında iştirak etdi.

Zavodun fəaliyyəti ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, layihə çərçivəsində havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatları istehsal ediləcək.

MMC 2022-ci ilin aprelində Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Müəssisə üçün sənaye parkında bir hektar ərazi ayrılıb.

Türkiyə, İtaliya, Rusiya və Çin texnologiyalarının tətbiq olunduğu müəssisənin illik gücü 33 min ədəd müxtəlif avadanlıq istehsalıdır. Ümumi investisiya dəyəri 3,9 milyon manat olan müəssisədə 90 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

Zavodda istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək.

Digər istehsal müəssisələri kimi, "Metkons" MMC də sənaye parkında tətbiq edilmiş idxal ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 91 min manatdan çox vəsaitə qənaət edib.

*

Dövlətimizin başçısı, eyni zamanda, parkın rezidenti "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) dam örtükləri istehsalı zavodunun açılışında iştirak etdi.

Bildirildi ki, layihə çərçivəsində dam və fasad örtülməsi üçün nəzərdə tutulmuş profilli təbəqələrin, metalkirəmit plitələrin, sendviç panellərin və müxtəlif dam örtüyü aksesuarlarının istehsalı təşkil ediləcək.

Qeyd olundu ki, "Prof-Dam" MMC 2022-ci ilin aprelində Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. İki hektar ərazidə yaradılan müəssisədə məhsul buraxılışı İtaliya, Finlandiya, Türkiyə, Rusiya və Çin istehsalı olan soyuq metalşəkilləmə texnologiyalarının tətbiqi ilə həyata keçiriləcək.

İnvestisiya dəyəri 8,5 milyon manat olan müəssisədə 40-dək iş yeri yaradılacaq. Bu müəssisədə də işçilərin Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Zavod ildə 1,4 milyon kvadratmetr profilli təbəqələrin, 1 milyon kvadratmetr metalkirəmit lövhələrin, 1 milyon kvadratmetr sendviç panellərin, habelə 2 min ton dam aksesuarı istehsalı gücünə malikdir. İstehsal olunan məhsulların 90 faizi yerli bazar, 10 faizi isə xarici bazar üçün nəzərdə tutulub.

Prezident İlham Əliyev zavodu işə saldı.

# İmarət Kompleksinin bərpadan sonra açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində İmarət Kompleksinin bərpadan sonra açılışında iştirak edib.**

Mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Ağdam rayonunda erməni vandalizmi nəticəsində dağıdılıb talan edilmiş tarixi-memarlıq tikililərdən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. Saray Azərbaycan ərazisində inşa edilmiş digər xan saraylarından fərqli olaraq dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. İşğalda olmuş ərazilərdəki digər tarixi-mədəni və dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb.



Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş İbrahimxəlil xanın, onun oğlu, Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı, görkəmli şair, rəssam Xurşidbanu Natəvanın məzarları İmarət Kompleksində yerləşib. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər buradakı qəbiristanlıqda dəfn ediliblər. Ağdam şəhəri işğal edildikdən sonra qəbiristanlıq erməni vandalizminin qurbanı olub. İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də bədnam qonşularımız tərəfindən dağıdılıb.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2023-cü ildə Ağdam İmarət Kompleksində yerli və xarici mütəxəssislərin iştirakı ilə restavrasiya və arxeoloji tədqiqat işlərinə başlanılıb. Ərazisi 3,3 hektar olan kompleks mərasimlərin keçirilməsi üçün nəzərdə tutulmuş tikililər, türbələr, tarixi qəbiristanlıq, Qarabağ atlarının təqdimatı üçün atçılıq kompleksi və ziyarətçi mərkəzindən ibarətdir.

Kompleksdə yaradılan Qarabağ atları parkında qədim dövrlərdən şöhrəti dünyanı dolaşan Azərbaycanın Qarabağ atlarının auksionunun keçirilməsi, eyni zamanda, parkda müxtəlif vaxtlarda bu atların iştirakı ilə təlim və şou-proqramların təşkili nəzərdə tutulur.



Dövlətimizin başçısı Qarabağ atlarına baxdı.

Bildirildi ki, hazırda kompleksin ərazisindəki 6 min kvadratmetrlik sahədə yerləşən tarixi qəbiristanlıqda arxeoloji tədqiqat işləri ikinci mərhələdə davam etdirilir. Aparılan araşdırmalar nəticəsində yeni tarixi faktlar üzə çıxarılıb.

Qeyd olundu ki, Ağdam İmarət Kompleksi artıq ziyarətçilər üçün açıqdır. Kompleksə gələn qonaqlar, turistlər burada yaradılmış park, ziyarətçi mərkəzi, muzey və kafenin xidmətlərindən istifadə edə bilərlər.

Məlumat verildi ki, işğaldan əvvəl kompleksin ətrafında müxtəlif növ ağaclardan ibarət yaşıllıq zonası mövcud olub. İşğal zamanı digər ərazilərimizdə olduğu kimi, burada da düşmən tərəfindən ekoloji terror həyata keçirilib. Kompleksin qarşısındakı dörd qədim çinar və digər ağaclar məhv edilib.

Prezident İlham Əliyev həmin tarixi çinarların yerində ağac əkdi.

Sonda xatirə şəkli çəkdirildi.

# "Aghdam City Hotel" istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində "Aghdam City Hotel"in açılışında iştirak edib.**

"Oskad" şirkətinin İdarə Heyətinin sədri Oğuz Kadıoğlu dövlətimizin başçısına hoteldə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, "City Hotel" Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunub. Hotelin binası 5 mərtəbədən ibarətdir. Ən müasir standartlara cavab verən hotelin binasında 130 otaq vardır. Burada qonaqların zövqünü oxşayan interyer işləri görülüb. Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans və iclas zalları yaradılıb. Hoteldəki restoran və barlar qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını daha maraqlı keçirmələrinə geniş imkanlar açır.

Diqqətə çatdırıldı ki, hoteldə fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş 4 otaq da mövcuddur. "City Hotel"də qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes və SPA mərkəzləri də yaradılıb.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir.



# “İmarət” stadionunun təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində “İmarət” stadionunun təməlini qoyub.**

Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına stadionda yaradılacaq şərait barədə məlumat verdi.

Bildirildi ki, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun olaraq inşa ediləcək stadion üçün 19,2 hektar torpaq sahəsi ayrılıb.

“İmarət” stadionunun UEFA-nın 4-cü kateqoriya tələblərinə uyğun inşa edilməsi nəzərdə tutulub. 11 min 700 nəfərlik tamaşaçı tutumuna malik stadionun oyun meydançası təbii ot örtüyünə malik olacaq.

Stadionda UEFA tələblərinə uyğun VVIP, VIP lounge, konfrans zalı, iclas otaqları, hakim otaqları, komandalar üçün soyunma-geyinmə sahələri, media otaqları, muzey, şərhçi otaqları və digər inzibati, köməkçi sahələr olacaq. Stadionun ərazisində əlavə məşq meydançası, qaçış zolağı, avtodayanacaqlar, nəzarət-buraxılış məntəqələri, texniki bina və qurğular inşa ediləcək.

Şəhər əhalisi stadionun ərazisindən park, əyləncə zonası kimi də istifadə edə biləcək. Bu məqsədlə stadionda fitnes zalı, kafe, restoran, idman malları mağazaları və digər ictimai xidmət sahələrinin yaradılması nəzərdə tutulur.

Stadionda müasir monitorlar, nəzarət, giriş-çıxış, səs, işıqlandırma və digər kommunikasiya sistemləri quraşdırılacaq. Bir sözlə, stadionun istifadəyə verilməsi istər yerli, istərsə də beynəlxalq yarışların keçirilməsinə hərtərəfli şərait yaradacaq.

Dövlətimizin başçısı stadionun təməlini qoydu.

# Xıdırlı kəndində bərpa işləri ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam rayonunun Xıdırlı kəndində görülən bərpa işləri ilə tanış olub.**

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, Ağdam rayonunda quruculuq işlərinin geniş vüsət aldığı yaşayış məskənlərindən biri də Xıdırlı kəndidir. Kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Bildirildi ki, Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5093 nəfərin məskunlaşdırılması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşdırılacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 170 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır.

Qeyd olundu ki, kəndin ərazisində söküntü və şaquli planlaşdırma işləri artıq tamamlanıb.

Kənddə 719 fərdi evin torpaq və bünövrə işləri, 643 fərdi evin isə hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür. Həmçinin kənddə mərkəzi kommunikasiya sisteminin və yol infrastrukturunun da inşası davam etdirilir.

Eyni zamanda, 10 qeyri-yaşayış binası üzrə torpaq və bünövrə işləri tamamlanıb. Həmçinin bu binalarda dəmir-beton və hörgü işləri aparılmaqdadır.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə sakinlərin işlə təmin olunması nəzərdə tutulur.

Dövlətimizin başçısı kənddə hazır evlərə baxdı.

# Ağdam–Əsgəran–Xocalı–Xankəndi avtomobil yolu sürətlə çəkilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda görülən işlərlə tanış olub.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2024-cü il 13 yanvar tarixli Sərəncamı ilə Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun yenidən qurulması işləri sürətlə davam etdirilir.

Bildirildi ki, uzunluğu 33,6 kilometr olan yolda 5 körpünün, 2 keçidin, suötürücü boruların tikintisi və digər infrastruktur işləri görülür. Yol bölgədə gediş-gəlişi asanlaşdıracaq, kənd təsərrüfatının, turizmin inkişafına əhəmiyyətli təsir göstərəcək.

Avtomobil yolu Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlərin Ağdam şəhərinə daxil olmadan bu dairəvi yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam etdirmələrinə imkan verəcək.

# Xankəndi şəhərində “Bulud” hoteli yeniləşdirilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində “Bulud” hotelində aparılan təmir-bərpa işləri ilə tanış olub.**

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına hoteldə yaradılacaq şərait barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 5 min kvadratmetrə yaxın olan hotel 5 mərtəbə və zirzəmi qatından ibarətdir. Hoteldə müxtəlif tipli 44 otaq olacaq. Burada ən müasir iaşə məkanları - “lobby lounge”, kafe, açıq və qapalı restoranlar da fəaliyyət göstərəcək.

“Xankəndi” Mehmanxana Kompleksinə aid olan “Bulud” hotelində 50 nəfərdən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Xankəndinin mərkəzində yerləşən “Bulud” hotelindən açılan gözəl mənzərə qonaqların zövqünü oxşayacaq.

# Xankəndidə Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəb təmirdən sonra istifadəyə verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin təmirdən sonra açılışında iştirak edib.**



Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində Nizami Gəncəvi adına Xankəndi şəhəri 4 nömrəli 624 şagird yerlik tam orta məktəbin əsaslı təmiri nəzərdə tutulub.

Bu təhsil ocağı böyük tarixə malikdir və 1945-ci ildən Azərbaycan məktəbi kimi fəaliyyət göstərib. Məktəbin səmərəli fəaliyyətinin təmin edilməsinin zəruriliyi nəzərə alınaraq Xankəndi sakinlərinin böyük bir qisminin müvəqqəti məskunlaşdığı Bakı şəhərinin Sabunçu rayonunun Ramana qəsəbəsində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 30 dekabr tarixli Sərəncamına əsasən 300 şagird yerlik yeni bina tikilib.

Bildirildi ki, Xankəndidə 4 nömrəli 624 şagird yerlik tam orta məktəbin əsaslı təmirinə Elm və Təhsil Nazirliyinin sifarişi ilə bu ilin mayında başlanılıb. Məktəbin layihəsi 0,67 hektar ərazini, 3760 kvadratmetr ümumi sahəni əhatə edir. Məktəbdə 11 sinif otağı, kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 2 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, həmçinin yeməkxana yaradılıb.

# Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olub.**

Dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Xankəndi Dövlət Dram Teatrının binası 1932-ci ildə Azərbaycan Hökuməti tərəfindən tikilib istifadəyə verilib. 1949-cu ildə binanın konstruksiyasına müəyyən əlavələr olunub. Bina sovet dövrü memarlığının əsas elementlərini özündə əks etdirir.

Teatrın binası XX əsr abidəsi kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə “Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı”na daxil edilib.

Mədəniyyət Nazirliyinin və digər qurumların mütəxəssisləri tərəfindən 2023-cü ilin noyabrında Xankəndi şəhərində yerləşən mədəniyyət müəssisələrinin monitorinqi aparılan zaman teatrın binasına da baxış keçirilib. Məlum olub ki, işğal dövründə bina istismar üçün yararsız vəziyyətə salındığına görə əsaslı təmirə ehtiyacı var.

# Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçası istifadəyə verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışında iştirak edib.**



Dövlətimizin başçısına körpələr evi-uşaq bağçasında yaradılan şərait barədə məlumat verildi.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, Xankəndi şəhəri körpələr evi-uşaq bağçasının əsaslı təmiri nəzərdə tutulub.

Bildirildi ki, Elm və Təhsil Nazirliyinin sifarişi ilə bu ilin mayında Xankəndi şəhəri körpələr evi-uşaq bağçasının əsaslı təmirinə başlanılıb. Məktəbəqədər təhsil müəssisəsinin layihəsi 80 yerlik olmaqla 0,21 hektar ərazini, 1340 kvadratmetr ümumi sahəni əhatə edir. Burada 4 qrup otağı, tibb otağı, metodiki kabinet, mətbəx, akt və idman zalları və camaşırxana yaradılıb.

# Xankəndi şəhərinin Zəfər meydanında Konqres Mərkəzi tikilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərinin Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanış olub.**

Dövlətimizin başçısına görüləcək işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, mərkəzin binası dörd mərtəbədən və bir zirzəmi qatından ibarət olacaq. Buradakı hoteldə, ümumilikdə, 102 otaq inşa ediləcək. Otaqlardan 91-i standart, 4-ü suit, 4-ü isə "executive" qonaq otaqlarıdır. Digər 3 otaq isə sağlamlığı məhdud insanlar üçün nəzərdə tutulub.

Bundan başqa, mərkəzdə restoranlar, ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ən müasir tələblərə uyğun şərait yaradılacaq.

# Üzeyir Hacıbəylinin ev-muzeyinin açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında iştirak edib.**



Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına ev-muzeyində yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, Üzeyir Hacıbəylinin evi XIX əsrdə inşa olunub. 1959-cu ildə bina ev-muzeyi kimi fəaliyyətə başlayıb. Görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir Hacıbəylinin ev-muzeyi Şuşa şəhəri işğal edilən tarixədək fəaliyyət göstərib. Muzeydə Hacıbəylilər ailəsinə məxsus ev əşyaları, həmçinin bəstəkarın şəxsi əşyaları, fotomateriallar, kitablar - ümumilikdə 1700 eksponat qorunub saxlanılırdı. Şuşa şəhəri ermənilər tərəfindən işğal edildikdən sonra muzey fəaliyyətini dayandırmış, eksponatları talanmış, binası isə dağıdılmışdı. Muzeyin mövcud 1700 eksponatından yalnız 136-sını qorumaq mümkün olmuşdu.

Bildirildi ki, Üzeyir Hacıbəylinin ev-muzeyində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərinə 2022-ci ilin aprel ayından başlanılıb. Bərpa prosesi evin ilkin görünüşünə uyğun olaraq analizlərin hazırlanması, bünövrələrin möhkəmləndirilməsi, döşəmənin, fasadların və dam örtüyünün bərpası, daxili və xarici bəzək işləri, qapıların, pəncərələrin, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasını, həmçinin həyətyanı sahənin yaşıllaşdırılmasını əhatə edib. Ərazidə mövcud divar daşlarının sökülərək ölçülərinə görə inventarlaşdırılması, dağılmış hissələrdə bünövrələrin qazılması və sahənin ümumi təmizlənməsi işləri aparılıb. Həmçinin material analizi üzrə nümunələr götürülərək Türkiyədəki laboratoriyada tədqiq edilib, konservasiya və restavrasiya hesabatları yerinə yetirilib. Ev-muzeyinin daxilində divarlar və arakəsmələr hörülüb, döşəmənin bərpası və yenidən qurulması işləri görülüb. Həyətin daş divarının bərpası üzrə bünövrənin qazılıb betonlanması, tarixi görkəminə uyğun hörgüsü və dekorativ elementlərin qoyulması işləri həyata keçirilib.

Muzey binasında aparılan bərpa işlərinin yekununda yeni ekspozisiya yaradılıb. Burada muzeyin konsepsiyası üzrə Üzeyir Hacıbəylinin ev-muzeyinin xilas edilən eksponatları nümayiş olunur.

Mədəniyyət ocağının birinci mərtəbəsində Üzeyir Hacıbəylinin ailəsi, uşaqlıq illəri, təhsili haqqında sənədlər, məlumat və digər müxtəlif eksponatlar yer alıb. Bu mərtəbədəki ikinci otaqda Ü.Hacıbəylinin Qori Müəllimlər Seminariyasında təhsili, pedaqoji fəaliyyəti, müəllifi olduğu əsərlər və məqalələri nümayiş olunur. Burada divarboyu "Sənsiz" romansından notların əks olunduğu fraqment də yer alıb.

İkinci mərtəbədə bəstəkarın tamaşaya qoyulan əsərlərinin ilk premyeralarının afişa və proqramları, eləcə də tələbələrini, səfərlərini əks etdirən fotoşəkillər nümayiş olunur. Burada divarboyu "Koroğlu" operasından notların əks olunduğu fraqment yer alıb.

Ev-muzeyində Üzeyir Hacıbəylinin səhnələşdirilən əsərlərindəki obrazlar üçün çəkilən eskizlər, əsərlərinin proqram və afişalarının kollajından ibarət divar da dizayn edilib. Həmin bölmədə bəstəkarın həyatı, fəaliyyəti, onun əsərləri əsasında lentə alınan filmlərdən kadrlar nümayiş olunur.

# Şuşada Bayraq Meydanının açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Şuşada Bayraq Meydanının açılışında iştirak edib.**

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına Bayraq Meydanında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Bayraq Meydanının yenidən qurulması işlərinə 2024-cü ilin may ayında başlanılıb. Meydanın layihəsi "Chapman Taylor" şirkətinin konsepsiyası əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb.

Bayraq Meydanı amfiteatr ilə əhatələnib. Ərazinin ümumi sahəsi 9190 kvadratmetr, yaşıllıqların sahəsi 3693 kvadratmetr, bayraq dirəyinin hündürlüyü isə 11,7 metrdir. Ərazidəki çoxillik bitkilərin mütləq əksəriyyəti saxlanılaraq layihəyə inteqrasiya olunub. Yaşıllaşdırma işlərində yerli bitkilərdən, o cümlədən çinar ağaclarından istifadə edilib. Burada müasir oturacaqlar və işıqlandırma sistemi quraşdırılıb.

Qeyd edək ki, Bayraq Meydanının ətrafında Şuşa şəhərinin Baş Planına uyğun olaraq Zəfər muzeyinin, çoxfunksiyalı konsert-tamaşa zalının və alış-veriş mərkəzinin inşa edilməsi nəzərdə tutulur.

***AZƏRTAC***

# Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq **qərara alıram:**

**1.** Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 sentyabr 2024-cü il**

# Birinci vitse-prezident Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyi ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında Prezident İlham Əliyevin bu gün Şuşada bərpadan sonra açılışını etdiyi Üzeyir Hacıbəylinin ev-muzeyi ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir: "Üzeyir Hacıbəylinin ev-muzeyi bərpadan sonra. Şuşa. 19.09.2024".**



# Erməni separatizmi üçün "ölüm hökmü"

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, Ermənistan nəinki qorxunc kabusa çevrilmiş mina terroruna, ümumən, 44 günlük müharibədən sonra reallaşdırdığı çoxsaylı təxribat əməllərinə, atəşkəsin pozulması hallarına və digər neqativ məqamlara görə cavab verməli idi və verdi də. Sübut olundu ki, işğalçının istənilən oyunbazlığına layiqli cavabımız var. Ancaq humanizm və ədalət prinsiplərini gözlədik. Hazırda Ermənistanda Qarabağın ermənisizləşdirilməsindən, etnik təmizləmə və sair bu sayaq əməllərdən danışılır, ölkəmizə qarşı ittihamlar irəli sürülür. Ancaq fakt budur ki, dövlət suverenliyimizi bərpa etmiş antiterror tədbirləri zamanı Qarabağda yaşayan erməni sakinlər zərbə altına düşmədi, onların həyatları üçün təhlükə yaradan amillər ciddi şəkildə nəzərə alındı. Əsl peşəkarlıq da elə bu idi. Ona görə cənab Ali Baş Komandan antiterror tədbirlərini həyata keçirən hərbçilərimizin əməyinə böyük dəyər vermişdi. Bu dəyərin özü də müstəsna qədirbilənlik nümunəsidir: "Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir".

Bəli, bir ildir ki, Xankəndili, Ağdərəli, Əsgəranlı, Xocalılı, Xocavəndli Azərbaycanda olmaq xoşbəxtliyini yaşayırıq. Ancaq 44 günlük müharibə dönəmindəki kimi, 23 saat 43 dəqiqə ərzində də Ermənistanın və xaricdəki havadarlarının ölkəmiz əleyhinə yağdırdıqları hədyan dolu fikirlərini gördük. Gördük ki, ermənipərəstlər dünya güclərini Azərbaycana qarşı qaldırmaq yolu tuturlar, hərəkətləri ilə onların baxışlarına təsir göstərməyə çalışırlar. Prezident İlham Əliyevin şəxsindəki prinsipiallığımızla belə mənfi təmayüllərin önünə çıxdıq. Bu zaman müxtəlif ölkələrin liderlərinin telefon zənglərini də, saxta sülh çağırışlarını da görüb-eşitdik. Dünən dövlətimizin başçısının imzaladığı sərəncam həmin qüvvələrə qarşı qətiyyətimizin növbəti ifadəsidir.

Bu sənəd ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasının müstəsna təsdiq təntənəsi kimi ideoloji əhəmiyyətə də malikdir. Nəzərə alaq ki, bütün xarici təzyiqlərin qarşısında duruş gətirmək adi məsələ deyildi. Cənab İlham Əliyev xalqımız üçün həm də bədxahlarımıza qarşı duruşun və dirənişin rəmzidir. Bu rəmzlə nə qədər öyünsək, yenə azdır. Prezidentin xalqa 20 sentyabr 2023-cü il tarixli müraciətindəki bu fikirlərə diqqət yetirək: "Bizim şərtlərimizi isə mən dünən mənə zəng etmiş Amerika Birləşmiş Ştatlarının Dövlət katibinə çatdırmışdım. Məndən soruşuldu ki, antiterror tədbirlərini dayandırmaq üçün nə lazımdır? Mən dedim ki, Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda, bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks-təqdirdə sona qədər gedəcəyik və düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir".

Bəli, bir il əvvəl sona qədər getmək iradəmizi göstərdik, separatçıları Ermənistanın bayrağına bənzər əski parçalarını ağ bayrağa dəyişmək məcburiyyətində qoyduq. Lakin Ermənistanda yenə revanşist çağırışlar səsləndirənlər var. Hesab edirik ki, dövlətimizin başçısının dünən imzaladığı sərəncam belələrinə düşmənçilik, ədavət səhifəsini bağlamaq, qeyri-insani təsəvvürlərdən, xam xəyallardan uzaq durmaq çağırışıdır. Əlbəttə, çağırışın sərt şapalaq məntiqi də var. Revanşist tör-töküntülər anlamalıdırlar ki, azərbaycanlılardan, türklərdən düşmən obrazı uydurmaları və həmin obraza qarşı mübarizə zəminində böyümək istəmələri avantürizmdən başqa bir şey deyil.

Prezident İlham Əliyev xalqa ötən ilin bu günündə ünvanladığı müraciətində böyüklük göstərərək bir daha Ermənistana, Qarabağ ermənilərinə əlini uzatdı, onları "Qafqaz evi" ideyası ətrafında sıx birləşməyə çağırdı. Bu, müstəsna nəciblik, yaşadığımız coğrafiyanı inkişafa aparmaq əzminin göstəricisi idi. Azərbaycanın lideri təklif etdi ki, Cənubi Qafqaz müharibələrsiz, münaqişələrsiz məkan olsun.

Ancaq hazırda regionumuz müstəvisində yaşananlar göstərir ki, Ermənistan özünün mənfur mahiyyətindən daşınmaq niyyətində deyil. Əslində, Qarabağ ermənilərinin antiterror tədbirlərindən sonra bölgədə qalmamaları, ərazini tərk etmələri də bunun təsdiqi idi. Belə bir durum dünən imzalanmış sərəncamı ekstremizmə, millətçiliyə, şovinizmə qarşı immunitet, müqavimət hissi formalaşdıran sənəd kimi də xarakterizə etməyə imkan verir. Deməli, "dəmir yumruq" hər zaman yerində olmalıdır. Prezident İlham Əliyevin bildirdiyi kimi: "Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!"

***XQ-nin analitik qrupu***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 406** **Bakı şəhəri, 6 sentyabr 2024-cü il**

***"Dəniz əməliyyatları bazası reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 2 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dəniz əməliyyatları bazası reyestrinin aparılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

2.1. Dəniz əməliyyatları bazası reyestrinin altı ay müddətində formalaşdırılmasını təmin etsin;

2.2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na uyğun olaraq Dəniz əməliyyatları bazası reyestrinin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin;

2.3. Dəniz əməliyyatları bazası reyestrinin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və Fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsini təmin etsin;

2.4. Dəniz əməliyyatları bazası reyestrinin "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstəril-məsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanına uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsini, aparılmasını və təkmilləşdirilməsini təşkil etsin.

**3** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

3.1. Dəniz əməliyyatları bazası reyestrini mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin və həmin sistemin təhlükəsizlik meyarları üzrə monitorinqini həyata keçirsin;

3.2. Dəniz əməliyyatları bazası reyestrinin informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə həmin reyestrin sahibi və operatoru ilə birlikdə zəruri tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 409** **Bakı şəhəri, 7 sentyabr 2024-cü il**

***Azərbaycan Texnologiya Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında***

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Texnologiya Universiteti" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Texnologiya Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** "Azərbaycan Texnologiya Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Texnologiya Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 410** **Bakı şəhəri, 7 sentyabr 2024-cü il**

***Azərbaycan Rəssamlıq Akademiyasının yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında***

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Rəssamlıq Akademiyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Rəssamlıq Akademiyasına çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** "Azərbaycan Rəssamlıq Akademiyasının Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Rəssamlıq Akademiyasının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 411** **Bakı şəhəri, 7 sentyabr 2024-cü il**

***Azərbaycan Memarlıq və İnşaat Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında***

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Memarlıq və İnşaat Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Memarlıq və İnşaat Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** "Azərbaycan Memarlıq və İnşaat Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 412** **Bakı şəhəri, 7 sentyabr 2024-cü il**

***Bakı Slavyan Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında***

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Bakı Slavyan Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Bakı Slavyan Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** "Bakı Slavyan Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Bakı Slavyan Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 421** **Bakı şəhəri, 13 sentyabr 2024-cü il**

***"Liman infrastrukturunun dövlət mülkiyyətində olan obyektinin müsabiqə əsasında icarəyə verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında***

"Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1070-VIQD nömrəli Qanununun tətbiqi və "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 161 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 4 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Liman infrastrukturunun dövlət mülkiyyətində olan obyektinin müsabiqə əsasında icarəyə verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 422** **Bakı şəhəri, 14 sentyabr 2024-cü il**

***"Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44 (Cild I); 2024, № 4, maddə 453) ilə təsdiq edilmiş 2 nömrəli əlavə – "Ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası"nda "Qeydlər"in 2-ci hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Bakı şəhərində keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 yanvar tarixli 4264 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinin üzvləri, habelə həmin sessiyaların müəyyən işlərinin Prezidenti tərəfindən hazırlıq işlərinin aparılması üçün formalaşdırılmış məsul nümayəndələrdən ibarət heyətin üzvləri COP29 tədbirləri çərçivəsində 2024-2025-ci illər ərzində Nyu-York, Vaşinqton, Cenevrə, Davos, Rio-de-Janeyro, Əbu-Dabi, Sidney, Tokio, London, Madrid, Paris, Roma, Vyana, Sinqapur, Nukualofa şəhərlərinə ezam olunarkən onların ezamiyyə xərclərinin bir günlük normasına həmin şəhərlər üzrə müəyyən edilmiş ezamiyyə xərclərinin bir günlük normasının 50 faizi miqdarında əlavə ödənilir.".

**2.** Bu Qərar 2024-cü il avqustun 1-dən tətbiq olunur.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 420** **Bakı şəhəri, 13 sentyabr 2024-cü il**

***"Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun, Azərbaycan Respublikası Prezidentinin "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 30 may tarixli 76 nömrəli və "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 25 aprel tarixli 207 nömrəli Fərmanının ləğv edilməsi haqqında" 2024-cü il 30 may tarixli 77 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun, Azərbaycan Respublikası Prezidentinin "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 30 may tarixli 76 nömrəli və "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 25 aprel tarixli 207 nömrəli Fərmanının ləğv edilməsi haqqında" 2024-cü il 30 may tarixli 77 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 30 iyul tarixli 130 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 516 (Cild I); 2024, № 3, maddə 326) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası polis orqanlarının xüsusi təchiz olunmuş binalarla təmin edilməsi Normaları"nın 6.26-cı bəndinin on üçüncü abzasında "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin.

**2.** "Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AzərTAc-ın) işçilərinin əməyinin ödənilməsi şərtlərinin və ştat sayının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 fevral tarixli 15 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 130 (Cild I); 2024, № 5 (II kitab), maddə 579) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissədə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "AzərTAc-ın yaradıcı işçilərinə kütləvi informasiya vasitələri üçün hazırladıqları materiallara görə ödənilən qonorarların məbləğləri"nin adında "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 iyul tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 633 (Cild I)) ilə təsdiq edilmiş "Filmlərin yayımı və nümayişi Qaydaları"nın 3-cü hissəsində "Efir, peyk və kabel televiziya yayımı" sözləri "Yayım və retranslyasiya xidmətləri" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 15 may tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 386 (Cild I)) ilə təsdiq edilmiş "Terror əleyhinə əməliyyatları idarəetmə üzrə Əməliyyat Qərargahının fəaliyyətini təmin etmək məqsədi ilə yaradılan əməliyyat qruplarının funksional vəzifələrinə dair Nümunəvi Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü hissənin on ikinci abzasında "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin;

4.2. 3.11-ci bənd üzrə:

4.2.1. adında "Kütləvi informasiya vasitələri (KİV)" sözləri "Media" sözü ilə əvəz edilsin;

4.2.2. ikinci abzasda "KİV" akronimi "media subyektləri" sözləri ilə əvəz edilsin;

4.2.3. dördüncü abzasda "KİV vasitəsilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 noyabr tarixli 327 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1461 (Cild I)) ilə təsdiq edilmiş "Dövlət mülkiyyətində olan yaradıcılıq emalatxanalarının, sərgi salonlarının güzəştli şərtlərlə yaradıcı gənclərin istifadəsinə verilməsi Qaydaları"nın 7-ci hissəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454 (Cild I); 2024, № 3, maddə 303; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 333 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 5.14.1.5-ci yarımbənddə, 13-cü hissənin adında, 13.1-ci və 13.3-cü bəndlərdə "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin;

6.2. həmin Qaydalara 5 nömrəli əlavə - "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın "İltizamın arxa tərəfi Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsindən Çıxarış" hissəsində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin;

6.3. həmin Qaydalara 18 nömrəli əlavə - "Qanunsuz miqrantların saxlanılması mərkəzində saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün nümunəvi gün bölgüsü"ndə "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 27 iyul tarixli 308 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1505 (Cild I)) ilə təsdiq edilmiş "Kredit tarixçələrini təşkil edən neqativ məlumatların "Elektron hökumət" portalında yerləşdirilməsi, yenilənməsi və kredit büroları tərəfindən əldə edilməsi Qaydası"nın 1.2.2-ci yarımbəndində, 2.2-ci və 2.3-cü bəndlərində "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 423** **Bakı şəhəri, 14 sentyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 avqust tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 avqust tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1245 (Cild I)) ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"na 2 nömrəli əlavə - "Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat"ın adında "Maliyyə" sözü "Maliyyə-təsərrüfat" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qərb və Rusiya üçün alət tarixi



*(əvvəli 1-ci səhifədə)*

Əlbəttə, ikinci halda da, demək olmaz ki, Nikol Qarabağ müharibəsinə, vəhşiliklərə və faciələrə görə ermənilərin azərbaycanlılardan üzr istəməli olduğu ideyasını səsləndirmiş, xalqlar arasında dostluğu təbliğ etmiş, bu kimi fikirlərinə görə Ermənistanda təqibə məruz qalaraq məcburiyyət qarşısında Gürcüstana sığınmış və ömrünün son günlərini Tiflisdə taksi sürməklə keçirmiş Georgi Vanyana bənzəyir. Yox, baş nazir o qədər tərifəlayiq deyil. Ancaq, o, daxili auditoriyaya xitabən erməni varlığına xas reallıqları dilə gətirməyi bacarır. O reallıqları ki, böyük ölçüdə yanaşsaq, hay cəmiyyəti onların dərkindən xeyli uzaqdır.

Bəli, hazırda erməni cəmiyyəti ona görə Paşinyanın səsləndirdiyi reallıqlardan uzaqdır ki, baş nazir ardıcıl deyil, yuxarıda vurğuladığımız kimi, ikili təbiətə malikdir. Halbuki, o, hakimiyyətə gələndə durum başqa idi. Məsələn, Nikol hələ seçki kampaniyası zamanında bildirmişdi ki, Qarabağ Ermənistanın üzərindən asılmış ağır daşdır və bu daş ölkənin çiyinlərindən atılmalıdır. Sıravi ermənilərin Qarabağ klanının təmsilçiləri olan eks-prezidentlər S.Sarkisyana və R.Koçaryana nifrəti fonunda, bu fikir xeyli populyar idi. Paşinyan şans qazanmışdı ki, hakimiyyətə gəldikdən sonra sözügedən ritorikanı bir qədər də gücləndirib, erməni cəmiyyətini rasional düşüncəyə, gerçəkliklərin dərkinə çağırsın, cəmiyyətə işğalçılığın doğru yol olmadığını anlatsın. Ancaq baş nazir nə etdi? Paşinyan tipik erməni xislətinə xas tərzdə davrandı. O, sübut etmək istədi ki, Koçaryandan və Sarkisyandan da pis erməni olmağı bacarır. Ona görə bu tandemin qorxusundan heç zaman dilinə gətirmədiyi fikri səsləndirdi. Xankəndidə kütlə qarşısındakı çıxışı zamanı bağırdı ki, "Qarabağ Ermənistandır və nöqtə".

Deyə bilmərik ki, Koçaryan və Sarkisyan Şuşada şərab içməmiş, sərxoş olub Cıdır düzündə yayxanmamışdılar. Bəlkə onlar da belə etmişdilər. Sadəcə, başlarını o qədər itirməmişdilər ki, hərəkətlərini ictimailəşdirsinlər, daha doğrusu, gözə soxsunlar. Ola bilər, Birinci Qarabağ müharibəsindəki uğurun onların olmadığını anlayırdılar. İnanmırdılar ki, işğal etdikləri torpaqların həqiqi sahibidirlər. Məsələyə mövcud prizmadan yanaşdıqda da, Paşinyanın daha pis erməni olmaq yarışındakı liderlik əzmini görmək olar. Əlbəttə ki, buna əzm demək mümkündürsə. O, nəinki "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını səsləndirdi, eyni zamanda, Cıdır düzünə sərilərək özünü torpağın əsl sahibi kimi apardı. Sonra nə baş verdi, hər kəsə yaxşı məlumdur – 44 günlük müharibə və Ermənistan üçün fəlakət.

Əlqərəz, N.Paşinyan Ümumdünya erməni sammitindəki çıxışında tarixdən dərs çıxarılmalı olduğunu vurğulayıb. Bu, əslində, onun diqqətə çatdıracağımız növbəti fikrindən fərqli anlam daşıyan məsələdir. Çünki Nikol ermənilər üçün tarix dərslərini başqalarının yazdığını bildirib. İlk baxışdan, onun nə demək istədiyi anlaşılmır. Amma bir qədər diqqət yetirək: Paşinyan başqalarının ermənilər üçün yazdıqları tarixdən nəticə çıxarmalı olduğunu dilə gətirirsə, faktiki olaraq, həmin tarixə gerçək mənada sahib çıxılmasının əhəmiyyətindən danışır. Sahibliyin dövlətçilik prioriteti üzərində dayanır. Yəni, dövlətçiliyə malik olmalısan ki, tarixi özününküləşdirə biləsən, ona həqiqi mənada tarix deyəsən.

Göründüyü kimi, ortada kifayət qədər qəliz məntiq var. Bu məntiqlə yanaşsaq, Paşinyan hələ erməni dövlətinin olmadığını bildirir ki, əslində, belə yanaşma onun əvvəlki bəzi çıxışlarının da leytmotivini təşkil etmiş məqamdır. Məsələn, Nikol bir müddət əvvəl Ermənistan üçün "doğum şəhadətnaməsi" almaqdan danışırdı. Daha sonra, o, orta məktəb şagirdlərinə Azərbaycanla sərhədlərin delimitasiyası nəticəsində yerə basdırılmış ilk sərhəd dirəyinin maketini nümayiş etdirdi. Yəni, indiyədək Ermənistanın sərhədlərinin olmadığını dedi. Elementar məntiq var: Sərhəd yoxdursa, dövlət də yoxdur.

N.Paşinyan sözügedən sammitdə ermənilərin öz tarixlərini bilmədiklərini vurğulayıb. Fikrində məntiq var. Bir halda ki, başqaları ermənilər üçün tarix yazıblar, həmin tarixi bilməyə ehtiyac yoxdur. Başqalarının nəyinəsə necə sahib çıxasan? Elə götürək torpağı. Ermənistan Qarabağ da daxil olmaqla, digər rayonlarımızı işğal etmişdi. İşğal illərində ərazilərimizdə daş üstə daş qoymamışdı, talançılıq, qarət həyata keçirmişdi. Ermənilər bu əməlləri ona görə etmişdilər ki, torpaqlarımızı başqalarının ələ keçirdiyini bilirdilər. Hesab edirdilər ki, onlara işğaldan çatacaq yeganə şey qarətdir. Eyni zamanda, istehkamlar qurmağa, səngərlər qazmağa, yerə lağımlar atmağa girişmişdilər. Axı, başqalarının ermənilər üçün yazdıqları tarixdə onların, guya, döyüşkən, güclü olduqları göstərilirdi. Ancaq zavallılar nə üçün, nəyin uğrunda döyüşdüklərinin fərqində deyildilər. Döyüşməmiş, sakit şəkildə, qonşularla sülh və əmin-amanlıq şəraitində yaşamağın mümkünlüyü onlar üçün tamamilə yad idi. Bəs indi nə isə dəyişibmi? Yox!

N.Paşinyan erməni sammitindəki çıxışında onu da bildirib ki, 2018-ci ildən sonra baş nazir kimi qarşılaşdığı ən böyük problem vətənpərvərlikdir və bunda heç bir ironiya yoxdur. Əslində, Nikol daha bir həqiqəti vurğulayır. Çünki, erməni vətənpərvərliyi, faktiki olaraq, ironik təmayüllüdür. Axı vətəni olmayan necə vətənpərvərlikdən danışsın? Kimlərsə erməni qövmü üçün vətənlə bağlı təsəvvürlər aşılayıbsa, başqa cür mümkün də deyildi. Yerdə qalırdı həmin təsəvvürləri mif və əsatir şəklinə salmaq ki, erməni qövmünün məhz bu vəzifənin öhdəsindən layiqincə gəldiyini söyləmək mümkündür. Nəticədə həmin qövm yalanlara özünü inandırmağı bacardı. Bu gün də erməni cəmiyyəti cəfəngiyyatlarla yaşayır, onların təsirindən qurtula bilmir. Paşinyanın dediyi də elə budur. O bildirir ki, baş nazir olduqdan sonra hiss edib ki, Ermənistanın və ermənilərin qarşılaşdıqları ən böyük problem vətənpərvərlik modelinin Vətənə heç bir aidiyyətinin olmamasıdır. Nikolun sözlərinə görə, sözügedən model sadəcə kitablar, filmlər, mətnlər, çıxışlar, qəhrəmanlar vasitəsilə ermənilərin sosial psixologiyasına yeridilib. Sən demə, bu imperiya tipli vətənpərvərlik modeli imiş.

Paşinyanın "imperiya vətənpərvərlik modeli" ifadəsinin altında nəyin dayandığı məlumdur. Onun imperializmlə bağlı baxışları Rusiya üzərinə köklənib. Deməli, ermənilərə tarix yazan başqaları elə ruslardır. Ancaq Nikolun məntiqində böyük təhrif var. Baş nazir deyir ki, ermənilər üçün vətənpərvərlik modelində Ermənistan dövləti mövcud deyil. Reallıq isə budur ki, erməni qövmünə dövlət qazandıran məhz ruslar olub. Bəlkə ayrı-ayrı yerlərə səpələnmiş erməniləri Cənubi Qafqaza yığan onlar deyildi?

Yada salaq ki, 1830-cu ildə rus çarizminin köçürmə siyasəti nəticəsində regionda erməni vilayəti yarandı. O vilayət ki, sonradan, yəni 1918-ci ildə dövlətə çevrildi. Qədim Azərbaycan şəhəri İrəvan ona paytaxt edildi. Daha sonra məhz ruslar ermənilərə ərazi hədiyyələri verdilər. Yenə əzəli yurd yerlərimizdən kəsdilər. 1929-cu ildə Ermənistan SSR tərkibində Meğri rayonunun yaradılması nəticəsində qədim diyarımız Naxçıvan blokadaya düşdü. Bu, imperiya siyasətinin təzahürü idi. Nikol hazırkı Ermənistanın mövcudluğuna görə ruslara təşəkkür etmirsə, baş naziri nankor da adlandırmırıq. Ancaq onun Qərb imperializmindən söz açmaması, yalnız rus imperializminə köklənib subliminal ritorikaya baş vurması riyakarlıqdır. Qeyd edək ki, rus imperializmi ermənilər üçün pis-yaxşı dövlət bəxş etmişdisə, Qərb imperializmi terror təşkilatları yaratmışdı.

Yəni, ikincinin yanaşmasında dövlət amili, ümumiyyətlə, olmamışdı. Hərçənd, Qərb dünyası erməni dövlətinin mövcudluğuna qarşı da çıxmamışdı. Diqqət yetirsək görərik ki, hazırda Ermənistan ayrıdır, erməni lobbi və diaspor təşkilatları isə tamam ayrı. Bu fərq o zamandan yaranıb. Əlbəttə, ötən otuz ilə yaxın müddətdə Ermənistanla erməni lobbi və diaspor təşkilatları arasında bağ var idi. Çünki həm rus, həm də Qərb imperializmi erməni varlığına eyni prizmadan baxırdılar. Elə ki, Qərb, necə deyərlər, valı dəyişdi, "erməni kartını" özünün Cənubi Qafqaz avantürası naminə şəriksiz istifadəyə qərar verdi, balans ciddi şəkildə pozuldu.

Bəli, N.Paşinyanın hakimiyyətə gətirilməsi Qərbin "erməni kartı" xüsusundakı oyun qaydalarını kobud şəkildə pozması idi. Rusiya bunu nə Qərbə, nə də ermənilərə bağışlayır. Axı Cənubi Qafqazda erməni amili baxımından hər iki imperializmin vahid marağı var idi – türk–müsəlman varlığını parçalamaq, Türk dünyasına "xristian pazı" yeritmək. İndi Rusiya Qərbə göstərmək istəyir ki, Moskva olmadan sözügedən paz heç nədir. Belə bir durumda Paşinyan nələrisə anlayır, amma tam yox. Məsələn, o, fikirləri ilə erməni vətənpərvərliyinin mahiyyətcə saxta olduğunu vurğulayır və dərk edir ki, saxtalıqla dövlətin ayaqda qalması mümkünsüzdür. Ancaq təqdim etdiyi formul nədir? Daha doğrusu, onun formulunda hansısa varmı? Əlbəttə ki, yox!

Amma yenilik etmək üçün şansı var idi. Məsələn, Qarabağın Ermənistan üzərində asılmış ağır daş olduğunu bildirmişdisə, "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verməməli idi. Yəni, belə bir sərsəmliyə imza atan şəxs dövləti düşünmədi, Qərbə arxalandı. Daha pis erməni olmaq yarışında özünü "qladiator" kimi gördü, hesab etdi ki, Qərb dünyası Ermənistan dövlətinin "yeni ərazilər uğrunda yeni müharibə" şüarını dəstəkləyəcək. Amma Ermənistanın özünün layihə mahiyyətini unutdu. Bu layihənin Qərb və Rusiyanın müştərək məhsulu olduğunu da həmçinin.

Yazımızın bu yerində bir müddət əvvəl Fransanın ayrı-ayrı siyasilərinin Ermənistana səfərləri zamanı hayların qəhrəmanlığından, müharibə məğlubiyyətini həzm etmədiyindən dəm vuran fikirlər səsləndirmələri üzərində dayanaq. Qərb imperializminin erməni varlığının əyninə biçdiyi libas budur. Bu libas qırmızı rəngdədir. Görünür, qandan seçilməməsi üçündür. Axı deyim var ki, erməni qandan qorxur. Hər cür naqisliyə hazır qorxaq toplumu isə daim motivə etmək, onun düşüncəsinə ətrafın, guya, pis olduğunu aşılamaq lazımdır ki, həmişə gözünü qırpmadan əli tətikdə dayansın, özünü səngərdə hiss etsin. Bu təbliğatın nəticəsidir ki, otuz ilə yaxın müddətdə torpaqlarımızda gördükləri iş ancaq səngər qazmaq, başqa sözlə, goreşənlik oldu.

Baxın, hazırda Ermənistan sürətlə silahlandırılır və buna rəhbərlik edən, prosesə məntiqi don geyindirməyə çalışan, guya, dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsini bayrağa çevirən Nikol Paşinyan və komandasıdır. Təfəkkürünün mücərrəd guşəsində dövlətçiliklə bağlı nələrisə ara-sıra üzə çıxaran baş nazir durumun fərqində deyil. Fərqində deyil ki, həm Rusiya, həm də Qərb Ermənistanı dövlət yox, alət kimi görür. Nikol Qərbin aləti olmağı seçir. Alət olmağa razılıq verən toplumun və cəmiyyətin isə dövləti ola bilməz.

Rusiyanın nəzərində erməni varlığı qorxaqdır. Dahi Puşkin təsadüfən deməmişdi ki, "sən kölısən, sən qorxaqsan, çünki sən ermənisən". Qərbin baxışlarında isə ermənilər təxribatçı və hiyləgərdirlər. Fransız yazıçısı və səyyahı Aleksandr Dümanın bildirdiyi kimi, "ermənilər həmişə başqa dinə xidmət edən hökmdarların hakimiyyəti altında olublar. Nəticədə öz fikir və duyğularını gizli saxlayan, hiyləgər və kələkbaz adamlara çevriliblər".

Hazırda Cənubi Qafqaz müstəvisində yaşananlara və Ermənistanın avantürist mövqeyinə nəzərən deyək ki, N.Paşinyanın Ümumdünya erməni sammiti çərçivəsində bildirdikləri mənasız ritorikadır. Tipik erməni obrazından çıxa bilməyən baş nazirin yazımızın lap əvvəlində haqqında söz açdığımız ikili xarakterində isə bir motiv var. Söhbət hiyləgərlikdən gedir. Hiyləgərlik isə bir yerə qədərdir. Onunla nə tarix yazılır, nə də dövlətçilik qazanılır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# USAID işğalçının "dəyirman"ına pul tökür

**(əvvəli 1-ci səhifədə)**

ABŞ Beynəlxalq İnkişaf Agentliyində (USAID) inzibatçının İzobel Koulman adında bir xanım müavini var. O, sentyabrın 16-da Ermənistanın ABŞ-dəki səfirliyində təşkil olunan tədbirdəki çıxışında reallığı kobud şəkildə təhrif edərək, Azərbaycanın ünvanına yalan və böhtan dolu ifadələr işlədib. İ.Koulman Azərbaycanı "Qarabağa hücum edərək orada nəzarəti ələ keçirməkdə", "100 mindən çox etnik ermənini öz evlərini tərk etməyə məcbur etməkdə" suçlayıb. Əlbəttə ki, həqiqətlə daban-dabana zidd məlumatları tirajlamaqla, aşkar dezinformasiya yaymaqla ictimai rəyi çaşdırmağa hesablanmış bu çıxış, sadəcə, Azərbaycanın beynəlxalq hüquq çərçivəsində ölkənin ərazi bütövlüyünü bərpa etməyə yönəlmiş antiterror tədbirlərinin mahiyyətini təhrif etmək, İrəvanın "dəyirmanına su tökmək" cəhdidir.

## Koulmanın iftiraları

USAID rəsmisinin qərəzli fikirlərinin ABŞ–Azərbaycan münasibətlərinə mənfi təsir göstərəcəyi birmənalıdır. Bunu Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Coşua Hak ilə görüşündə onun nəzərinə çatdırıb. İzobel Koulmanın məlum çıxışında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətsizlik etdiyini, ölkəmizin suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğuna son qoymuş antiterror tədbirləri ilə bağlı faktları təhrif etdiyini yüksək qonağa xatırladan C.Bayramov belə açıqlamaların ikitərəfli münasibətlərdə müsbət dinamikanın yaradılması, əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi istiqamətində səylərə xələl gətirdiyini diqqətə çatdırıb. İ.Koulmanın bəyanatları faktların təhrif olunması ilə yanaşı, İrəvanın destruktiv siyasətini müdafiə xarakteri daşıyır, beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil edir. USAID rəsmisinin çıxışında Azərbaycanın Qarabağa hücum etməsi, ermənilərin kütləvi şəkildə bölgəni tərk etməsinə səbəb olması ilə bağlı dedikləri ağ yalan və iftiradır. Başı ABŞ-dəki erməni lobbisinin sifarişlərini yerinə yetirməyə qarışan Koulman, ola bilsin ki, 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatında Xankəndidəki separatçı rejimin silahlı erməni quldurları ilə birgə bölgəni tərk etməsi barədə bənddən xəbərsizdir. Ermənistanın 3 il ərzində bu öhdəliyi yerinə yetirməməsi rəsmi Bakını məlum addımı atmağa məcbur etdi. Azərbaycanın lokal antiterror tədbiri həmin separatçılara, onun sərəncamındakı qeyri-qanuni silahlı qruplaşmalara qarşı həyata keçirilib və yalnız hərbi obyektlər hədəfə alınıb. Yəni, bu tədbir heç bir halda dinc əhaliyə qarşı yönəlməmişdi. Axı, rəsmi Bakı dəfələrlə Qarabağda yaşayan erməni etnik qrupun təhlükəsizliyini və hüquqlarını təmin etməyə hazır olduğunu bəyan etmişdi.

## Paradoks…

Guya, İ.Koulman bunları bilmir? Çox yaxşı bilir. Amma, o, Ermənistanın ABŞ-dəki səfirliyində çıxışında USAID-in Qarabağdan köçən ermənilərə yardım məqsədilə 18 milyon dollar vəsait ayırdığını şəstlə vurğulayıb. Biz də bilirik ki, adı bu cür, istifadə istiqaməti fərqli olan bu maliyyə yardımı Qarabağ ermənilərinin ehtiyaclarını ödəməyə deyil, 30 il Azərbaycan ərazilərini işğal altında saxlayan Ermənistanın bölgədə mövqeyini gücləndirməyə hesablanıb.

Bu məqamda Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin iki gün əvvəl jurnalistlərə açıqlamasında dediyi sözləri oxucuların diqqətinə çatdırırıq: "Azərbaycan hökuməti bərpa-quruculuq və yenidənqurma işlərinə, həmçinin ərazilərin minalardan təmizlənməsinə vəsait ayırır. Dağıntılar törədən Ermənistan, dağıntılarla üzləşən isə Azərbaycandır. Amma vəsait Ermənistana ayrılır. Bu, paradoksdur".

H.Hacıyevin sözlərinə görə, Azərbaycana və Ermənistana yanaşma eyni miqyasda deyil: "İşğal dövründə də heç kim Ermənistanı işğala son qoymağa çağırmırdı. Regionla bağlı belə ikili münasibətlər davam etməkdədir". Azərbaycan 30 il ərzində münaqişənin dinc yolla həllinə çalışıb, Ermənistan isə bütün beynəlxalq qaydaları və normaları ayaqlar altına atıb. İndi yardımın işğaldan əziyyət çəkən və onun fəsadlarının aradan qaldırılması ilə məşğul olan Azərbaycana deyil, işğalçı Ermənistana ayrılması, həqiqətən də, paradoksdur. Bununla işğalçı dövlətin "dəyirman"ına pul tökən USAID-in bəyan etdiyi kimi, bu vəsaitlərin erməni köçkünlərinə yardım məqsədilə verilməsi də şübhə doğurur. Sayını 100 min göstərdiyi erməni köçkünlərə səxavət kisəsinin ağzını açan USAID nədən 4 il əvvələ qədər sayı 10 dəfə çox olan azərbaycanlı qaçqın və məcburi köçkünlərə eyni "xeyirxahlığı" nümayiş etdirmədi? Sual ritorikdir.

## Separatizmə dəstək

Birmənalı şəkildə deyə bilərik ki, USAID-in fəaliyyəti Ermənistanda separatizm və revanşizm meyillərini dəstəkləməyə yönəlib. Ermənipərəst Koulman kimilərin bəyanatları bölgədə sülhün və sabitliyin bərpasına töhfə vermir, əksinə, gərginliyin daha da artmasına səbəb olur. Ermənistanın separatizmi və hərbi təxribatları onilliklər boyu bölgədə sülhün və sabitliyin bərqərar olmasının qarşısını alıb.

Hazırda USAID-in Ermənistana göstərdiyi əlavə yardım paketləri həm maliyyə həcminin, həm də müxtəlif sahələri əhatə edən layihələrin genişlənməsi baxımından maraq doğurur. Son iki ildə ABŞ hökumətin və müxtəlif təşəbbüslərin dəstəklənməsi üçün Ermənistana 50 milyon dollar həcmində maliyyə dəstəyi göstərib. Həmin



vəsaitin xeyli hissəsi, guya, "Qarabağ münaqişəsi ilə bağlı humanitar və sosial proqramlara" ayrılıb. Bu faktın özü USAID-in tərəflərə ikili yanaşmasını açıq şəkildə ortaya qoyur. Bütün bunlara baxmayaraq, rəsmi İrəvan bu gün də sülh danışıqlarında sabotajı davam etdirir, cəmiyyətdə revanşist meyilləri gücləndirir.

USAID-in "yardım kampaniyası"nın digər bir qolu köçkünlərin dəstəklənməsi proqramı olub. Bu proqram çərçivəsində 18 milyon dollar vəsait ayrılıb ki, onun 5 milyon dolları təcili humanitar yardıma, 12 milyon dolları isə erməni köçkünlərin Ermənistan cəmiyyətinə inteqrasiyası üçün uzunmüddətli layihələrə yönəldilib. Amma bəlli olur ki, bu tədbirlər heç də münaqişənin həllinə kömək etmir, əksinə, rəsmi İrəvanı Bakıya qarşı siyasi təzyiqləri davam etdirməyə şirnikləndirir.

## Sülhə qarşı himayə

Başqa bir prioritet istiqamət Ermənistanın hökumət institutlarının gücləndirilməsi olub. USAID Ermənistanda demokratik islahatlar və korrupsiya ilə mübarizə tədbirlərinə 20 milyon dollardan çox vəsait ayırıb. Kənar müşahidəçi bu addımı müsbət dəyərləndirə bilər. Amma yaxından nəzər yetirəndə məlum olur ki, bu proqramlar, əslində, Ermənistan hakimiyyətinin vəziyyətə nəzarəti gücləndirmək, eləcə də Azərbaycanın əleyhinə revanşist ritorikanı artırmaq üçün istifadə olunur.

Bu qurumun Ermənistanda müxtəlif sahələrə göstərdiyi yardımların siyahısı, bir növ, "Marşal planını" xatırladır. Çox əhəmiyyətli maliyyə vəsaiti Ermənistan iqtisadiyyatının "bərpasına" yönəldilib. 2023-2024-cü illərdə kiçik və orta biznesin inkişafını nəzərdə tutan proqrama təxminən 10 milyon dollar vəsait xərclənib. Guya, bu vəsait Ermənistan müəssisələrinə Qarabağ münaqişəsinin iqtisadi nəticələri ilə mübarizədə kömək məqsədilə ayrılıb. Bəs, nəticəsi nə oldu? İrəvanın bölgə ölkələri ilə əməkdaşlığının inkişafına xərclənməli olan vəsait, faktiki olaraq, Ermənistanın qonşu ölkələrə münasibətdə qarşıdurma mövqeyini bir az da gücləndirib.

Görünən odur ki, ABŞ-nin humanitar və demokratik proqramların maliyyələşdirilməsi Ermənistan hökumətinin tutduğu antisülh mövqeyinin doğruluğuna əminliyini daha da möhkəmləndirir. Bu zaman vəsait ayıran tərəf təcavüzkarın siyasətini həm dəstəkləyir, həm də onu haqlı çıxarır. Son nəticədə USAID-in belə şübhəli və qərəzli xeyriyyəçilik fəaliyyəti Cənubi Qafqazda sülhə nail olmaq üçün göstərilən bütün cəhdləri təhlükə altına alır, sülhün özünü sarsıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Ortaq əlifbadan – ortaq universitetə



## I məqalə

Ortaq Türk əlifbasının yaradılmasına nail olmaq tarixi hadisədir. 34 hərfin bütövlükdə türk mənəviyyatını, mədəniyyətini, dünyaduyumunu, fəlsəfi-elmi təfəkkürünü, psixologiyasını dövlətçilik qavramını və çox sayda digər həyati əhəmiyyətli "kod"ları necə dəyişəcəyini indi, bəlkə də, tarixi və fəlsəfi təxəyyülü güclü olan insanlar dolğun təsəvvür edə bilər. Həmin 34 hərfin yaratdığı əlifbanın ruhunu, mənasını, məqsədini və mədəni fenomen kimi "kimliyini" isə sadə insanların real dərk etməsinə zaman lazım gələcək.

Sözün məcazi mənasında, bu, Böyük Qayıdışın çoxmənalı formasıdır. Eyni kökdən olan xalqların düşüncəsində, davranışında, siyasi və sosial özəlliklərində, mədəniyyətində dirçəlməsi üçün ortaq dəyərlərə yüksək elmi və təhsil səviyyəsində qayıdışıdır! Bu, köhnəliyin qabardılması deyildir, etnik-mədəni yaddaşın elə qatlarına işıq salmaqdır ki, orada əsrlərdir üstü malalanmış ortaq türk mədəniyyətinin kodları vardır. O kodlara işıq salmaq gələcəyə getməyin möhkəm təməlini yaratmaq deməkdir. Ortaq əlifba bu mənada bizi uğurlu və işıqlı gələcəyə apara biləcək "Ortaq yol"un intellektual çırağıdır! Bu tezisin sübuta ehtiyacı vardır.

### "Ortaq yol"un intellektual çırağı

Kanadalı sosioloq Marşall Maklüyen keçən əsrin 60-cı illərində "Hutenbergin Qalaktikası" adlı məşhur əsərində yazırdı ki, əlifba fərdlərin və cəmiyyətlərin sosial-psixoloji keyfiyyətlərini, onların özlərinə və dünyaya münasibətini formalaşdırır. Məsələn, Çin Əlifbası obrazlı təfəkkür yaradır, latın əlifbası məntiqi-rasional təfəkkür formalaşdırır. Uyğun olaraq, yapon əlifbası ərəb əlifbasından fərqli insan tipi yetişdirir və s. İlk baxışdan xeyli mücərrəd görünən bu müddəanın çox sayda tərəfdarı vardır. Bu mənada M.Maklüyen tək deyildir. Bu tezisin maraqlı fəlsəfi əsaslandırılması ola bilər. Onun üzərində ötəri dayanaq.

Məsələ Platona gedib çıxır. Platon rəmzləri (o cümlədən rəqəmləri) yaddaşla əlaqələndirirdi. Özlüyündə bu da olduqca maraqlı fəlsəfi məqamdır. Yəni 1, 2, 3, 4 və s. rəqəmlərin yaddaşla hansı məzmun əlaqəsi ola bilər? Filosoflara görə, məsələn "1" yazılışı mahiyyətcə insan beynindəki yaddaşın əlamətidir. Hər hansı rəmzi ifadə bu mənada yaddaşdır. Nə yaddaşıdır? Gen yaddaşı, sosial yaddaş, fərdi və kollektiv yaddaş, mədəniyyət yaddaşıdır və s.

Deməli, hər hansı əlifbanın hərfləri (yəni rəmzi, obrazlı ifadələri) dərinlərdə insanın yaddaş özəlliyi ilə bağlıdır. Yaddaş özəlliyi fərdin və kollektivin daxili psixoloji keyfiyyətləri ilə sosial həyatın təşkili üsullarının sintezindən yaranır. Onda əlifbanın hərfləri ayrılıqda insanın daxili psixoloji xüsusiyyətləri ilə kollektiv həyatının özəlliklərinin hansısa aspektini əks etdirir. Bizim "əlifba" dediyimiz hərflər sistemi isə bütövlükdə, həyatın, varolmanın, sosial-mədəni həyat təzinin, dünyaduyumunun və s. bütün aspektlərini vahid bucaq altında ifadə edə bilmək üçün yaranan rəmzi sistem olaraq təsəvvür edilə bilər. Mürəkkəb və çətin qavranılan tərifdir. Lakin əlifbanın funksionallığı çox dərin və çoxaspektlidir!

Bu qısa təqdimatdan belə alınır ki, müəyyən mənada əlifba toplumun həyat yolunun beyinlərdə təşkiledicisi və istiqamət vericisidir. Daha geniş aspektdə isə bütövlükdə toplumun həyat yolunun başlanğıcı və kompasıdır.

### Türklərin "əlifba taleyi"

Bu həm maraqlıdır, həm də sosial, psixoloji, kulturoloji, fəlsəfi aspektlərdə vahid bucaq altında araşdırılmasını gözləyən aktual məsələdir. Bunu tarixi faktlar diktə edir. Məsələ ondan ibarətdir ki, türk xalqlarının sayı çoxdur. Çox passionar türk tayfaları dünya mədəniyyətini "çalxalayan" mədəni dəyərləri yaratmışlar. Deyək ki, alman tədqiqatçılar (Vyana məktəbi) türkləri çöl mədəniyyəti sisteminin "savaşçı çobanlar" mədəniyyəti kimi bütün dünya mədəniyyətini hərəkətə gətirdiyi, faktiki olaraq, onu "mayalandırdığı" qənaətinə gəlmişlər. "Savaçı çobanlar" geniş bir məkanda insanlara ailə qurmaq modelini vermiş və özləri də oturaq həyat tərzi keçirənlərdən eyni qayda ilə "dayanıqlı ailə" modeli almağa çalışmışlar.

Türklərin bu cür mədəni mübadiləsinə açıq olmaları, bütövlükdə, onların mental özəlliyidir. Buna görə də etnik sərhədinə qapanmış türk toplumu yoxdur, məhdud fəaliyyət göstərən türk dövlətinə rast gəlməzsən. Buna görədir ki, türklərdə şovinizm yoxdur – onlar mədəniyyət mübadiləsinə həmişə açıqdırlar (azərbaycançılıqda mədəniyyətlərarası əlaqələrin və multikulturalizmin əsas yer tutduğunu xatırlayın). Ulu öndər Heydər Əliyev azərbaycançılıq kontekstində iki mədəniyyət faktorunu daim vurğulayırdı: öz mədəniyyətini mütləq bilmək, ona dəyər verməklə dünya mədəniyyətinə daim açıq olmaq, onu öyrənmək bir-birindən ayrılmazdır!

Ancaq mədəniyyətin yazılı növünə keçiddə türklər arasında "yol fərqləri" meydana gəldi – onlarn əlifbaları bir-birindən fərqləndi. Digər tərəfdən, türklər başqa inkişaf edən xalqlar kimi öz əlifbalarını yazılı mədəniyyət növünün substantiv və kommunikativ şərtlərinə uyğunlaşdıra bilmədilər. Nəticədə ikiqat fərqlilik və dağınıqlıq meyilləri gücləndi. Bu proses müasir mərhələdə türk xalqlarını düşüncə tərzi, həyat tərzi, siyasi, sosial, psixoloji və s. məsələlərdə bir-birindən uzaqlaşdırmağa doğru sürükləməkdədir. Paralel olaraq, türklər fərqli əlifbalardan istifadə edirlər. Böyük toplumlar kimi türklər ərəb, latın və kiril əlifbalarında yazırlar. Baxın, nə qədər dərin fərqliliklər yarana bilər!

Türk övlətləri Təşkilatına (TDT) üzv olan xalqların bir qismi kiril, digəri isə latın əlifbasında "düşünürlər"! Bu, bir təşkilatda fərqli təfəkkür tərzi, həyat duyumu, dünya qavramı, mədəniyyət baxışının qalması deməkdir. Kirildən istifadə edən qazax, qırğız və ya türkmən azərbaycanlı və ya türkiyəli ilə eyni sosial-psixoloji, fəlsəfi, bədii təfəkkürə malik ola bilərmi? Mümkün deyil!

Bu çoxdüyünlü, çoxqatlı və çoxistiqamətli varolma yollarını ortaq yola çevirmək həmin səbəblərdən tarixi olduğu qədər də, strateji mahiyyətlidir! Bu gələcəkdir. Gələcəyi necə görmənin zəkavi və duyğusal təməlidir.

Belə alınır ki, ortaq əlifba yaratmaq sadəcə hərfləri müəyyən etməkdən ibarət deyildir. Eyni zamanda ortaq əlifbada əsasən Azərbaycanda işlənən əlifbadan istifadə etmək də texniki seçim deyildir. Bunun da dərin tarixi, fəlsəfi, psixoloji, mədəni, mental və etno-mədəni müəyyənediciləri mövcuddur. Çünki "niyə məhz bu cür əlifba?" sualına təməldən düzgün cavab lazımdır. O cavabı isə bir türkün məqaləsində tapmaq imkansızdır, çünki kollektiv elmi yaradıcı fəaliyyətin nəticəsi olmalıdır. Proses olmalıdır və onun gedişində 34 hərfin bütün aspektlərdə mənaları dərk edilməlidir. O hərflərin yaratdığı kollektiv düşüncə həm varolma, həm də yaradıcı aspektlərdə özünü təsdiq etmə deməkdir.

### "Əlifba və bir millətin dövlətləri"

Heydər Əliyevi tam dərinliyinə qədər dərk etmək uzun çəkəcək. Ulu öndərin zahirən sadə və ümumi görünən hər kəlamında, fikrində və davranışında türk kimliyinin dəyərləri ifadə olunmuşdur. Bunu anlamaq asan deyildir. Buna görədir ki, mən tarix elmləri doktoru Eynulla Mədətli ilə həmmüəlliflikdə Ulu öndərin "Bir millət, iki dövlət" kəlamının fəlsəfi-tarixi anlamlarına baş vurmaq cəhdimizi okeanda yarımdamla hesab edirəm. Fəlsəfənin və tarixin sonsuz ümmanında hansı tərəfə "üzsən", orada bu kəlamın mənalarına rast gələ bilərsən. O mənalardan biri də türk dövlətlərini bir millətin övladları kimi, ortaq əlifba yoluna çıxardı. Həqiqət budur!

Öncə, aydın idi ki, Azərbaycan və Türkiyə bir millətin iki dövlətidirsə, fərqli yazı mədəniyyətinə, yaddaş məzmun və funksiyasına, dövlətçilik qavramına, dünyaduyumuna malik olmalı deyildilər. Bunun üçün onlar mütləq eyni əlifbadan istifadə etməli idilər. Azərbaycan müstəqilliyini qazanmış türk dövlətləri arasında ən cəsartlisi, türkçüsü olaraq çevik qaydada latın əlifbasına keçdi. Əksəriyyət üçün adi və aksiom kimi görünən və yalnız Azərbaycanın daxili işi olaraq qəbul edilən bu möhtəşəm addım ortaq yola aparan ilk təşəbbüs idi.

Məsələ onunla bağlıdır ki, Azərbaycanla Türkiyə arasında digər sahələrdə olduğu kimi elm və təhsildə sürətli mübadilə prosesi başladı. Keçən əsrin 90-cı illərində bu, kulminasiya nöqtəsinə çatdı. Azərbaycanlılar asanlıqla Türkiyənin təhsil ocaqlarında oxudular. Eyni zamanda, Türkiyə potensialı yüksək olan azərbaycanlı alimlərdən, mütəxəssislərdən sürətlə yararlanmaq imkanı əldə etdi. Faktdır ki, həmin dövrdə azərbaycanlı alimlər Türkiyənin elm və təhsil sahəsində inkişafın, islahatların aparılması üçün ciddi töhfələr verdilər. Hətta Türkiyə rəhbərləri Rusiyada əlləri çatan azərbaycanlı alimləri öz yaradıcı komandalarına daxil edərək onlardan yararlandılar və bu proses indi də davam edir.

Azərbaycanla Türkiyənin, demək olar ki, kiçik fərqlərlə eyni əlifbadan istifadə etmələri burada türk məktəblərinin uğur qazanmasına ciddi yardımçı oldu. Minlərlə azərbaycanlı Türkiyə təhsili və eyni qaydada türkiyəlilər Azərbaycan təhsili ilə tanış oldular. Əlifbanın bu stimullaşdırıcı rolunu unutmaq olmaz!

Ancaq əlifba məsələsinin başqa maraqlı töhfələri də vardır. Onların sırasına türk dövlətlərinin inetqrasiyasında ortaq yazının əhəmiyyəti xüsusi yer tutur. Təsadüfi deyildir ki, türk dövlətləri əlaqələri qurmaq üçün başlanğıcdan ortaq "türk dili" və "ortaq əlifba" terminlərini tez-tez işlədirdilər. Ancaq təcrübə göstərdi ki, bu, son dərəcə çətin prosesdir və incəlikləri var. Məsələnin bu tərəfini kənara qoyaq və konkret praktiki müstəvidə türklərin əməkdaşlıq prosesinin bir mühüm cəhətini vurğulayaq.

### Naxçıvan –2009: yeni mərhələnin sinerji qaynağı

Bəli, XXI əsrdə ortaq əlifbanın dövlətlər səviyyəsində rəsmi dəstəklənməsi və konkret proqram çərivəsində mərhələli həlli Azərbaycanın Naxçıvan şəhərində 2009-cu ildə keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə toplantısında imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"ndən başladı. Bu, müasir dövrdə türk dövlətlərini bir araya gətirmək prosesində bir inqilabi hadisə idi. Onun bir sıra bəndlərinə nəzər salaq. Preambulanın başlanğıcında yazılmışdır: "Dövlət başçıları, tarix, dil və mədəniyyət yaxınlığına, dostluq, bərabərlik və qarşılıqlı faydaya əsaslanan, bütün sahələrdə mövcud olan yüksəksəviyyəli əlaqələrin və əməkdaşlığın əhəmiyyətini qeyd" edirlər və 2-ci bənddə yzılır: "Türkdilli ölkələr arasında ortaq tarix, dil və mədəniyyət yaxınlığından irəli gələn münasibətləri və həmrəyliyi qarşılıqlı maraqlar əsasında davam etdirmək niyyətlərini ifadə etdilər".

Sonra müvafiq olaraq 9-cu və 10-cu bəndlər: "Elm, təhsil, mədəniyyət, incəsənət, turizm, idman və digər sahələrdə əlaqələrin genişləndirilməsində qarşılıqlı maraqlı olduqlarını təsdiq etdilər, türkdilli xalqlar arasında mənəvi və humanitar əlaqələrin saxlanılması və möhkəmləndirilməsinə tərəfdar olduqlarını bildirdilər"; "Elm təşkilatları və elm xadimləri arasında əlaqələrə, o cümlədən müvafiq sahədəki konkret layihələrə dəstəklərini ifadə etdilər və təhsil sahəsində əməkdaşlığın əhəmiyyətini bir daha təsdiqlədilər".

Daha sonra 27-ci və 28-ci bəndlər: "Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə toplantısında imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi" əsasında təsis edilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının türkdilli dövlətlər arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində yeni mərhələni müəyyən etdiyini qeyd etdilər"; "Tarixi əlaqələrə söykənən türkdilli dövlətlər arasında mövcud olan yüksək səviyyəli təmaslar dostluq və mehriban qonşuluq ruhunda həyata keçirilir və türkdilli dövlətlərin maraqlarına cavab verir. Tərəflər ümumi mədəni irsin qorunması, gələcək nəsillərə ötürülməsi və beynəlxalq müstəvidə təbliğatı sahəsində sıx əməkdaşlığın inkişafı üçün səy göstərəcəklərini bildirdilər".

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Erməni kilsəsinin dəyişməz xisləti

## *Yaxud xristianlıqda "armenizm" xəstəliyi*

**(əvvəli qəzetin 6 sentyabr sayında)**

Sonralar tarix səhnəsinə çıxmış, indi "erməni" dediyimiz hay etnik qrupunun inancını Günəş totemi təşkil etdiyindən, Allaha sitayiş arxa planda qalmışdı. Ermənilər daha çox Günəşə sitayişi davam etdirmişlər. Tövhid xristianlığın ən əsas xüsusiyyəti olsa da, hayların əcdadları buna az əhəmiyyət verir, bəzi hallarda hətta Allahı aldatdıqlarını zənn edirdilər. Njde "xristian dini ermənilər üçün alət rolunu oynamışdır", – deyəndə məhz bu cəhəti nəzərdə tuturdu.

Ermənilərin dini inanclarının özünəməxsus xüsusiyyəti arevizm məsələsində də özünü göstərdi. Arevizmə sitayiş edənlər, əslində, zərdüştiliyi qəbul edənlər idilər və onların inanclarında səmimi olmadıqlarını dünya ermənişünasları dəfələrlə qeyd ediblər.

Zərdüştülükdə Od (Atar, sonralar Azər) ilahi ədalətin ifadəsi rəmzi hesab olunurdu. İbadətgahlarda odu sönməyə qoymaz, ona səcdə edər, odun şərəfinə məbədlər ucaldardılar. Ermənilərin Hindistandan gəldiyini iddia edənlər bu tezisi vurğulayırlar ki, onların əsas dinləri zərdüştüyün bir qolu olan arevizm idi. Od və atəş arevistlər üçün müqəddəs deyildi. Zərdüşt dininə sitayiş edənlər arevist təlimi özlərinki hesab etmirdilər.

Bu gün yezidiləri arevizmin daşıyıcıları hesab edənlər də var. Ermənistanda kürd dilində danışan 20 minə yaxın yezidi yaşayır. Yezidilər cənnət və cəhənnəmin bu dünyada movcud olduğuna inanırlar. Deyirlər ki, insanın inancından, həyat tərzindən asılı olaraq dünya cənnətə və ya cəhənnəmə çevrilə bilər. Yezidilərin, eləcə də özlərini arevist hesab edən hayların əməl etməli olduğu prinsip və inanclar bunlardır: dünya əbədidir; dünyanı yaradan Allah onu heç vaxt qiyamətə aparmaz; insanlar təbiəti qorumağı və təbiətə qayğı göstərilməlidir; gündə 3 dəfə Günəşə ibadət edilməlidir.

Bunlar həm də erməni arevizminin əsas prinsipləridir və yezidilərlə ermənilərin inancında heç bir fərq yoxdur. Erməni arevizmində Xeyirlə Şər eyni idi. Allaha ibadət etməyə, Ondan qorxmağa, Ondan utanmağa ehtiyac yoxdur. O, həmişə mərhəmətlidir və insanlara yaxşılıq və ya pislik etmək gücünə malik deyildir. Bu dinə tapınanlar və sonradan xristian dininə keçənlər həmin prinsiplərlə yaşamağa davam etmişlər. Və ortaya dini inanclarına belə sədaqəti olmayan toplum ortaya çıxıb.



Xristianlığı qəbul etmək hayların inancından irəli gəlməyib. Onlar buna "siyasi nikah" kimi baxırdılar. Əsas inanc və gizli saxlanılan din arevizm idi. Göründüyü kimi, haylar tək tanrıçılıq inancına sahib deyildilər. Tanrıçılığın mənəvi və dini mədəniyyətində özünə mühüm yer tutmuş xaç, guya, Qruqorinin köməyilə Armeniyaya, Yunanıstana, Romaya, nəhayət, bütün Avropaya yayılmışdı. Ermənilər onu hazır simvol kimi qəbul etmişdilər. Bu, IV əsrdə baş vermişdi. Bundan sonra bərabərtərəfli xaç Qafqaz Albaniyası və İveriyada da qəbul edilməyə başlanmışdı.

Hayların müqəddəs Qriqorini erməni kimi qələmə verməleri saxtakarlıqdır. Xristian alimləri də eyni fikirdədirlər ki, Qriqorinin ermənilərə, yəni haylara heç bir aidiyyatı yoxdur. Mənşəcə fars olan Qriqori 257-ci ildə anadan olub. O, Parfiya çarının nəslindən olan Anakın oğludur. Anak saray münaqişələri zəminində Armeniya çarı Xozroyu qətlə yetirir. Ənənəyə görə, çarı öldürənin nəsli məhv edilməli idi.

Belə gərgin məqamda Qriqorinin anası öz körpəsini təqiblərdən gizlədə bilir. O, təsadüfən rəhmdil, zəngin Sofiya adlı bir qadınla rastlaşır. O, Anakın oğlunun böyüməsi və tərbiyəsi ilə məşğul olur. Qriqorinin nəcibliyi və licənablığı Sofiyanın tərbiyəsindən qaynaqlanır. Bununla, o, insanları özünə daha çox cəlb edə bilir. Qısa bir zamanda məşhurlaşan Qriqorinin xəstələrə şəfa verən loğman kimi tanınması da onun xilasında rol oynayır. Hakimlər məşhur vaizə ölüm hökmü elan etmədən onu ölkədən sürgün edirlər (30 mart 287-ci ildə).

Qriqori böyük şöhrət qazandığından Armeniyanın o dövrdəki çarı Tridat onu öldürtdürə bilmir. Bu, ölkədə narazılıq dalğası yaradar, daxili münaqişələrə səbəb olardı. Onun zindana salınması da çarın nüfuzuna xələl gətirərdi. Qriqorini Romaya göndərməyin də səmərəsi yox idi. Çünki onu orada da yaxşı tanıyırdılar. Parfiyaya qaytarılması da doğru olmazdı. Öz ölkəsində Qriqori qəhrəman kimi qarşılanacaqdı. Yeganə çıxış yolu onu türklərin içinə sürgün etmək idi (onu buraya sürgünə göndərməklə Tridat türklərin Qriqoriyə qarşı amansız davranacağını güman edirmiş).

Gözlənilənlərin əksinə olaraq, Qriqori türklərin içində – Kapadokya-Kayseridə özünü heç də narahat hiss etmir. Buna baxmayaraq, sürgün qaydalarına uyğun olaraq Qriqorini digər əsirlər kimi kahada saxlamalı idilər. 15 illik sürgündən sonra türklər Qriqorini 15 iyun 301-ci ildə azad edirlər. O, Armeniyaya işıqlı, maarifpərvər bir şəxs kimi qayıdır. Burada Qriqori Armeniyanın ilk katolikosu elan edilir. Ermənilər onlara aid olmayan "Armeniya" kəlməsindən yapışaraq, Qriqorinin onlardan biri olduğunu iddia edirlər. Amma reallıq budur ki, parfiyalı din adamının haylarla uzaqdan- yaxından heç bir əlaqəsi yoxdur.

V əsr salnaməçisi Favstos Buzandın "Armeniya tarixi" kitabında bu barədə məlumat verilir. Ermənicə dərsliklərdə bunlar saxtalaşdırılır, Qriqori erməni kimi təqdim olunur. Bu mənada ermənilərin xristianlığı hələ erkən orta əsrlərdən (301-ci ildə) qəbul etməsi versiyası həqiqətdən və səmimiyyətdən uzaqdır. O zaman heç erməni dövləti mövcud deyildi. Armeniya dövlət yox, coğrafi məkan kimi ya Parfiyaya, ya da Romaya bağlı bəylərbəyliyi, knyazlıq idi. Hayların vətəni, ana yurdu heç vaxt olmayıb və yoxdur. Bu coğrafi məkanda yüzlərlə fərqli soya malik xalqlar yaşayırdı. Xristianlığın ilk dəfə ermənilər tərəfindən rəsmi din olaraq qəbul edilməsi də fiksiyadır. Hətta milliyətcə erməni araşdırmaçı Filip Ekzoyants bu iddianı inkar edərək, "xristianlığı ilk qəbul edən dövlət" mifini dağıdıb.

Ermənilər xristianlıqdan öz məkrli məqsədlərinə çatmaq üçün sui-istifadə etmişlər. Əsrlər boyu başqa dövlətlərin tərkibində yaşayan haylar yalnız milli mənafeleri qədərincə xristian olmuşlar. Bu gün də elədir. Onlar lazım gəlsə, istənilən digər dinin daşıyıcıları kimi çıxış etməyə hazırdırlar. Lap bir anın içində inanc dəyişikliyinə də gedə bilərlər. Yüzlərcə belə fakt var.

Erməni üçün müqəddəs din yoxdur. Başqa mənada, sadəcə, armenizm vardır, bu isə ayrı xəstəlikdir. İndi biz armenizmi ideologiya kimi yayılan və təbliğ edilən bir nəzəriyyə saya bilərik. Təkamül baxımından isə, əlbəttə, "təcrübədə həyata keçirilməsi" mümkün olmayan bir plan olaraq görə bilərik. Armenizmin əsas məqsədi öncə milli ruhu aşılamaq, sonra onu dini ruhla birləşdirməkdir. Bu, erməniliyin çox vaxt diasporla bir olmaq istəyindən irəli gəlmişdir və onu xristianlığa bağlamağa səy göstərmişlər. Yenə də milli mənfəət dindən önə keçib. Bəlkə də, erməni millətinin hədsiz dərəcədə millətçiliyə, irqçi düşüncəyə yuvarlanmasının əsas səbəblərindən biri budur.

**(ardı var)**

*Qafar ÇAXMAQLI,*
*"XQ"nin Türkiyə müxbiri*




# İqlim dəyişmələri ekosistemlərin tarazlığını pozub

**Son 100 ildə Yer kürəsi iqlim dəyişmələri fonunda daşqınlar, qar uçqunları, tufanlar, qasırğalar, güclü küləklər, istiliklər, quraqlıqlar, buzlaqların əriməsi, torpaqların deqradasiyası, səhralaşma, yağıntıların və su ehtiyatlarının azalması kimi ekstremal hadisələrin təsirlərinə məruz qalıb.**

Nəticədə həm regional, həm də qlobal səviyyədə insanların qida təhlükəsizliyi və suya çıxışı məhdudlaşıb, aclıq, yoxsulluq və digər ağır sosial-iqtisadi nəticələr miqrasiyanın güclənməsinə səbəb olub. Eyni zamanda, yoluxucu və xroniki xəstəliklər çoxalıb. Təsadüfi deyildir ki, Ümumdünya Səhiyyə Təşkilatı XXI əsrdə qlobal sağlamlıq üçün ən böyük təhlükə kimi iqlim dəyişmələrini göstərib.



**Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun dosenti, landşaftşünaslıq və landşaft planlaşdırılması şöbəsinin müdiri Mirnuh İsmayılov** qəzetimizə açıqlamasında iqlim dəyişmələrinin ölkəmizin bütün sferalarına təsir etdiyini, ekosistemlərin strukturunda ciddi dəyişmələrə səbəb olduğunu bildirdi. O daha sonra dedi:



– İqlim dəyişmələri iqtisadi inkişafa, insanların həyat fəaliyyətinə, demoqrafik proseslərə, dünyadakı siyasi vəziyyətə və milyon illər ərzində formalaşmış təbii ekosistemlərin strukturuna ciddi şəkildə təsir edir. Bu dəyişmələr ölkəmizdə həyatın və təbiətin bütün sferalarında müşahidə olunur. Məsələn, havanın temperaturunun yüksəlməsi, atmosfer yağıntılarının miqdarında, rejimində və ərazi üzrə paylanmasında dəyişmələrin əmələ gəlməsi, güclü küləklərin təkrarlanma tezliyinin artması, həmçinin sinoptik hadisələrin qəfil baş verməsi, ilk növbədə, təbiətdə dominantlıq təşkil edən meşə, şirin su, dağ-çəmən, yarımsəhra, quru-çöl, nival-qalıq və s. ekosistemlərin strukturuna ciddi təsir göstərir.

**– Meşə ekosistemləri antropogen təsirlərə, iqlim dəyişmələrinə qarşı çox həssas landşaftlardır.**

– Azərbaycanda meşə ekosistemləri ərazimizin 11 faizini təşkil edir ki, bu da orta dünya göstəricisindən 2,5 dəfə azdır. Meşə ekosistemləri, xüsusilə arid meşələr təbii və antropogen təsirlərə, iqlim dəyişmələrinə qarşı çox həssas landşaftlardır. Son 150 il ərzində respublikamızda zəngin biomüxtəlifliyə malik arid–meşə ekosistemləri 20 dəfədən çox azalıb və təbii bərpası mümkün olmayan daha arid quru çöllərə transformasiya olunub.

Qlobal iqlim dəyişikliyi şəraitində ekstremal iqlim hadisələri şiddətinin gələcəkdə artmasının meşələrə müxtəlif yollarla təsir göstərəcəyi gözlənilir. Bəzi bölgələrdə proqnozlaşdırılan istiləşmə şimal zonasında daha quru şərait təhlükəsi yaradır, bu da birbaşa meşə yanğınlarının artması ilə nəticələnə bilər. Son iqlim dəyişmələri fonunda artan quraqlıq stresinin Naxçıvan MR-in bəzi yüksək ərazilərində ağac artımının azalmasına səbəb olacağı gözlənilir. Bundan əlavə, iqlim dəyişikliyi təbiətdə zərərvericilərin daha geniş yayılmasına gətirib çıxara bilər.

Abşeron təbiətinin inkişafını ləngidən əsas səbəb quraqlıq və zərərvericilərdir. Başqa sözlə, qışın sonunda, yaxud yazda baş verən quraqlıq və ya patogen həşəratlar ağac köklərinə böyük zərbə vurur. Mövcud iqlim şəraitində onların bərpası ciddi antropogen müdaxilə ilə mümkündür.

**– Ölkəmizdə buzlaq sahələrin həm sahəsi, həm də qalınlığı azalır. Bu gələcəkdə nə kimi problemlər yarada bilər?**

– İqlim dəyişmələrinə ən həssas olan landşaftlar nival-buzlaq ekosistemləridir. Buradakı çoxillik qar və buzlaqlar havanın temperaturunun artması ilə əriyərək sahəsi və qalınlığı azalır. Aparılmış tədqiqatlar göstərir ki, Azərbaycanın Böyük Qafqaz dağlarındakı buzlaqların sahəsi 1940-ci ildə 8,92 kvadratkilometr, 1960-cı ildə 6,40, 1987-ci ildə 5,7, 2016-cı ildə 1,2, 2022-ci ildə isə 0,62 kvadratkilometr olub. Deməli, son 80 il ərzində nival–buzlaq ekosistemlərinin sahəsi 14 dəfədən çox azalıb.

Ən sürətli iqlim dəyişmələrinin intensivləşməsi 1990-cı illərdən sonrakı dövrlərə təsadüf edir. Ölkə ərazisində nival–buzlaq ekosisteminin ən geniş yayıldığı ərazi Bazardüzü zirvəsidir. Vaxtı ilə burada buzlaqların 3,62 kvadratkilometr sahə tutduğu hesablanıb. Təxminən son yarıməsrlik dövr ərzində Bazardüzü dağının nival–buzlaq ekosisteminin sahəsi 92,3 faiz azalaraq, hazırda 0,28 kvadratkilometr kiçik bir ərazidə qalıb.

Apardığımız hesablamalar nəticəsində məlum olub ki, 1990–2022-ci illər arasında Şahdağ buzlağı 22,5 faiz, Bazaryurd buzlağı 83,3 faiz, Çarundağ buzlağı 90,3 faiz azalıb. Tufandağ və Raqdan zirvələrində isə nival–buzlaq ekosistemləri demək olar ki, müşahidə edilməyib.

İqlim dəyişiklikləri qeyd olunan istiqamətdə davam edərsə, Böyük Qafqazın şərq hissəsində buzlaqların intensiv əriməsi dağların şimal-şərq yamacı ilə axan çaylarda yaxın illər ərzində su sərfinin azalacağının, həmçinin Qusar maili düzənliyində və Şollar düzündə yeraltı suların qidalanmasında problemlərin yaranacağını deməyə əsas verir.

**– Son dövrlərdə şirin su ekosistemlərində də ciddi problemlər müşahidə olunur. Onlarda yaranan hər hansı çətinlik digər ekosistemlərə də təsir edir. Bu, ekosistemlərin pozulmasına və tamamilə fərqli şəkildə yenidən qurulmasına səbəb olur. Bəs bu barədə nə demək olar?**

– Havanın temperatur dəyişməsindən daha çox ziyan çəkən şirin su ekosistemlərindən biri də çay–dərə ekosistemləridir. Çay–dərə ekosistemləri Azərbaycan təbiətinin bütövlüyünü, tamlığını qorumaqla yanaşı, təbii və antropogen ekosistemlərin mövcudluğunun vacib şərtlərindən biridir. Təbiətdəki abiotik və biotik elementlər fasiləsiz olaraq çay dərələri boyunca hərəkət edərək müxtəlif səviyyəli dağ və düzənliklərin meqa ekosistemləri arasında qarşılıqlı əlaqənin maddələr və enerji mübadiləsini gerçəkləşdirir. Bu baxımdan çay–dərə ekosistemləri təbiətimizin “qan damarları” və ya ekoloji dəhlizlərdir. Onlarda yaranan hər hansı problem digər ekosistemlərin pozulmasına və tamamilə fərqli şəkildə yenidən qurulmasına səbəb olur. Əlbəttə, su resurslarının azalması torpağın münbitləşməsinin itməsi, buxarlanmanın artması və ərazilərin quruması kimi dəyişikliklərə gətirib çıxarır.

Son zamanlar iqlim dəyişmələrinin sosial-iqtisadi həyatımıza təsirini azaltmaq məqsədi ilə dövlətimiz tərəfindən çaylar üzərində müxtəlif su anbarları yaradılır. Bu da aşağı axında çay dərələri boyunca uzanan təbii və antropogen ekosistemlərin deqradasiyasına səbəb olur. Bunun qarşısını almaq üçün elmi tədqiqatlara əsaslanan optimallaşdırma tədbirləri həyata keçirilməlidir.

*Hazırladı:*
*Ə.PÜNHAN*
*XQ*

# Enerji keçidi mövzusunda investisiya forumu

**Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi və Energetika Nazirliyi COP29 çərçivəsində Bakıda Mərkəzi Asiyada enerji keçidi üzrə ilk investisiya forumu keçirəcək.**

Energetika Nazirliyindən aldığımız məlumatda bildirilir ki, noyabrın 15-16-da reallaşacaq forum iqlimlə bağlı maliyyələşmənin əsas prioritet istiqamət olduğu nəzərə alınmaqla, bu sahədə ambisiyaların artırılmasına, eləcə də praktiki tədbirlərin həyata keçirilməsinə dəstək məqsədi daşıyır.



Forumun keçirilməsi ilə bağlı IRENA-nın baş direktoru Francesco la Camera deyib: “Lazımı investisiyaların cəlb edilməsində ciddi çətinliklərlə üzləşməsinə baxmayaraq, Mərkəzi Asiya bərpaolunan enerji mənbələrindən istifadənin inkişafı üçün böyük potensiala malikdir. COP29 çərçivəsində enerji keçidinə dair Bakıda keçiriləcək investisiya forumu sərmayələrlə bağlı maneələri aradan qaldırmaq, maraqlı tərəflərin fəaliyyətlərini əlaqələndirmək və dünyanın diqqətini bu bölgədən olan layihələrə cəlb etmək üçün xüsusi olaraq hazırlanıb”.

COP29-un prezidenti Muxtar Babayevin sözlərinə görə, Azərbaycan “yaşıl” enerji keçidinə daim sadiqlik göstərib və hazırda bərpaolunan enerji mənbələri sahəsində qonşu Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıq qurulub: “Enerji sistemlərinin birləşdirilməsi haqqında Azərbaycan, Qazaxıstan və Özbəkistanın energetika nazirləri arasında əldə edilmiş razılıq kimi təşəbbüslər bu əməkdaşlığın təsdiqidir. Biz inanırıq ki, dünya bu ilin noyabrında Bakıda bir araya gələndə COP29 tədbiri gənclərin, bərpaolunan enerji potensialının, canlı iqtisadiyyatın köməyi ilə Mərkəzi Asiyanın “yaşıl”, ədalətli inkişaf yolunda irəliləməsi üçün tramplin rolunu oynaya və bu yolu davam etdirmək üçün lazımi investisiyaları cəlb edə bilər”.

Energetika naziri Pərviz Şahbazov isə qeyd edib ki, Azərbaycan bərpaolunan enerjinin regional layihələrlə inkişafını gerçəkləşdirən strateji əhəmiyyətli təşəbbüslərin reallaşması üçün mühüm addımlar atır. Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi, Mərkəzi Asiya ölkələrinin nəhəng enerji potensialının “yaşıl” enerji dəhlizləri ilə Türkiyə və Avropa bazarlarına nəql olunması əsas prioritetlərdən biridir. COP29 zamanı IRENA və Azərbaycanın birgə keçirəcəyi Enerji Keçidi İnvestisiya Forumu Mərkəzi Asiya ölkələri ilə “yaşıl” enerji tərəfdaşlığını gücləndirəcək, investorların, enerji şirkətlərinin marağını cəlb edəcək və müştərək layihələrin reallaşdırılmasını sürətləndirən məhsuldar platforma olacaq.

Qeyd edək ki, iki günlük forumda Mərkəzi Asiyadakı bərpaolunan enerji keçidi layihələrinə investisiya yatırımlarının təşviqi məqsədilə dünya və region üzrə maraqlı tərəflər bir araya gələcək, BƏƏ-nin COP28-də əldə etdiyi konsensus nəticələrinin inkişafı məqsədilə bərpaolunan enerji istehsalının artırılmasının zəruriliyi vurğulanacaq, enerjiyə keçidlə əlaqəli texnologiyalara investisiyaların artırılması imkanları ilə bağlı hökumətlər, maliyyə institutları, investorlar, layihənin icraçı tərəfdaşları, layihə tərtibatçıları (developerlər) və digər əsas maraqlı tərəflər arasında geniş dialoq keçiriləcək.

# Çin şirkətinin ölkəmizlə təmiz enerji əməkdaşlığı



**Çinin “Energy China” şirkəti törəmə qurumları vasitəsilə respublikamızın bərpaolunan enerji sektorunda iştirakını genişləndirir. Şirkətin Azərbaycan üzrə meneceri Şansyan Vunun mediaya məlumatında bildirilir ki, keçən ilin iyun ayında Azərbaycan Energetika Nazirliyi ilə CGGCOIC şirkəti arasında imzalanan Anlaşma Memorandumuna əsasən, respublikamızda günəş və külək enerjisi, “yaşıl” hidrogen sahəsində irimiqyaslı layihələrin həyata keçiriləcəyi nəzərdə tutulub.**

Menecer daha sonra qeyd edib ki, cari il iyulun 3-də Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatı sammiti çərçivəsində Çin Xalq Respublikasının sədri Si Cinpin Prezident İlham Əliyevlə görüşüb. Bu görüşdə “yaşıl” enerji və regional əlaqələr sahəsində səylərin artırılmasının vacibliyi vurğulanıb ki, bu da ölkələrimiz arasında strateji tərəfdaşlığın yaradılması haqqında birgə bəyanatda da qeyd olunub.

“Energy China” şirkəti hər iki tərəf üçün uzunmüddətli strateji faydalar gətirəcək “Yaşıl Enerji Zonası” və “Yaşıl dəhliz” təşəbbüsləri çərçivəsində əməkdaşlıq edir. Şirkət, həmçinin bərpaolunan enerji mənbələri sahəsində “SOCAR Green” və “Nobel Energy” kimi yerli şirkətlərlə əməkdaşlıq və tərəfdaşlığı gücləndirir. Bildirilib ki, “Energy China”nın dəstəklədiyi sənaye zəncirində enerji, nəqliyyat, rəqəmsal, su, ekoloji, sənaye və mədəni şəbəkələr arasında dərin inteqrasiya da perspektivli istiqamətlərdəndir.

Çin şirkətinin Azərbaycan üzrə menecerinin sözlərinə görə, COP29 konfransı bərpaolunan enerji, dayanıqlı infrastruktur və iqlim dəyişikliyi ilə mübarizə sahəsində fəaliyyət göstərən şirkətlər, o cümlədən “Energy China” üçün böyük əhəmiyyət kəsb edir: “Biz təmiz enerji sistemlərinə qlobal keçid, karbon emissiyalarının azaldılması strategiyası və iqlim dəyişikliyinə uyğunlaşmanın nəticələrinin yumşaldılması üçün maliyyə öhdəliklərinin artırılması çərçivəsində daha çox müsbət addımlar atılmasını gözləyirik”.

Şirkət nümayəndəsi hesab edir ki, bu, Azərbaycanın “yaşıl” enerji sahəsində böyük ambisiyalarını və fəaliyyətini dünyaya nümayiş etdirmək üçün əla fürsətdir. COP29 çərçivəsində hədəflər, siyasət və maliyyələşdirmə ilə bağlı məsələlərin əsas müzakirə mövzusu olacağı danışıqlar qarşıdakı dövrdə bərpaolunan enerjinin inkişafını müəyyənləşdirəcək.

# “Yaşıl” iqtisadiyyat naminə kibertəhlükəsizlik

**Bakıda “Yaşıl” iqtisadiyyat naminə kibertəhlükəsizlik” mövzusuna həsr olunmuş iki günlük konfrans işinə başlayıb. “Prosol” şirkətinin evsahibliyi ilə həyata keçirilən tədbir çərçivəsində Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin “CTF – Capture the Flag” kibertəhlükəsizlik müsabiqəsi təşkil olunub.**

“Prosol” şirkəti İdarə Heyətinin sədri Babək Ağayev bildirib ki, sayca 4-cü olan bu konfrans dövlət–özəl qurum təmsilçilərinin birgə fikir mübadiləsi apardıqları önəmli bir platformadır.

Hazırda qlobal səviyyədə kibertəhlükəsizlik mövzusu vacib istiqamətlərdən biridir. Bu sahədə xaricdən asılılığın azaldılması qarşıda duran əsas vəzifədir. Kibersahədə heç bir dövlətdən asılı olmamaq istiqamətində önəmli işlər görülür. Eləcə də, respublikamızda keçirilən “Yaşıl” iqtisadiyyat naminə kibertəhlükəsizlik” konfransı bu istiqamətdə aparılan işlərə dəstək verir. Azərbaycanın texnoloji sferada da oynadığı hab rolu, ölkəmizdə dövlət və özəl sahədə fəaliyyət göstərən qurumların üzərinə çox böyük məsuliyyət qoyur.

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov çıxışında vurğulayıb ki, hazırda dünyada elə bir sahə yoxdur ki, rəqəmsallaşmadan uzaq qalsın. Bu gün rəqəmsal inkişafın meyillərini nüvə təhdidi ilə müqayisə edən S.Ələkbərov bildirib ki, bu



konfrans sözügedən məsələləri zəruri edir. Son dövrlərdə dünyada baş verən hadisələr kibertəhlükəsizliyin önəmini daha qabarıq şəkildə nəzərə çarpdırır.

Konfransda çıxış edən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəis müavini general-mayor Allahverən İsmayılov çıxışında qeyd edib ki, Prezident İlham Əliyevin kibertəhlükəsizlik sahəsində milli ekosistemin formalaşdırılmasına, inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində ölkəmiz beynəlxalq səviyyəli “Kibertəhlükəsizlik indeksi”nin reytinq cədvəlində 36 pillə irəliləyərək 86-cı yerdən 50-ci yerə yüksəlib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Antiterror tədbirləri tarixi Zəfərimizin zirvəsidir

**2020-ci il sentyabrın 27-də başlanan və noyabr ayının 8-də bitən 44 günlük Vətən müharibəsi nəticəsində Cənubi Qafqazın siyasi və coğrafi xəritəsi nəinki dəyişdi, eyni zamanda, tariximizə son 200 ilin ən böyük zəfər salnaməsi düşdü. Hərbi əməliyyatlar 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanan üçtərəfli Bəyanatla başa çatdı.**



Müharibədən sonra Azərbaycan dəfələrlə Ermənistana davamlı sülh üçün çağırışlar etsə də, Ermənistan tərəfi hər dəfə danışıqlardan boyun qaçırır, bununla da kifayətlənməyərək suveren ərazilərimizdə silahlı təxribatlarını davam etdirirdi. 2021-ci ildə Azərbaycan və Ermənistanda sərhəd delimitasiyası üzrə işçi qruplar yaradıldı. Danışıqlar böhran və bölgədə ara-sıra baş verən silahlı toqquşmalarla müşayiət olundu.

Erməni silahlı birləşmələri qondarma Artsax hesab etdikləri hərbi xuntaya hər cür silah-sursat yardımı göstərirdilər. Belə ki, 2021-ci ilin noyabrında sərhəddə birinci silahlı toqquşmalar baş vermişdi. Müharibədən sonra ən qanlı toqquşma 2022-ci ilin sentyabrında sərhəddə baş verdi. Bundan əlavə, o vaxt Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycan ərazilərindəki faydalı qazıntı yataqlarının qeyri-qanuni şəkildə istismarı və bu zaman ekoloji normalara əməl edilməməsi, təbii sərvətlərin Ermənistana daşınması Azərbaycan ictimaiyyətinin haqlı narazılığına səbəb oldu. Separatçıların Qarabağda qeyri-qanuni fəaliyyətlərinə qarşı Azərbaycanın bir sıra vətəndaş cəmiyyəti nümayəndələrinin və ekologiya fəallarının Şuşa–Laçın yolunda bir müddət etiraz aksiyası keçirildi.

Nəhayət, hadisələrin gedişatı və erməni təxribatları 2023-cü ilin 20 sentyabr tarixinə qədər davam etdi. Belə ki, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törətdilər. Erməni kəşfiyyat–diversiya qrupları tərəfindən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçuları şəhid oldu və yaralandı. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu.

Nəticədə, Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralandı. Həmin gün Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində 2 mülki əməkdaş həlak oldu. Qeyri-qanuni erməni silahlı birləşmələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edildi. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycanda Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı.

Bu zaman Azərbaycanın Qarabağ bölgəsində 10 mindən artıq Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri cəmləşmişdi. Halbuki, üçtərəfli bəyanata əsasən, Qarabağ ərazisindəki erməni yaraqlıları 3 il əvvəl tərksilah edilməli idilər. Azərbaycan işğala məruz qalan tərəf olsa da, Qarabağda baş verən gərginliyin aradan qaldırılması, azərbaycanlılarla ermənilərin birgə yaşayışını təmin edəcək reinteqrasiya prosesinin normal davam etməsi və məsələnin ikitərəfli danışıqlar yolu ilə həllini tapması üçün 3 il müddətində əlindən gələni etdi.

Təəssüf ki, Azərbaycanın humanist çağırışlarının əvəzində erməni silahlı qüvvələri sayını artırmaqla, yeni silahlar alıb, təxribatlar törətməklə məşğul idilər. Vəziyyət o həddə çatmışdı ki Qarabağda separatçılar müstəqillik iddialarından əl çəkmir, özlərinin oyuncaq “prezident”lərini seçir, qondarma “parlament”ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər. Son bir neçə ayda Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin fəallaşması müşahidə olunurdu. Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin yüksəlməsinə səbəb olmuşdu.

Beləliklə, antiterror tədbirləri çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldı. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, separatçıların mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərərək, qısa müddət ərzində bütün istiqamətlərdə uğurlar əldə etdilər.

Vəziyyətin ən humanist və çox nadir görünən tərəflərindən biri də bu idi ki, əməliyyat başlanmazdan əvvəl bütün hərbi birləşmələrimizə ciddi tapşırıq verilmişdi ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Azərbaycanın Müdafiə Nazirliyi yaşayış yerlərinin yaxınlığında atəş vasitələrinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yerləşdirilməsini nəzərə alaraq ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırmışdı.

Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı. Razılaşmaya əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı birləşmələri, qeyri-qanuni dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı və tam şəkildə tərk-silah olunmalı idi.

Dəfələrlə Azərbaycan nümayəndələri ilə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri birgünlük antiterror tədbirlərindən sonra Yevlax şəhərində görüşməyə məcbur oldular. Görüşdə separatçı rejimin ləğvi, Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiya məsələləri müzakirə edildi. Eyni zamanda, Qarabağın erməni əhalisinə Azərbaycanın təklif etdiyi reinteqrasiya şərtləri ilə tanış olmaq, regionda qalıb-qalmamaq barədə müstəqil qərar vermək imkanları yaradıldı.

Sentyabrın 28-də Qarabağdakı separatçı rejimin rəhbəri Samvel Şahramanyan qondarma rejimin ləğvi ilə bağlı sənəd imzaladı.

Beləliklə, bir sutkadan az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz yerləşən Ermənistan ordusu tam şəkildə tərk-silah olunaraq ölkəni tərk etdi. Qarabağda qeyri-qanuni xunta rejimi ləğv olundu, separatçıların əsas rəhbərləri həbs edildi. Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi. Burada ölkə başçısının status-kvo mövzusunun birdəfəlik bitməsi ilə bağlı dediyi qəti fikirlərin necə gerçəyə çevrildiyini hər bi azərbaycanlı müşahidə etdi.

Uğurlu antiterror tədbirləri nəticəsində Azərbaycan tarixi Xankəndi, Xocalı, Ağdərə, Xocavənd, Əsgəranda üçrəngli bayrağımızı yüksəltdi və ərazi bütövlüyünü tam şəkildə bərpa etdi.

Hətta, 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin 3-cü ildönümünə həsr olunan təntənəli hərbi paradın keçirilməsi Qələbəmizə bir daha öz möhürünü vurmuş oldu. Bu Qələbə, heç şübhəsiz ki, Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, müdrik və uzaqgörən siyasəti, şəhidlərimizin, qazilərimizin canı və qanı bahasına əldə olundu. Zaman keçəcək, amma 19–20 sentyabr antiterror tədbirləri Azərbaycanın hərbi və siyasi tarixinin silinməz bir səhifəsi kimi hər zaman xatırlanacaq, xalqımızın, Milli Ordumuzun qürurunu ucaldan hadisələr kimi məktəblərdə tədris olunacaqdır.

***Adil ƏLİYEV,***
***Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı***

**Replika**

# Qozbel var ki, onu qəbir də düzəltmir

## *Yaxud dilənçilik xroniki hay xəstəliyidir*

**Pis vərdiş xroniki xəstəlik kimidir. Cana düşdümü, ölənədək tərk etmir. Özünü yazıq, əzabkeş kimi göstərib, tarixi proseslərdən yararlanmaq erməninin yüz illərdir dəyişməyən xislətidir. Dilənmək hayların milli xarakteridir, başqalarının torpaqlarında və ev sahiblərinin hesabına yaşamaq onların qanındadır. Bu millət istənilən məqamda dost, qonşu dediyinə xəyanətə hazır olduğu kimi, kişi kimi ləyaqətli düşmənçilik etməyi də bacarmır.**

Üç il bundan əvvəl rusların üstünə düşmüşdülər. “Rusiya hesab edir ki, Amerika Birləşmiş Ştatları Ermənistandan öz maraqlarına görə istifadə edir. Əslində, rusların bu düşüncəsi rəsmi Moskvanın iç üzünü göstərir. Çünki tarix boyu Ermənistan Rusiya üçün oyuncaq olub”. Bu sözləri üç il bundan əvvəl Ermənistan Avropa Partiyasının sədri Tiqran Xızmalyan deyib. Ölkəsinin düşdüyü bədbəxtlikdə Rusiya hakimiyyətini günahlandıran siyasətçi çarəni onları Hayastandan qovmaqda görürdü.



İndi də bir Kirakosyan peyda olub və Azərbaycana qarşı təzminat tələbini formalaşdırmaqdan dəm vurur. Dünya erməni sammitində çıxış edən Paşinyan hökumətinin beynəlxalq hüquqi məsələlər üzrə nümayəndəsi Yeqişe Kirakosyan Qarabağ ermənilərinin “hüquqlarının pozulmasına görə kompensasiyanın alınmasının onların geri qaytarılma hüququnun həyata keçirilməsi imkanını istisna etmədiyini”, əksinə, bu hüquqların “bir-birini tamamladığını” bəyan edib.

Tribunada haqdan və ədalətdən dəm vuran Kirokasyan bu barədə danışmağın hələlik tez olduğunu, amma “müəyyən mərhələdə Azərbaycana qarşı kompensasiya tələbinin formalaşdırılacağını və hesablamalar aparılacağını” bildirib. O, sammit iştirakçılarına bu “strateji plan”ın mahiyyətini də izah edib: “Hüquqi mənada vətəndaşlıq əldə etmək geri qayıtmaq hüququnun (indiki halda ermənilərin Qarabağa qayıtmaq hüququ - red.) həyata keçirilməsini istisna etmir”.

Erməni siyasətçi demək istəyir ki, Qarabağ ermənilərinə vətəndaşlıq verilməsi məcburi köçkünlərin fərqləndirilməsi məsələsini gündəmə gətirə bilər, amma bu insanları müəyyən etmək çox asandır. Yəni, hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq etnik ermənilərin Azərbaycana qayıtmaq hüququ vardır. Bu iddiasını Beynəlxalq Ədalət Məhkəməsində və Avropa İnsan Haqları Məhkəməsində Ermənistanın təqdim etdiyi iddialarda geri qaytarılma hüququnun həyata keçirilməsi tələbi ilə “əsaslandırmağa” çalışan Kirokasyan konkret “sübut” gətirir: “2023-cü il noyabrın 17-də Beynəlxalq Ədalət Məhkəməsi geri qaytarılma hüququnu müəyyən edən müvəqqəti qərar qəbul etdi. Orada bildirilir ki, Azərbaycan geri qayıtmaq istəyən ermənilər üçün təhlükəsiz şəraitin yaradılması üçün tədbirlər görməyə borcludur”.

BƏM-in “ədalətli qərarının” ardınca geri qayıdacaq ermənilərə Azərbaycanın təzminat ödəməli olacağına da diqqəti çəkən partiya sədrinin hansı məntiqlə bu xəyala düşdüyünü anlamaq çətindir. Öz haramını qonşunun halalından üstün sayan hay siyasətçi dilənçilik qoxusu gələn bu açıqlaması ilə gələcəkdə nəyəsə ümid etdiklərini büruzə verir.

Bu zehniyyət bizim üçün təəccüblü deyil. 30 il torpaqlarımızı işğal altında saxlayan, Qarabağın və ətraf 7 rayonun yerüstü və yeraltı sərvətlərini çapıb-talayan və bu gün də revanşist-separatçı siyasətindən əl çəkmək istəməyən Ermənistanın özünü dünyaya əzilən tərəf kimi tanıtmağa çalışmasında qəribə nə var ki? 30 illik talanın təzminatını Azərbaycana ödəməyi indi ağlının ucundan da keçirməyən Ermənistan sabah ona qarşı məhkəmənin hökmünü yerinə yetirməmək üçün hansı oyunlardan çıxacağını təsəvvür etmək çətin deyil. Amma xeyri olmayacaq! Dilənçiliklə olsa belə, vurduğu ziyanın əvəzinə təzminat ödəməyə məhkumdur! O cümlədən haqqını tapdadığı 1 milyon qaçqın və məcburi köçkün soydaşımıza vurduğu mənəvi ziyanın əvəzini də...

Dedik axı, xislətə çevrilmiş vərdişi bu dünyada tərgitmək mümkün deyil. “Qozbeli qəbir düzəldər” deyiblərsə də, bunları heç qara torpaq da düzəldə bilməz. Reallığa kor olanlarlın miskin mənzərəsi bunu deyir.

Reallıq isə ondan ibarətdir ki, Cənubi Qafqazda özünü sülhdən xəstəcəsinə təcrid edən bir ölkə varsa, o da Ermənistandır.

***İ.HƏSƏNQALA***
***XQ***

**Azərbaycan Ordusunun Qarabağ iqtisadi rayonunda keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin 1-ci ildönümü, gözlənildiyi kimi, Ermənistanda da müəyyən reaksiyalarla müşayiət olundu. Əsasən Nikol Paşinyan iqtidarına qarşı müxalifətdə dayanan siyasi qüvvələr, Qarabağdakı keçmiş separatçı rejimin Ermənistan paytaxtına sığınmış qalıqları, eləcə də radikal revanşist mövqeyi ilə seçilən deputatlar, siyasətçilər, politoloqlar ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası ilə nəticələnmiş tədbirləri özlərinə sərf edən formada şərh etməyə çalışıblar. Bundan əlavə, separatçı tör-töküntülər məlum hadisələrin ildönümünü müxtəlif tədbirlərlə qeyd ediblər. Onlar dünən səhər ölkəmizə qarşı işğalçı müharibədə həlak olmuş şəxslərin dəfn edildikləri İrəvandakı Yerablur qəbiristanlığında olublar.**

# Hayların Qarabağ iddiaları səngimir



Qarabağın dağlıq hissəsində və işğal olunmuş ətraf yeddi rayonumuzda 32 il (1991-2023) mövcud olmuş separatçı rejimin sonuncu “qlavar”ı Samvel Şahramanyan burada jurnalistlərə yenə də sərsəm açıqlamalar verib. Hadisələrin əsl mahiyyətini təhrif etməyə uğursuz cəhd göstərib və Paşinyan iqtidarını suçlayıb. “Sputnik Ermənistan” agentliyinin “Dağlıq Qarabağın lideri” kimi təqdim etdiyi Şahramanyan sosial şəbəkələrdə və media resurslarında “Artsax xalqı”na qarşı informasiya təzyiqi və terror barədə danışıb. O, Qarabağ sakinlərinin Ermənistanda dövlət çevrilişi planlaşdıran cinayətkar qruplaşmada iştirak etməsi ilə bağlı məlumatlara münasibət bildirib və bunu informasiya terrorizminin tərkib hissəsi adlandırıb. Qeyd edib ki, vətəndaşları əsassız ittihamlardan qoruyacaq qanunvericilik tədbirləri tətbiq etməklə Ermənistanın informasiya məkanını tənzimləmək lazımdır. Şahramanyan Hayastan parlamentini təkcə ölkə vətəndaşlarını deyil, həm də burada yaşayan hər kəsi qorumaq üçün belə qanunlar qəbul etməyə çağırıb.

Baş separatçı onu da deyib ki, “Artsax” sakinləri Ermənistanda tez-tez ağır cinayətlərdə, o cümlədən maliyyə cinayətlərində ittiham olunurlar. Əlavə edib ki, əgər bu ittihamların əsası varsa, hüquq-mühafizə orqanları onlara hüquqi qiymət verməlidir.

Qeyd edək ki, Şahramanyan bu sözləri deyərkən Ermənistan milli təhlükəsizlik xidmətinin əməliyyat-axtarış tədbirləri nəticəsində ölkədə hakimiyyətin zorla ələ keçirilməsinə cəhdin qarşısının alınmasına dair Hayastan istintaq komitəsinin bugünlərdə yaydığı məlumata istinad edib. Komitədən bildirilib ki, Qarabağdan Ermənistana gələn iki nəfərin daxil olduğu, ümumilikdə 7 nəfərlik cinayətkar qruplaşma ölkədə hakimiyyəti silah gücünə devirmək məqsədi ilə plan hazırlayıb: “Araşdırma zamanı müəyyən edilib ki, həmin qanunazidd əməlin icrası üçün bu şəxslərin hər birinə 3 ay ərzində hər ay 220 min rubl ödənilməklə onların Rusiya ərazisində təlim keçmələrinə, eləcə də Ermənistana qayıtdıqdan sonra təlimlərdə qazandıqları bilik və bacarıqları ölkədəki müəyyən şəxslər arasında yaymalı olduqlarına dair razılıq əldə olunub. Bir müddət sonra onlar Rusiyanın Rostov şəhərinə gələrək, buradakı “Arbat” hərbi bazasında təlimlərə cəlb edilib, müxtəlif silah və hərbi texnikadan istifadənin sirlərinə yiyələniblər”.

İstintaq onu da müəyyən edib ki, həmin şəxslərin bəziləri sonradan Ermənistanda dövlət çevrilişinə dair tapşırığın icrasından imtina edib, üç nəfər isə hüquq-mühafizə orqanlarının xüsusi əməliyyatı zamanı saxlanılıb. İstintaq komitəsindən 4 nəfər barəsində axtarış elan edildiyi də açıqlanıb.

İndi Şahramanyan bu həbsləri informasiya terroru, dezinformasiya, əsassız ittihamlar və sair adlandırmaqla, bir növ özünü sığortalamağa çalışır. Başa düşür ki, təqsirləndirilən şəxslər təhqiqat zamanı Şahramanyanın da bu işdə əlinin olduğunu açıqlayarlar. Necə deyərlər, sonda kələfin bir ucu mütləq gəlib ona çatacaq. Ona görə də qabaqdangəlmişlik edərək, indidən prosesi siyasiləşdirməyə çalışır.

Ermənistan parlamentinin sədri Alen Simonyanın bugünlərdə verdiyi “Ermənistanla Dağlıq Qarabağ arasında parlament əməkdaşlığı komissiyasının mövcudluğunun artıq heç bir mənası yoxdur, çünki “Arsax” tərəfi öz səlahiyyətlərini itirib” bəyanatına gəlincə, Şahramanyan bunu təəssüf hissi ilə qarşıladıqlarını deyib. Qeyd edib ki, bu cür bəyanatlar, eləcə də “Artsax xalqı”nın qonaq olması və “Artsax”ın Azərbaycanın bir hissəsi kimi tanınması ilə bağlı bəyanatlar dərin yaralar, ağrılar və məyusluq yaradır.

Rejimin sonuncu “qlavar”ı narazılığını bu sözlərlə ifadə edib: “Mən Ermənistan hökumətinin bütün üzvlərinin və xalqının bu cür düşünməsinə ciddi şübhə edirəm. Mənim bu insanlara sözüm yoxdur, onlar bu hökuməti seçmiş Ermənistan vətəndaşları qarşısında cavab verməlidirlər”.

Parlamentdəki “Hayastan” fraksiyasının deputatı Lilit Qalstyan isə ölkəmizi Qarabağda “erməni izlərini yox etməkdə” (?) suçlayıb. Azərbaycanda akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri və hərbi attaşelərinin Kəlbəcər rayonuna səfərini hay xislətinə uyğun şəkildə şərh edən Qalstyan iddia edib ki, “Artsaxın erməni izini yox etmək siyasəti” (?) yeni formada təzahür edir. Guya, Azərbaycan diplomatik korpusu öz siyasətinin və təbliğatının iştirakçısına çevirməyi bacarır. Diplomatik korpusun nümayəndələrinin Kəlbəcər rayonunda dünya əhəmiyyətli memarlıq abidəsi olan Xudavəng monastır kompleksini ziyarət etməsi erməni deputata lap yer eləyib. O, qədim alban abidəsi olan monastır kompleksini “işğal altında olan Dadivank” adlandırıb. Eyni zamanda, dünya ölkələrinin Qarabağ həqiqətlərini getdikcə daha aydın dərk etmələri deputatı hiddətləndirib: “Xatırladım ki, Rossella Fabianinin müəllifi olduğu Vatikanda nəşr olunan “L'Osservatore Romano” dövri jurnalında bugünlərdə “Azərbaycanda xristianlığın mənşəyi: Alban apostol kilsəsinin izi ilə” adlı məqalə dərc olunub. XIII əsrə aid Dadivank və Qandzasar monastır kompleksləri qeyd-şərtsiz Azərbaycan ərazisində alban mədəniyyətinin və alban kilsəsinin ən böyük təzahürləri, Azərbaycan xristianlığın beşiyi kimi təqdim edilib”.

O, baş verənlərə görə, N.Paşinyan iqtidarını ittiham edib: “Biz ona görə belə faciəvi hallarla üzləşmişik ki, faktiki olaraq, dövlətçiliyin yoxluğu şəraitində yaşayırıq. Liderlər millətlə dövləti, vətənlə dövləti qarşı-qarşıya qoyublar. Onlar Ermənistanı metodik şəkildə mənəviyyatından məhrum edir, yalan ismarıcların köməyi ilə bizi unutqan, vətəndən, kimlikdən məhrum, idarə etmək asan, cüzi tələbləri olan kütləyə çevirirlər”.

Ancaq N.Paşinyan hökumətinin üzvləri də separatçıların və revanşistlərin ünvanladıqları ittihamları cavabsız qoymurlar. Sentyabrın 19-da jurnalistlərə açıqlama verən ölkənin iqtisadiyyat naziri Gevorq Papoyan bildirib ki, Ermənistanın sabiq prezidentlərinin Qarabağ üzrə fəaliyyət göstərmələrinin yeganə səbəbi onların hakimiyyəti ələ keçirmək şanslarını artırmaq üçün 100 mindən çox etirazçıya malik olmaq istəyi ilə bağlı idi.

Nazirin sözlərinə görə, Qarabağ onun sonuncu “prezidentinin” imzası ilə təslim olub, Şahramanyanın imzası ilə bütün “dövlət orqanları” da buraxılıb. O əlavə edib ki, bütün bunlar bu adam Qarabağın başçısı olduqdan 10-15 gün sonra baş verib.

Papoyan deyib: “2023-cü ilin sentyabrında Qarabağda saray çevrilişi baş verərkən Ermənistanın ikinci və üçüncü prezidentləri və onların komandaları bunu nəinki alqışladılar, hətta sevincindən göyə hoppandılar. Bizə dedilər: görün indi Qarabağda hansı siyasət həyata keçiriləcək. Biz də gördük. Cəmi 10 gün ərzində ikinci və üçüncü prezidentlərin komandaları Dağlıq Qarabağın bütün institutlarını “uğurla” ləğv etdilər, bundan sonra Dağlıq Qarabağ da ləğv olundu. Bu qüvvələr Ermənistan hakimiyyətinə təzyiq göstərərək “niyə Dağlıq Qarabağ əhalisinin tezliklə oranı tərk etməsi üçün hər şeyi etmirsiniz?” deyirdilər. Keçmiş prezidentlərin 20 ildən çox apardıqları danışıqlar yalnız Dağlıq Qarabağın və ətraf ərazilərin nə vaxt və necə təslim ediləcəyi ilə bağlı olub”.

Göründüyü kimi, Qarabağda ötən ilin bu günlərində keçirilən antiterror tədbirləri ilə bağlı Ermənistanda qarşılıqlı ittihamlar, bir-birini müxtəlif məsələlərdə təqsirləndirmək geniş vüsət alıb. Heç şübhəsiz ki, bu ittihamlar qarşıdakı illərdə də davam edəcək. Bu, artıq ermənilərin, necə deyərlər, alın yazısına çevrilib. Ancaq bu alın yazısını onlar separatçılıq və işğalçılıq siyasəti yürütməklə özləri yazıblar.

***Səxavət HƏMİD***
***XQ***

# IDEA-nın paytaxtda abadlıq və yaşıllıq aksiyaları





**Dünən Heydər Əliyev Fondunun vitse-prezidenti, “IDEA” İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə paytaxtın Binəqədi rayonunun Abay Kunanbayev küçəsində 1100-dən çox sakinin yaşadığı çoxmərtəbəli binaların yerləşdiyi daha bir abad həyət sakinlərin istifadəsinə verilib.**

Leyla Əliyeva sakinlərə yeni həyətdə xoş günlər, mənalı istirahət arzulayıb, uşaqlara hədiyyələr təqdim edib. O, “IDEA” könüllüləri ilə birlikdə həyətdə təşkil edilən ağacəkmə aksiyasında da iştirak edib,

“Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılmış növbəti həyətdə sağlamlıq imkanları məhdud insanların rahatlığı nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların əyləncəsi üçün əlverişli şərait yaradılıb. Gənclərin asudə vaxtlarının səmərəli təşkili və idmanla məşğul olması üçün həyətdə süni örtüklü futbol meydançası, müxtəlif idman qurğuları var. Söhbətgahlar, çoxsaylı oturacaqlar da sakinlərin istirahəti üçündür.

Ətrafda quş yuvaları və pişik evləri yaradılıb. Bundan əlavə, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb. Binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib. Mövcud yaşıllıqlara qulluq göstərilib, yeni yaşıllıq zolağı salınıb, sarmaşıqlardan “yaşıl sədlər” yaradılıb.

2017-ci ildən “Bizim həyət” layihəsi çərçivəsində 153 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

*

Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həmin gün Leyla Əliyevanın iştirakı ilə Nərimanov rayonunda Məmməd Araz küçəsi ilə Molla Cümə küçələrinin kəsişməsindəki ərazidə də ağacəkmə aksiyası keçirilib.

“IDEA” könüllülərinin iştirakı ilə 7 hektarlıq yaşıllıq zonasının bir hissəsində 200 Eldar şamı əkilib və ərazidə müvafiq abadlıq işləri aparılıb. İctimai birlik belə ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə, gənc nəslin diqqətinə çatdırır və onları birgə fəaliyyətə səsləyir. Sakinlər qanunsuz ağac kəsilməsi ilə rastlaşdıqda şikayət və təkliflərini 1113 qaynar xətt vasitəsilə “IDEA” İctimai Birliyinə çatdıra bilərlər.

***XQ***

# Antiterror tədbirləri ədaləti bərpa etdi

**Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək ölkəmizin Qarabağ iqtisadi rayonundan tamamilə çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikasının suverenliyinin və konstitusiya quruluşunun bərpası məqsədilə lokal xarakterli antiterror tədbirlərinin Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən “Dağlıq Qarabağa hücum” və “etnik təmizləmə” kimi qələmə verilməsi qəbuledilməzdir.**

Bu fikir Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan XİN-in sentyabrın 19-da yaydığı bəyanata dair şərhində yer alıb:

“Sülhpərvər ölkə olduğunu iddia etməsinə baxmayaraq, Ermənistan tərəfindən Azərbaycanın əzəli və əbədi torpağı Qarabağın “Dağlıq Qarabağ” kimi qondarma adlarla çağırılması Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı hörmətsizliyin bariz nümunəsidir.

Ötən il sentyabrın 19–20-də Silahlı Qüvvələrimiz tərəfindən cəmi 24 saatdan az bir müddətdə öz suveren ərazilərimizdə aparılan antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə həyata keçirilib. Azərbaycanın öz torpaqları üzərində suverenliyini bərpa etməsi tarixinin ən şanlı səhifələrindən biri olmaqla yanaşı, beynəlxalq hüquq və ədalətin təntənəsidir.

Ermənistanın 2020-ci il Vətən müharibəsində düçar olduğu məğlubiyyətə və qəbul etdiyi öhdəliklərə baxmayaraq və 2023-cü ilədək keçən üç ilə yaxın müddət ərzində öhdəliklərinə zidd şəkildə, nəinki öz qanunsuz silahlı birləşmələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmadığı, hətta Azərbaycan ərazilərinə əlavə silah-sursat, hərbi texnika, minalar ötürdüyü məlum idi. Ölkəmizə qarşı mina terrorunu davam etdirən Ermənistan zaman keçdikcə onun daha geniş vüsət almasına rəvac verirdi. Ermənistan rəsmiləri hər vəchlə ərazilərimizdə saxladıqları qondarma rejimin təbliğatını aparırdı və bu ölkənin baş naziri 2023-cü il sentyabrın 2-də qondarma “müstəqillik”lə bağlı separatçı rejimə təbriklərini çatdırdı.

2023-cü il sentyabrın 19-da erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 vətəndaşımızın həlak olması isə Azərbaycanın səbir kasasının daşmasına səbəb oldu və antiterror tədbirlərini qaçılmaz etdi.

Ermənistan tərəfinin təhrikedici səylərinə və təbliğatına baxmayaraq, antiterror tədbirləri aparıldığı zaman mülki əhali hədəfə alınmadı, mülki infrastruktura zərər vurulmadı, yalnız legitim hərbi infrastruktur və obyektlər sıradan çıxarıldı. Yaşayış yerlərini tərk etməmək barədə Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına, tətbiq olunan reinteqrasiya proqramına baxmayaraq, erməni sakinlər Azərbaycan ərazilərini tərk etmək barədə qərar verdilər. Bu, onların azad seçimi idi və bunu “etnik təmizləmə” kimi qələmə vermək Ermənistandan və işğal etdiyi Azərbaycan ərazilərindən azərbaycanlıları kütləvi şəkildə qovan, soyqırımı və kütləvi qırğınlar törədən Ermənistanın riyakarlığını nümayiş etdirir...

Azərbaycan xalqı və dövləti üçün bu tarixi önəmli gündə bir daha ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçən Vətən övladlarımızın əziz xatirəsini dərin ehtiramla yad edirik.

Şanlı Silahlı Qüvvələrimizlə fəxr edir, dövlətimizin və xalqımızın hər zaman müzəffər olmasını diləyirik!".

# ABŞ Konqresində dinləmələr Azərbaycanla münasibətləri gərginləşdirməyə xidmət edir

**“Azərbaycanla bağlı bütün faktları açıq şəkildə təhrif edən və saxtalaşdıran bu cür tədbirin məqsədi Azərbaycan-ABŞ münasibətlərini gərginləşdirməkdir”.**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə sentyabrın 19-da ABŞ Konqresində Azərbaycan əleyhinə keçirilən tədbirlə bağlı yerli medianın sualına cavabında bildirib.

Onun sözlərinə görə, bu, ABŞ Konqresindəki bəzi qrupların Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə açıq şəkildə hörmətsizlik nümayiş etdirərək, Azərbaycandakı vəziyyəti insan hüquqları pərdəsi altında necə təhrif etdiklərinin növbəti təzahürüdür:

“Təəssüf ki, ABŞ-ın milli təhlükəsizlik maraqlarından daha çox öz daxili mülahizələri və şəxsi mənfəətlərini rəhbər tutan ABŞ Konqresinin üzvləri tərəfindən təşkil edilən bu cür birtərəfli və qərəzli tədbirlər uzun müddətdir ki, ABŞ Konqresi üçün adi hal alıb. Üstəlik, sözügedən dinləməni təşkil edən konqresmenlərin özlərini dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsini dərindən dəstəkləyən şəxslər kimi təqdim etməsinin fonunda keçmiş separatçı rejimin nümayəndələrinin də bu dinləmələrdə iştirakı təsəvvür edilən bilən bütün çərçivələri aşır”. Ayxan Hacızadə bildirib ki, Azərbaycanın ötən il həyata keçirdiyi antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun olub və Azərbaycan heç vaxt mülki əhalini hədəf almayıb.

“Azərbaycanın suveren ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın işğalı və hərbi təcavüzü dövründə azərbaycanlılara qarşı törədilmiş genişmiqyaslı etnik təmizləmə və qətliamlar, eləcə də Azərbaycanın dini və mədəni abidələrinin yer üzündən silinməsi isə əksinə, heç vaxt ABŞ Konqresi tərəfindən qınanmayıb. Ermənistandan fərqli olaraq, Azərbaycan dəfələrlə erməniləri və azərbaycanlıları birgə yaşamağa və əməkdaşlığa çağırıb və ermənilərin Azərbaycan vətəndaşları kimi bütün hüquq və imtiyazlarla təmin oluna, müdafiə və təhlükəsizlikdən yararlana biləcəklərinə dair təminat verib. Eyni zamanda, regionumuzdakı vəziyyətin dini çərçivədə qarşıdurma kimi qələmə verilməsi narahatlıq doğurur, bu kimi addımlar sülh quruculuğuna və barışığa zərər vurur. Bununla yanaşı, erməni diasporu tərəfindən maliyyələşdirilən bəzi şəxs və təşkilatların dinləmələr zamanı Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı səsləndirdiyi iddiaların heç bir əsası yoxdur və bu kimi bəyanatları qətiyyətlə pisləyirik. Həmin şəxs və təşkilatların himayədarlıq etdikləri Ermənistanda fundamental insan hüquq və azadlıqlarının pozulması, o cümlədən siyasi təqiblər nəticəsində həbs olunan şəxslərin həbsxanada həlak olması, siyasətçilərə və onların ailə üzvlərinə qarşı təzyiq hallarına fokuslanması daha məqsədəuyğun olardı. Dinləmələrdə istinad edilən qondarma “Artsax” Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilmiş hərbi işğal və Azərbaycanın keçmiş işğal olunmuş ərazilərindən 750 minə yaxın azərbaycanlı mülki əhaliyə qarşı aparılmış etnik təmizləmə nəticəsində yaradılmış qeyri-qanuni qurumdan başqa bir şey deyildi. Eyni zamanda, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olan Qarabağ bölgəsinin coğrafi adının “Artsax” kimi təhrif edilməsi coğrafi adların beynəlxalq standartlaşdırılması üzrə prinsip və prosedurların açıq şəkildə pozulması, habelə ABŞ-ın 80-242 (1947) saylı qanununa uyğun olaraq ABŞ-ın Coğrafi Adlar üzrə Şurası (BGN) tərəfindən təsdiq edilmiş ABŞ Hökuməti orqanları tərəfindən milli və xarici coğrafi adların istifadə standartlarının təhrif edilməsidir. Biz ABŞ Konqresinin rəhbərliyini Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinə xələl gətirən bu cür tədbirlərin qarşısını almağa çağırır və xarici siyasətin həyata keçirilməsinə nəzarət edən qurum kimi Dövlət Departamentindən ABŞ Konqresində erməni lobbi qrupları tərəfindən sui-istifadə edilən bu cür hallara qarşı müvafiq tədbirlərin görülməsini gözləyirik”, - deyə vurğulanıb.

Xatırladaq ki, sentyabrın 19-da ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasında “Dağlıq Qarabağın süqutundan sonra Azərbaycanda insan hüquqları” adlı dinləmə keçirilib və çıxış edənlər tərəfindən Azərbaycana qarşı çoxsaylı ittihamlar səsləndirilib.

***XQ***

# Görkəmli şərqşünas, akademik Aida İmanquliyeva yad edilib

**Sentyabrın 19-da AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva və institutun kollektivi XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri – şərqşünas alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar.**



Anım mərasimində çıxış edən akademik İsa Həbibbəyli Azərbaycan şərqşünaslığında ərəbşünaslıq sahəsinin çox inkişaf etdiyini bildirərək, onun ədəbiyyat istiqamətinin təməlinin böyük alim Aida İmanquliyevanın elmi əsərləri ilə qoyulduğunu, bu istiqamətin inkişafında onun əvəzsiz xidmətlərinin olduğunu vurğulayıb. Professor Aida İmanquliyevanın Azərbaycan ərəbşünaslığında bir məktəb yaratdığını, mühacir ədəbiyyatının tədqiqində yeni bir yol açdığını deyən akademik İsa Həbibbəyli qeyd edib ki, görkəmli alim dünya elmində ərəb məhcər ədəbiyyatının tədqiqi sahəsinə sanballı töhfələr verib, Azərbaycan və dünya şərqşünaslığını zənginləşdirib.

Akademik Gövhər Baxşəliyeva 32 il öncə sentabrın 19-da dünyasını dəyişmiş böyük alim Aida İmanquliyevanın həm ictimai fəaliyyəti, həm şəxsi keyfiyyətləri baxımından başqalarından fərqlənən, parlaq bir şəxsiyyət olduğunu deyib. Aida İmanquliyevanın Azərbaycan şərqşünaslıq elminin inkişafında silinməz iz qoyduğunu söyləyən G.Baxşəliyeva, elmi fəaliyyətini ərəb ədəbiyyatının tədqiqinə həsr edən 3 sanballı monoqrafiya, 100-dən çox elmi və elmi populyar məqalənin müəllifinin ərəb-Qərb ədəbiyyatlarının qarşılıqlı əlaqələrini və təsirini öyrənən ilk alimimiz olduğunu qeyd edib.

Aida İmanquliyevanın Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı elm təşkilatçısı kimi özünü göstərdiyini xatırladan G.Baxşəliyeva ki, o, Azərbaycan elmini dünya səviyyəsində təmsil edən gözəl alim olduğunu əlavə edib və Aida İmanquliyevanın itkisinin şərqşünaslarımız üçün çox ağır olduğunu, alimlərimizin onun əziz xatirəsini daim uca tutduqlarını deyib.

Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəşarət Bəşirova Aida İmanquliyevanın dəyərli elmi fəaliyyətindən bəhs edib, onun gənc şərqşünaslara göstərdiyi qayğıdan danışıb, görkəmli alimlə bağlı xatirələrini paylaşıb.

***Vüqar MƏMMƏDOV,***
***AMEA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşı***

# Azərbaycan–İtaliya hərbi əməkdaşlığı müzakirə edilib



**İtaliyada rəsmi səfərdə olan müdafiə nazirinin birinci müavini, Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev rəhbərlik etdiyi nümayəndə heyəti İtaliya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, admiral Cuzeppe Kavo Draqone ilə görüşüb.**

Təkbətək və geniştərkibli görüşlərdə Azərbaycan ilə İtaliya arasında hərbi, hərbi-texniki, hərbi-təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri və regional təhlükəsizlik məsələləri müzakirə edilib.

General-polkovnik K.Vəliyev admiral C.K.Draqoneni NATO-nun Hərbi Komitəsinin rəhbəri təyin olunması ilə əlaqədar təbrik edib, ona yeni vəzifəsində uğurlar arzulayıb.

# “Sonsuz qardaşlıq – III” təlimi yekunlaşıb



**Azərbaycan, Qazaxıstan, Türkiyə, Pakistan, Qətər və Özbəkistan xüsusi təyinatlılarının iştirakı ilə Qazaxıstanda keçirilən “Sonsuz qardaşlıq - III” çoxmillətli təlimi başa çatıb.**

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, 400 nəfərdən çox heyət üzvünün iştirak etdiyi təlimin bağlanış mərasimi Qazaxıstanın Türküstan vilayətində yerləşən Orda poliqonunda keçirilib.

Tədbirdə təlim iştirakçılarının peşəkarlığı yüksək qiymətləndirilib.

Qeyd olunub ki, plana əsasən, sərhədi pozan şərti qanunsuz silahlı birləşmənin qarşısının alınması və zərərsizləşdirilməsi, hakim yüksəkliklərin ələ keçirilməsi, pilotsuz uçuş aparatlarının radioelektron mübarizə vasitələrindən istifadə etməklə sıradan çıxarılması, eləcə də dron hücumundan qorunma məqsədilə hava kəşfiyyatının aparılması və digər tapşırıqlar xüsusi təyinatlılar tərəfindən məharətlə yerinə yetirilib.

Sonda təlimdə fərqlənən hərbi qulluqçulara mükafatlar təqdim edilib.

***Q. KAZIMOV***
***XQ***

**20 Sentyabr Neftçilər Günüdür**



# "Əsrin müqaviləsi" – Yeni neft strategiyasının şah əsəri

*Bu beynəlxalq layihə 30 ildir ki, Azərbaycanın hərtərəfli yüksəlişinə xidmət edir*

**Ötən əsrin sonlarında yenidən müstəqillik əldə edən Azərbaycan özünün yeraltı və yerüstü sərvətlərinə sahib çıxmaq imkanı qazandı. Buna baxmayaraq, dövlət idarəçiliyində təmsil olunan səriştəsiz, naşı adamlar bu sərvətləri ölkənin davamlı inkişafına, xalqın gələcək firavanlığı naminə səfərbər etmək iqtidarında deyildilər. Eyni zamanda, gənc dövlətin vahid inkişaf strategiyasının olmaması, idarəçilkdə buraxılan kobud səhvlər ölkədə siyasi anarxiyanı və iqtisadi tənəzzülü getdikcə dərinləşdirirdi.**

Həmin o ağır günlərdə xalqımız müdrik qərar qəbul edərək dünya şöhrətli siyasətçi, dövlət idarəçiliyinin bütün sirlərinə yaxından bələd olan Heydər Əliyevi Bakıya dəvət etdi. Xalqın təkidli xahişini qəbul edən Ümummilli lider paytaxta gələrək müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən Azərbaycana rəhbərlik etməyə başladı. Ölkənin iqtisadi müstəqilliyinin onun yeraltı və yerüstü sərvətlərindən asılı olduğunu yaxşı bilən Heydər Əliyev qısa müddətdə bitkin bir inkişaf konsepsiyası işləyib hazırladı. Həmin konsepsiyanın əsasını isə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft-qaz ehtiyatlarının işlənməsi təşkil edirdi. Buna baxmayaraq, gənc dövlətin məhdud maliyyə imkanları, eləcə də dənizin dərinliklərində işləyə biləcək qabaqcıl texnika və texnologiyaların olmaması buna imkan vermirdi. Hər cür çətin situasiyalarda çevik qərarlar qəbul etməyi bacaran ümummilli lider Heydər Əliyev dünyanın transmilli neft şirkətlərini Azərbaycana dəvət etməyi qərara aldı.

Ölkəmizdə siyasi sabitliyə və əlverişli sərmayə mühitinə əmin olan əcnəbi şirkətlər tərəddüd etmədən danışıq masası ətrafına toplaşdılar. Beləliklə, gənc Azərbaycan dövləti özünün gələcək inkişafının maliyyələşdirilməsi üçün neft sənayesini xarici investisiyalar üçün açıq elan etdi. Hökumətin hazırladığı milli strategiya 1994-cü il sentyabrın 20-də Bakıda, Gülüstan sarayında "Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yataığının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş"inin imzalanması ilə nəticələndi.

Bütün dünyaya səs salan belə bir sazişin imzalanması ölkəmiz, xalqımız üçün mühüm tarixi hadisə, yüksək nailiyyət idi. Çünki gənc Azərbaycan dövləti ilk dəfə idi ki, müstəqil siyasət yürütmək iqtidarında olmasını, özünün yeraltı sərvətlərinə sahib çıxmasını bütün dünyaya bəyan edə bilirdi. Təsadüfi deyil ki, təntənəli imzalanma mərasimində çıxış edən ümummilli lider Heydər Əliyev demişdir: "Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk". Bu, Azərbaycanın gələcək sosial-iqtisadi inkişafı üçün yeni perspektivlər açan, ölkənin maliyyə imkanlarını xeyli dərəcədə artıran tarixi sazişə verilən əsl qiymət idi.

Dünya neft sənayesinin tanınmış 11 ən böyük transmilli şirkəti ilə imzalanmış bu tarixi saziş iqtisadi və siyasi əhəmiyyətinə görə sonradan "Əsrin müqaviləsi" adını aldı. Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olan "Əsrin müqaviləsi" Xəzər regionunu beynəlxalq əməkdaşlıq məkanına çevirdi. Gənc, suveren Azərbaycan Respublikası az müddətdə qlobal enerji layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi tanındı, ölkəmizin beynəlxalq nüfuzu xeyli artdı. "Əsrin müqaviləsi"nin uğurla icra olunması ölkəmizi iqtisadi tənəzzüldən sürətli inkişaf yoluna çıxardı. İlk növbədə, Azərbaycana güclü xarici investisiya axını başladı. Ötən müddətdə təkcə AÇG layihəsinə 45 milyard dollar məbləğində xarici sərmayə qoyulması da bunun bariz nümunəsidir.

1997-ci il noyabrın 7-də "Çıraq" platformasından ilk hasilat quyusunun istismara verilməsi Azərbaycanın yeni neft strategiyasının uğurlarının başlanğıcı idi. Beş gün sonra, noyabrın 12-də ölkəmizin rəsmi dövlət və hökumət üzvlərinin, Azərbaycan Beynəlxal Əməliyyat Şirkətinin nümayəndələrinin, eləcə də xarici ölkələrdən gəlmiş qonaqların iştirakı ilə "Çıraq" platformasında təntənəli mərasim keçirildi. Tədbirdə bu möhtəşəm tarixin yaradıcısı Heydər Əliyevin şəxsən iştirak etməsi isə olduqca qürurverici idi. Azərbaycanın yeni neft strategiyasının məhtəşəm uğurunun müjdəsini xalqımıza çatdıran ümummilli lider Heydər Əliyev həmin təntənəli mərasimdə çıxış edərək bu təntənənin, əldə edilən nailiyyətlərin Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasından sonra mümkün olduğunu söyləyərək demişdir: "1994-cü ilin sentyabr ayında biz ilk böyük neft müqaviləsini imzalayarkən dünyaya nümayiş etdirdik ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi öz təbii sərvətlərinin sahibi olaraq onlardan istifadə edilməsi haqqında qərarlar qəbul edir. Üç il keçəndən sonra biz bir daha təsdiq edirik ki, Azərbaycan müstəqil dövlətdir, Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və biz artıq bu müstəqilliyimizin gözəl bəhrələrini görürük".

Həmin tarixi nailiyyət, "Əsrin müqaviləsi"nin həyata keçirilməsi sahəsində qazanılmış zəngin təcrübə sonralar "Azəri" və "Dərinsulu Günəşli" yataqlarının da mərhələli şəkildə işlənməsinə imkan yaratdı. 2001-ci ilin avqust ayında "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun tammiqyaslı işlənməsi ilə bağlı qərar qəbul olundu. Bu mərhələ çərçivəsində "Azəri" yatağında və "Günəşli" yatağının dərinlikdə yerləşən unikal hasilat və texniki təchizat platformaları inşa olundu, neftin Səngəçal terminalına nəqli üçün yeni sualtı boru kəmərləri çəkildi. Xam nefi qəbul etmək üçün terminalın ərazisində əlavə genişləndirmə işləri aparıldı. Bu işlər nəticəsində Səngəçal terminalı dünyanın ən nəhəng neft obyektlərindən birinə çevrildi.

2005-ci ilin əvvəllərində "Azəri" yatağının mərkəzi hissəsində quraşdırılmış platformadan neft hasilatına başlanıldı. Bununla da, Azərbaycanda böyük neft hasilatının əsası qoyuldu. Sonrakı illərdə "Azəri" yatağnın şərq və qərb hissələrinin", eləcə də "Dərinsulu Günəşli" yatağının istismara verilməsi ilə Azərbaycanda neft hasilatı kəskin şəkildə artaraq 2010-cu ildə rekord səviyyəyə – 51 milyon tona çatdırıldı. Ötən müddətdə Xəzərin Azərbaycan sektorunda quraşdırılmış unikal neft platformalarından hasilat ahəngdar şəkildə davam etdirildi. Məhz bunun nəticəsidir ki, ötən illər ərzində "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan 593 milyon ton neft (4,4 milyard barel) çıxarılıb.

Ulu öndər Heydər Əliyevin işləyib hazırladığı mükəmməl neft strategiyası Azərbaycana özünün zəngin neft ehtiyatlarını dünya bazarlarına müstəqil şəkildə çıxarmaq imkanı yaratdı. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan şaxələndirilmiş ixrac boru kəməri marşrutlarına sahib oldu. 1997-ci ilin sonlarından etibarən Azərbaycan nefti Bakı-Novorossiysk boru kəməri ilə Şimal istiqamətinə axmağa başladı. 1999-cu ilin aprel ayından isə xam neft yenicə istifadəyə verilmiş Bakı-Supsa boru kəməri ilə Qərb istiqamətinə, Qara dənizin sahilində yerləşən Supsa limanına axmağa başladı.

Bununla belə, Azərbaycanın artan neft həcmlərini dünya bazarına çıxarmaq üçün daha geniş imkanlara malik boru kəmərinə ehtiyac var idi. Ümummilli liderimizin bununla bağlı da öz ideyası, öz planı vardı. Belə ki, "Əsrin müqaviləsi"nin imzalanması mərasimində ulu öndər bu barədə fikrini bildirərkən həmin kəmərin keçəcəyi marşrutu və onun son ünvanını da zərgər dəqiqliyi ilə nişan verdi. Bu, Bakı-Tbilisi-Ceyhan marşrutu idi. Bütün siyasi təzyiqlərə rəğmən, bu ideya da gerçəkliyə çevrildi. Zaman Heydər Əliyevin bu konsepsiyasının tamamilə real, həm də iqtisadi cəhətdən səmərəli olduğunu bir daha sübut etdi.

Hazırda AÇG yatağından hasil olunan həcmin böyük hissəsi dünya bazarlarına BTC boru kəməri vasitəsilə çatdırılır. Uzunluğu 1768 kilometr olan dünya səviyyəli boru kəməri Azərbaycandan Gürcüstana keçərək Aralıq dənizinə çatır. Türkiyənin Ceyhan şəhərində yeni bir dəniz terminalı inşa edilib. Boru kəməri tranzit ölkələrə xeyli gəlir gətirib, Azərbaycan, Gürcüstan, Türkiyə və Qərb arasında iqtisadi və siyasi əlaqələrin güclənməsinə kömək edib. BTC kəmərinin ötürücülük qabiliyyəti gündə bir milyon barel təşkil edən layihə gücündən hazırda gündə 1,2 milyon barelə qədər artırılıb. Bu günə qədər həmin boru kəməri vasitəsilə 4,3 milyard bareldən çox (təxminən 576 milyon ton) xam neft Xəzərdən Aralıq dənizinə təhlükəsiz və etibarlı şəkildə nəql olunub.

1999-cu ilin dekabr ayının son günlərində Azərbaycanın mənfəət nefti yüklənmiş ilk tanker Qara dənizdən dünya bazarına səmt götürüb. Bununla da, ölkəmiz tarixində ilk dəfə olaraq neftdən müstəqil şəkildə gəlir götürməyə başlayıb. Həmin gəlirlərdən səmərəli istifadə olunması, onun müəyyən hissəsinin gələcək nəsillərə çatmasını təmin etmək məqsədilə ümummilli lider Heydər Əliyevin 29 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradılıb. Ötən müddətdə fond "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun və "Şahdəniz" qaz yatağı layihələrinin işlənməsindən və digər daxilolmalardan 202 milyard ABŞ dolları məbləğində gəlir əldə edib.

Yeri gəlmişkən, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun dərin qatlarında olan neft və qaz ehtiyatları 30 ilə nəzərdə tutulmuş sazişin müddətinin daha 25 il uzadılmasına səbəb olub. Azərbaycanın uzunmüddətli, bitkin neft strategiyasının müəllifi ulu öndər Heydər Əliyev isə bunun anonsunu çox-çox əvvəllər vermişdi. Belə ki, 1997-ci il noyabrın 12-də "Çıraq" platformasında ilkin nertin çıxarılmasına həsr olunmuş mərasimdə ümummilli lider demişdir: "Bizim imzaladığımız müqavilələrin hamısı təxminən 30 il müddətinə bağlanıbdır. Ancaq mən güman edirəm ki, bu müqavilələr 30 il yox, ondan da çox illər işləyəcəkdir. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının dünyanın böyük neft şirkətləri ilə imzaladığı müqavilələr XXI əsrdə həm Azərbaycan üçün, həm də Azərbaycanla müştərək iş görən şirkətlər, ölkələr üçün çox əhəmiyyətli sənədlərdir".

Zaman ümummilli liderin bu uzaqgörən qənaətinin həqiqiliyini bir daha sübuta yetirdi. Məlum olduğu kimi, 2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması mərasimi keçirilib. Beləliklə, "Azəri-Çıraq-Günəşli" nəhəng neft yatağının işlənilməsində yeni dövr başlanıb. Yeni sazişin ölkəmiz üçün çox böyük əhəmiyyəti var. Əvvəla, "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilədək uzadılıb.

Digər tərəfdən, bu sazişin şərtləri Azərbaycan üçün daha əlverişlidir. Belə ki, yeni sazişə əsasən, SOCAR-ın layihədəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırılıb. Beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Respublikasının Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcək. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək. Eyni zamanda, 2050-ci ilədək "Yeni Əsrin müqaviləsi" çərçivəsində həyata keçiriləcək əməliyyatlara 40 milyard dollardan çox sərmayə qoyulması gözlənilir.

Artıq bu möhtəşəm layihə real fəaliyyət sahəsinə çevrilib. Cari ilin aprel ayında "Azəri-Mərkəzi-Şərqi" adlandırılan platformadan ilkn neftin hasilatına başlanılıb. Hazırda burada 2 quyudan neft çıxarılır. Ötən müddətdə həmin quyulardan 815 min bareldən neft hasil edilib.

## Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



"Əsrin müqaviləsi"nin imzalanmasından ötən 30 il bir daha təsdiqlədi ki, "Azəri", "Çıraq" və "Dərinsulu Günəşli" (AÇG) layihəsi tarixdə, sadəcə, Azərbaycan hökuməti ilə bir qrup xarici neft şirkətinin birləşdiyi konsorsiumda həyata keçirilən hasilatın pay bölgüsü tipli sıradan bir saziş deyildi. AÇG-nin işlənilməsi üzrə saziş Azərbaycanın neft və qaz sənayesinin yeni erasının simvoludur. Bu müqavilənin reallaşması həm Azərbaycan, həm də müqavilənin iştirakçısı olan şirkətlər üçün əlamətdar hadisədir.

AÇG layihəsi müstəqil Azərbaycanın qarşıya qoyduğu bir uğur hədəfi idi. Bu hədəf insanlarda gələcəyə inam yaratdı. Müqavilənin reallaşması müxtəlif millət və ölkələrdən olan insanları bir araya gətirdi. Onlar platformalar inşa etdilər, boru kəmərləri çəkdilər, terminallar tikdilər. Onlar Xəzərin dərin qatlarındakı təbii ehtiyatları işlənməyə cəlb etmək üçn müasir texnologiyalar gətirdilər, neft çıxardılar. Bu təkcə enerjinin zəfəri deyildi, ölkənin qarşıdakı böyük uğurlarının başlanğıcı və ulu öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycanın yeni neft strategiyasının təntənəsi idi.

Ötən 30 ildə "Əsrin müqaviləsi" Azərbaycana iqtisadi inkişaf, tərəqqi gətirməklə yanaşı, ölkəmizə, xalqımıza sosial rifah bəxş edib. Təkcə onu qeyd etmək kifayətdir ki, bu il iyulun 1-dək "Azəri-Çıraq-Günəşli"dən Azərbaycan Respublikasının Dövlət Neft Fonduna 202 milyard dollar vəsait daxil olub. Həmin vəsait hesabına ölkəmizin dinamik sosial-iqtisadi inkişafı təmin edilib. Neftdən əldə olunan gəlirlər ölkə iqtisadiyyatının şaxələndirilməsinə, qeyi-neft sektorunun sürətli inkişafına imkan yaradıb. Bunun da hesabına ölkədə çoxsaylı iş yerləri açılıb. Eyni zamanda, Prezident İlham Əliyevin düşünülmüş, məqsədyönlü fəaliyyəti nəticəsində "qara qızıl"ın insan kapitalına çevrilməsi istiqamətində mühüm addımlar atılıb.

Neft gəlirləri həm də, Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsinə mühüm töhfələr verib. Məhz bunun nəticəsi idi ki, 30 il düşmən tapdağında olan torpaqlarımız cəmi 44 gün ərzində azad edildi. 2023-cü ilin sentyabr ayında həyata keçirilmiş lokal xarakterli anti-terror tədbirləri nəticəsində isə düşmən silahı yerə ataraq təslim oldu. Bununla da, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam təmin olundu.

İndi isə işğaldan azad olunmuş ərazilərimizdə geniş bərpa-quruculuq işləri aparılır, düşmənin viran qoyduğu, xarabazara çevirdiyi torpaqlarda yeni şəhər, kənd və qəsəbələr salınır. Bunun da hesabına Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən canlanır, insanlar doğma yurdlarına qayıdırlar. Sevindirici haldır ki, Azərbaycan bütün bu işləri heç bir beynəlxalq təşkilatdan, dünyanın hər hansı bir ölkəsindən yardım almadan öz gücü, maliyyə potensialı vasitəsilə həyata keçirir. Bu da, heç şübhəsiz, "Əsrin müqaviləsi"nin uğur hekayəsinin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Əsrin müqaviləsi" Ulu öndərin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biridir. Bu gün bütün Azərbaycan xalqı bu kontraktın gözəl nəticələrini öz həyatında görür.

## Xəzərdə neft əfsanəsinin tarixi səhifələri

**• 20 sentyabr 1994-cü il. "Azəri-Çıraq-Günəşli" yataqlar bloku üzrə hasilatın pay bölgüsü sazişi imzalanıb.**

**• 7 noyabr 1997-ci il. "Çıraq" platformasından neft hasilatına start verilib.**

**• 12 noyabr 1997-ci il. Səngəçal terminalının təntənəli açılışı keçirilib.**

**• 12 yanvar 1998-ci il. "Çıraq" yatağından hasil edilən neftin Bakı–Novorossiysk boru kəmərinə vurulmasına başlanılıb.**

**• 24 mart 1998-ci il. AÇG-nin ilk ixrac tankeri Novorossiysk terminalından dünya bazarına yola salınıb.**

**• 10 dekabr 1998-ci il. Bakı–Supsa kəmərinin neftlə doldurulmasına başlanılıb.**

**• 8 aprel 1999-cu il. Supsa terminalında ilk tanker yüklənib.**

**• 18 aprel 1999-cu il. Qərb ixrac neft kəmərinin tikintisinin başa çatması və Supsa terminalının istifadəyə verilməsi mərasimi keçirilib.**

**• 30 avqust 2001-ci il. AÇG-nin tammiqyaslı işlənilməsi layihəsinin 1-ci mərhələsi ("Faza-1") ilə bağlı hökumətlə icazə sazişi imzalanıb.**

**• 18 sentyabr 2002-ci il. Azərbaycan hökuməti AÇG-nin tammiqyaslı işlənilməsi layihəsinin 2-ci mərhələsinə ("Faza-2") razılıq verilib və BTC-nin təməli qoyulub.**

**• 30 iyul 2003-cü il. Azərbaycanda BTC boru kəmərinin çəkilişinə start verilib.**

**• 20 sentyabr 2004-cü il. AÇG-nin tammiqyaslı işlənilməsi layihəsinin 3-cü mərhələsi ("Faza-3") üzrə saziş imzalanıb.**

**• 13 fevral 2005-ci il. "Mərkəzi Azəri" platformasında ilk neftin hasilatına başlanılıb.**

**• 25 may 2005-ci il. Səngəçal terminalında BTC-nin Azərbaycan hissəsinin açılış mərasimi keçirilib.**

**• 12 oktyabr 2005-ci il. BTC-nin Gürcüstan hissəsinin açılış mərasimi keçirilib.**

**• 30 dekabr 2005-ci il. "Qərbi Azəri" platformasından ilk neftin hasilatı başlanıb.**

**• 4 iyun 2006-cı il. BTC boru kəməri ilə ixrac edilən ilk neft partiyası Ceyhan terminalından Böyük Britaniyanın "Hawthorne" tankerinə yüklənib.**

**• 13 iyul 2006-cı il. Ceyhanda BTC layihəsinin tam istismara verilməsi mərasimi keçirilib.**

**• 22 oktyabr 2006-cı il. "Şərqi Azəri" platformasından ilk neft hasil edilib.**

**• 22 aprel 2008-ci il. "Dərinsulu Günəşli" platformasından neft hasilatına start verilib.**

**• 28 yanvar 2014-cü il. "Qərbi Çıraq" platformasından hasilat başlayıb.**

**• 14 sentyabr 2017-ci il. Bakıda AÇG üzrə yenilənmiş hasilatın pay bölgüsü sazişi ("Yeni əsrin müqaviləsi") imzalanıb. Bununla da, "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadılıb.**

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

*20 Sentyabr Neftçilər Günüdür*

# Azərbaycan qədim neft ölkəsidir

## *Odlar yurdu əsrlərdən bəri dünyaya nur paylayır*



**Zəngin neft ölkəsi kimi tanınan Azərbaycanın mədəni-tarixi, sosial-iqtisadi həyatının ayrı-ayrı sahələrinə tədqiqatçılar hər zaman böyük maraq göstəriblər. Bir çox ölkələrin səyyahları, coğrafiyaşünasları, tarixçiləri Bakının nefti, alovlu torpaqları, neft quyusu və mədənləri, neftdən istifadə və onun ticarəti barədə gördüklərini qələmə alaraq Azərbaycan neftinin tarixi barədə qiymətli məlumatlar verib, Abşeron yarımadasını istər qərb, istərsə də şərq dövlətləri üçün cazibədar ərazi hesab ediblər.**

Respublikamızın dövlət arxivlərində mühafizə olunan sənədlər neft sənayemizin inkişafı tarixinin öyrənilməsində əvəzsiz mənbə hesab edilir. Bu sənədlər əsasında Azərbaycanın tarixin müxtəlif mərhələlərində ümumdünya neft sənayesi sahəsində oynadığı rol, Bakıda fəaliyyət göstərmiş neft konsorsiumları, neft sahibkarları, Azərbaycan neftçilərinin beynəlxalq əlaqələri haqqında qiymətli məlumatlar əldə etmək mümkündür. Bu yazıda da Azərbaycan Respublikası Dövlət Elm və Texnika Sənədləri Arxivində mühafizə olunan arxiv sənədlərinə istinad edilməklə XX yüzilliyin əvvəllərində ölkəmizdə fəaliyyət göstərmiş neft sənayesi və maşınqayırma müəssisələrində, elmi-tədqiqat institutlarında, təcrubə-sınaq və konstruktor bürolarında çalışmış neftçi mütəxəssislərin, alimlərin, ustaların dünya ölkələrinin eyni məzmunlu müəssisələri və instituları ilə əməkdaşlıq tarixi haqqında qısa məlumat verilir.

Arxivin fondlarında mühafizə olunan həmin müəssisə və institutlarda aparılan nəhəng elmi işlərin nəticələrinə dair hesabatlar, mütəxəssis rəyləri, texnoloji sxemlər, layihələr və digər sənədlər ölkəmizin neft sektorunun dünyanın qabacıl ölkələrinin diqqət mərkəzində olduğunu və sanballı tədqiqat materialları kimi istehsalatda geniş tətbiq edildiyini söyləməyə əsas verir.

Tədqiqatçılar tərəfindən az işlənilmiş bu arxiv fondlarında saxlanılan ötən əsrin 20-30-cu illərində Azərbaycanın və ABŞ-nin qabaqcıl neft inistitutları arasındakı əlaqələrini, yerli mütəxəssislərin xarici ölkələrə ezamiyyələrini, Azərbaycanın neft maşınqayırması sahəsində tətbiq edilən xarici avadanlıqların xarakteristikasını, neft sənayesi müəssisələrində çalışmış əcnəbi mütəxəssislərin elmi rəylərini əks etdirən qiymətli materiallar neft sənayemizin inkişaf tarixinin öyrənilməsində zəngin məlumat bazası olmaqla yanaşı, həm də hazırda respublikamızda uğurla həyata keçirilən yeni neft strategiyasının daha dərin köklərə əsaslandığını təsdiqləyir.

Məlum olduğu kimi, tədqiqatçı alimlərimiz Azərbaycanda neft sənayesinin inkişaf tarixini bir necə mərhələyə ayırmış və neft sənayemizin milliləşdirilməsi dövrünü həmin mərhələlərdən biri hesab etmişlər. Sənədlərə əsasən, məhz həmin illərdə respublikamızda neft yataqlarının istismarı, təcrübə-sınaq işlərinin həyata keçirilməsi daha geniş vüsət almış, neft üzrə elmi-tədqiqat işlərinə start verilmiş, yeni neft yataqlarının mənimsənilməsi, yerli texniki avadanlıqların yaradılması, neft emalı müəssisələrinin qurulması və ötürücü kəmərlərin inşası işlərinin həcmi genişlənmişdir.

O dövrdə Azərbaycanın sənaye bazasının genişləndirilməsi üçün xarici ölkələrin təcrübəsinin öyrənilməsinə, həmçinin xarici dövlətlərin mütəxəssislərinin respublikamızın sənaye obyektlərinin bərpası və quruculuğu işlərinə cəlb eilməsinə başlanılmışdır. Arxiv sənədlərinə əsaslanaraq deyə bilərik ki, 1933-cü ildə ölkəmizin sənaye müəssisələrində (keçmiş L.Şmidt adına neft–maşınqayırma zavodu, Paris Kommunası, L.Krasin adına İstilik elektrik müəssisələri, "Bakıtikinti" Tresti və s.) əsasən amerikalılardan ibarət 70-dən yuxarı xarici mütəxəssis çalışmışdır. Həmin illərdə neft sahəsində Azərbaycan–Amerika iqtisadi–ticarət və elmi–texniki əlaqələrinin inkişafında 1924-cü ildə Nyu-Yorkda yaradılan və əsas nümayəndəliyi Moskva şəhərində yerləşən Sovet-Amerika "AMTORQ" aksioner cəmiyyətinin xüsusi rolu olmuşdur.

"AMTORQ" ölkəmiz üçün vacib olan qurğu və avadanlıqların, maşın və texnikanın alınmasında bilavasitə xidmət göstərmiş, eyni zamanda, elmi–tədqiqat və sənaye müəssisələrinin qarşılıqlı olaraq elmi-texniki yeniliklərlə məlumatlandırılmasında iştirak etmişdir.

Bu məqamda "Azneft"in fəaliyyəti ilə bağlı qısaca bəhs etmək yerinə düşərdi. Belə ki, adı çəkilən qurum ölkəmizdə neft sənayesi milliləşdirildkdən sonra bu sahəyə rəhbərliyi həyata keçirmək, neft və neft məhsullarının istehsalını artırmaq üçün yaradılmışdı. Keçmiş İttifaq rəhbərliyi neft sənayesini bütövlükdə öz himayəsində saxlamasına baxmayaraq, "Azneft"ə xarici şirkətlərlə əlaqə qurmaq səlahiyyəti vermişdi. Bu imkandan istifadə edən "Azneft" neft sənayesini yeni texnika ilə təmin etmək məqsədilə Moskva, Petroqrad, Xarkov, Daşkəndlə yanaşı, Nyu-York, Berlin, London, Marsel, Paris, Rəşt və digər şəhərlərdə də nümayəndəliklər yaratmış, texniki avadanlıq və başqa məhsullar almaq məqsədilə ABŞ və İngiltərənin neft şirkətləri ilə müqavilələr imzalamışdı.

Arxiv sənədlərində Amerikaya ezam edilmiş "Azneft" mütəxssislərinin hesabatları saxlanılır və həmin hesabatlarda Nyu-Yorkda asfalt zavoduna baxış, neft masınqayırması sahəsində əldə edilmiş nəticələr, neft məhsulunun asfaltın istehsalında tətbiqi və digər məsələlərə dair qiymətli materiallar var.

XX əsrin 20-30-cu illərində Azərbaycan–Amerika mütəxəssislərinin qarşılıqlı əməkdaşlığı ölkəmizin neft sənayesində qabaqcıl texnologiyanın tətbiqinə, yeni neft–qaz yataqlarının kəşfinə, elmi–tədqiqat işlərinin genişlənməsinə böyük töhfələr vermiş, neft emalı və neftayırma sahələrinin inkişafına təkan verməklə, həm də ölkə iqtisadiyyatının digər sahələrinin inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Xarici ölkələrin mütəxəssisləri tərəfindən aparılmış elmi-tədqiqatlar bir daha göstərmişdir ki, Bakı nefti yüksək keyfiyyətə malikdir və ondan çeşidli neft məhsullarının istehsalı məqsədilə istifadə etmək mümkündür. Keçmiş İttifaqın "Başneft" idarəsində çalışmış amerika mütəxəssisi Ç.Qolland öz təkliflərində qeyd etmişdir ki, "Bakı sənaye üsulu ilə neft istehsalı və neftdən sürtgü yağlarının alınmasında pionerdir. Lakin Amerika son 10-15 ildə bu sahədə yüksək texniki inkişaf əldə edib, bu sahədə birgə elmi-texniki əməkdaşlığı genişləndirməklə daha irəliyə getmək olar".

Qeyd olunan illərdə bir çox ölkələrin, xüsusilə ABŞ-nin firma və şirkətləri Azərbaycana neft sahəsində əməkdaşlıq və texniki dəstək göstərməyi təklif etmiş, hətta 1922-ci ildə "Azneft"lə Amerika şirkəti ("İnterneyşin Korporeyşin") arasında Balaxanıda 100 neft quyusunun istismarına dair müqavilə imzalanmış, lakin qarşı tərəfin günahı üzündən icra edilməmişdir.

Neft sənayesində elmi-texniki tərəqqinin ən yüksək zirvəsi 1949-cu ildə dünyada ilk dəfə Bakıda açıq dənizdə nəhəng Neft daşlarının əsasının qoyulması oldu. Neft daşları bütün dünyanın həsəd apardığı insan düşüncəsinin möcuzəsi idi. Bundan sonra Azərbaycanın neft sahəsindəki təcrübəsinin öyrənilməsinə maraq artdı və bu sahədə çalışan alimlərimizin xaricə dəvət olunması gerçəkləşdi. Sonrakı illərdə də Azərbaycan öz neft-qaz məhsulu ilə dünya miqyasında tanınmaqla yeni-yeni uğurlar əldə etdi.



Sonda mühüm bir məqamı da qeyd etmək istərdim. 30 il bundan əvvəl "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı neft şirkətləri arasında imzalanan, təxminən, 400 səhifə həcmində və 4 dildə tərtib olunmuş müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını aldı. Müqavilədə 7 ölkənin 11 ən məşhur neft şirkəti iştirak etdi. Bununla da müstəqil dövlətimizin neft strategiyasının və doktrinasının əsası qoyuldu. Bu qlobal layihə Azərbaycanın suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərdi, dövlət müstəqilliyinin mühüm təminatına çevrildi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış "Əsrin müqaviləsi" respublikamızın salnaməsinə yeni neft strategiyasının şanlı səhifəsi kimi yazılıb. Bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil edilib.

***Həsən HƏSƏNOV,***
***Dövlət Elm və Texnika Sənədləri Arxivinin rəis müavini***

### "Əsrin müqaviləsi" – 30: ümummilli xəzinə

- **1997-ci ilin noyabr ayında ilk hasilat başlanandan 2024-cü ilin ilk yarısının sonunadək AÇG-dən 593 milyon ton neft hasil edilib.**
- **Bakı-Tbilisi-Ceyhan boru xətti vasitəsilə dünya bazarlarına 576 milyon ton neft daşınıb.**
- **2006-cı ildən bəri ACG nefti ilə yüklənmiş 5707 tanker Ceyhan terminalından yola salınıb.**
- **Hasilatın başlanğıcından 2024-cü ilin birinci yarısının sonunadək Azərbaycana, təqribən, 57 milyard kubmetr AÇG səmt qazı təhvil verilib.**
- **AÇG layihəsinin əsaslı xərcləri 2024-cü ilin ilk yarısının sonunadək 45 milyard dollar təşkil edib.**
- **1994-cü ildə AÇG layihəsi başlanandan 2024-cü ilin birinci yarısının sonunadək BP və onun layihədəki tərəfdaşları Azərbaycanda sosial layihələrə, təqribən, 111 milyon dollar xərcləyiblər.**
- **2017-ci il sentyabr ayının 14-də AÇG sazişi 2050-ci ilin sonunadək uzadılıb.**
- **2019-cu il aprel ayının 19-da AÇG-nin işlənməsinin növbəti addımı olan 6 milyard dollarlıq yeni layihəyə – Azəri-Mərkəzi-Şərqi layihəsi həyata vəsiqə alıb.**
- **2024-cü il aprel ayının 16-da ACE platformasından ilk neft əldə olunub.**
- **Ümumilikdə, AÇG layihəsi çərçivəsində "Çıraq" platforması yenidən qurulub, 8 yeni platforma tikilib, dünyanın ən böyük neft və qaz terminallarından biri inşa edilib, Xəzər dənizinin dibində mürəkkəb sualtı boru xətləri şəbəkəsi yaradılıb.**
- **Hazırda AÇG-də 144 hasilat quyusundan neft çıxarılır, 45 suvurma və 8 qaz injektor quyusundan isə texniki məqsədlər üçün istifadə olunur.**

# "Neft salnaməmizin şanlı əfsanəsi"



**20 Sentyabr Neftçilər Günü münasibətilə "Xalq qəzeti" redaksiyasında akademik Xoşbəxt Yusifzadəyə həsr olunan "Neft salnaməmizin şanlı əfsanəsi" xüsusi buraxılışının təqdimatı keçirildi.**

Mərasimdə qəzetin baş redaktoru Əflatun Amaşov görkəmli geoloq Xoşbəxt Yusifzadənin elmi-praktik fəaliyyətindən bəhs edərək onun ölkəmizin neft sənayesinin inkişafında önəmli xidmətlər göstərdiyini, Bakı neftinin taleyini özünün həyat amalına çevirdiyini və ömrünün 70 ilinin bu sahə ilə bağlı olduğunu bildirdi. Baş




redaktor görkəmli geoloqun Azərbaycanda həm milyardıncı, həm də 2 milyardıncı ton neftin hasil olunmasında fəal iştirak etdiyini, onun rəhbərliyi ilə Xəzər dənizi hövzəsinin Azərbaycan, Türkmənistan və Rusiya sektorlarında 20-dən çox neft və qaz yatağı, o cümlədən dünyada məşhur olan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının kəşf olunduğunu söylədi.

Xüsusi buraxılışın tərtibçisi şair-publisist Akif Əhmədgil qeyd etdi ki, xarici şirkətlərlə birgə bütün layihələrin işlənməsində, "Əşrəfi", "Qarabağ", nəhəng "Şahdəniz" qaz-kondensat, iri "Abşeron" kimi yataqların, eləcə də 2010-cu ildə ölkəmizin öz gücü ilə açdığı "Ümid" yatağının kəşf edilməsində, habelə respublikamızın siyasi-iqtisadi həyatında xüsusi önəm daşıyan "Əsrin müqaviləsi"nin həyata vəsiqə almasında əfsanəvi geoloqun xidmətləri onun adını milli neft sənayemizin tarixinə qızıl hərflərlə həkk edib.

Çıxış edənlər ulu öndər Heydər Əliyevin Xoşbəxt Yusifzadənin əməyinə hər zaman yüksək dəyər verdiyini, onu 1970-ci ildə "Xəzərdənizneft" İstehsalat Birliyinin rəis müavini, baş geoloq vəzifəsinə təyin etdiyini, dahi şəxsiyyətin onun bir alim kimi biliyinə, təcrübəsinə həmişə inamla yanaşdığını, "Azərbaycanda bizim çox hörmətli geoloqumuz Yusifzadə kimi Xəzər dənizini bilən ikinci adam yoxdur", – deməsini minnətdarlıqla xatırladılar.

Təqdimatda bildirildi ki, Xoşbəxt Yusifzadə keçmiş SSRİ-də, eləcə də beynəlxalq aləmdə böyük alim və istehsalat rəhbəri, eləcə də Rusiya Beynəlxalq Mühəndislər Akademiyasının fəxri akademiki, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki, Gürcüstan Milli Elmlər Akademiyasının xarici üzvü kimi nüfuz qazanıb. Onun alimlər qrupu ilə işləyib hazırladığı qaz kondensat yataqları ehtiyatlarının qiymətləndirilməsinin və yataqların işlənilməsinin nəzəri və təcrübi əsasları işi 1982-ci ildə Azərbaycanın Dövlət Mükafatını alıb, ölkəmizdə neft və qazçıxarmanın inkişafına verdiyi böyük töhfələr bir sıra yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görülüb.

Mərasimdə neft salnaməmizin şanlı əfsanəsinin keçmiş SSRİ dövlətinin 2 dəfə "Qırmızı əmək bayrağı", "Şərəf nişanı" ordenləri, bir sıra medalları və fəxri mükafatları, müstəqillik illərində isə Azərbaycanın "Şöhrət", "Şərəf", I dərəcəli "Əmək", "İstiqlal", "Heydər Əliyev" ordenləri ilə təltif edildiyi, müstəqilliyimizin memarı olan Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin neft sənayesinin inkişafı naminə həyata keçirdiyi layihələrdə də səmərəli əməyinin yüksək dəyərləndirildiyi qədirbilənliklə yad edildi.

Xatırladaq ki, xüsusi buraxılışa Xoşbəxt Yusifzadənin "Azərbaycanın neft təsərrüfatı" jurnalında 1957-ci ildə çap olunmuş ilk elmi məqaləsi, ömrünün son illərində "Xalq qəzeti"nə verdiyi müsahibə və digər materiallar daxil edilib.

# "Qara qızıl"ın yeni dastanı

**Ümummilli lider Heydər Əliyevin 16 avqust 2001-ci il fərmanı ilə "Neftçilər günü" peşə bayramının təsis olunması və hər il sentyabrın 20-də bu peşə bayramının qeyd edilməsinin rəsmiləşdirilməsi Azərbaycanın tarixində, onun iqtisadiyyatının inkişafında, xüsusilə müstəqilliyinin möhkəmləndirilməsində neft sənayesinin önəminin dəyərləndirilməsi, neftçilərin əməyinin yüksək qiymətləndirilməsi məqsədi daşıyıb.**

Adıçəkilən fərmanda qeyd olunur ki, zəngin neft və qaz sərvətlərinə malik olan Azərbaycan bütün dünyada "Neft diyarı", "Odlar diyarı" kimi tanınıb. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan neft fontan vurub və bu hadisə dünyada neftin sənaye üsulu ilə çıxarılmasının başlanması kimi tarixə həkk olunub. XX əsrdə Azərbaycanın neft sənayesi sürətlə inkişaf edib, güclü istehsal bazaları və elmi mərkəzlər yaradılıb. Ölkəmiz İkinci dünya müharibəsi illərində Sovet İttifaqında çıxarılan neftin 75 faizini verməklə cəbhəni yanacaqla təmin edərək alman faşizminin məğlubiyyətə uğradılmasında böyük rol oynayıb.

Respublikamızın neft sənayesinin inkişafı tarixində ən böyük uğurlarından biri də dəniz neft-qaz yataqlarının kəşfi və işlənməsi olub. Belə ki, 1949-cu ildə sahildən 100 kilometr məsafədə, o zaman üçün unikal yataq sayılan Neft Daşlarında dünya təcrübəsində ilk dəfə olaraq açıq dənizdə neft hasilatına başlanılıb. Ötən əsrin 70- 80-ci illəri isə Azərbaycan neftçilərinin dənizin daha dərin sahələrinin mənimsənilməsi ilə səciyyələnib. Məhz bu dövrdə görülən məqsədyönlü tədbirlər nəticəsində neft sənayesi möhkəmlənib və onun geniş infrastrukturu yaradılıb. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini gerçəkləşdirmək üçün ölkəyə xüsusi gəmilər, texnika və avadanlıq gətirilib, Bakı Dərin Özüllər Zavodu tikilib. Bununla yanaşı, neft emalı, neft-kimya sənayesi və neft maşınqayırmasının inkişafında yeni inkişaf mərhələsinə başlanıb.

Nəhayət, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft strategiyası və doktrinası əsasında dünyanın bir çox şirkətləri Xəzər dənizində ilk dəfə olaraq neft və qaz yataqlarının birgə istismarına başlayıb. Bununla da Azərbaycan Xəzər hövzəsində neft və qaz yataqlarının birgə işlənilməsi sahəsində 14 ölkənin 30 iri neft şirkəti ilə ümumi dəyəri 60 milyard ABŞ dollarına yaxın olan 21 beynəlxalq saziş imzalanıb.

"Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradılıb və təsdiq olunmuş vahid proqram üzrə Dövlət Neft Şirkəti ilə birgə işlərə başlanıb. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açıb. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olub.

Bu müqavilə haqlı olaraq Ümummilli lider Heydər Əliyevin banisi olduğu Azərbaycanın energetika strategiyasının əsas tendensiyasını müəyyənləşdirən və respublikamızı dünyanın neft ixracatçılarından birinə çevirən özül hesab edilir.

Ümummilli liderimiz respublikamızın neft–qaz sənayesinin inkişafında xalqımızın dəyərli insanlarının – böyük alimlərin, mühəndislərin, geoloqların və neftçilərin yorulmaz fəaliyyətini, zəngin neft və qaz sərvətlərinin Vətən, xalq naminə istifadə edilməsi üçün gördükləri böyük işləri nəzərə alaraq neftçilərin əməyini yüksək qiymətləndirib, hər il sentyabrın 20-nin Azərbaycan Respublikasında "Neftçilər günü" peşə bayramı kimi qeyd olunmasını 16 avqust 2001-ci il tarixli fərmanla rəsmiləşdirib.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Torpaq Vətən olur igidləriylə”

**Vətən müharibəsində rəşadətli ordumuz möhtəşəm qələbə qazansa da, Qarabağda qalan erməni silahlı birləşmələri dinc oturmur, tez-tez silahlı təxribatlar törədirdilər. Nəhayət, 2023-cü il sentyabrın 18-də məğlub düşmənin Ağdam rayonu istiqamətində yerləşən mövqelərimizi intensiv atəşə tutması, ertəsi gün Xocavənddə baş verən mina partlayışı kapitulyasiya aktını görməzdən gələn müxənnətlərə qarşı lokal xarakterli antiterror tədbirlərinin başlanmasına zəmin yaratdı.**

Bildiyimiz kimi, əməliyyatlardan bir neçə saat əvvəl mina partlayışları olmuş və nəticədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin polisləri də daxil, 9 soydaşımız həyatını itirmişdi. Özü də həmin minalar müharibədən sonrakı dövrə – 2021-ci ilə aid sursatlar idi. Deməli, 44 günlük Zəfər Yürüşü nəticəsində qolu-qanadı qırılaraq, pərən-pərən salınmış erməni separatçı hərbi dəstələri 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın əksinə olaraq, nəinki suveren ərazilərimizi tərk etməmiş, əksinə, silahlı təxribatlar törətməkdən belə çəkinməmişdilər.

Cəmi 23 saat 43 dəqiqə çəkən antiterror tədbirləri ilə ermənilərin 90-dan çox döyüş mövqeyi, həmçinin strateji əhəmiyyətli nöqtələri nəzarət altına alındı, xeyli hərbi təyinatlı avtomobil, artilleriya qurğusu, minaatan  digər vasitələr zərərsizləşdirildi. Qarabağda yerləşən qanunsuz erməni silahlı dəstələri döyüş mövqelərindən və hərbi postlardan çıxmalı, anti-konstitusion separatçı rejim olan “Artsax” buraxılmalı oldu. Beləliklə, Azərbaycanın tam suverenliyi təmin edildi.

Təəssüf ki, antiterror tədbirləri zamanı 204 hərbi qulluqçumuz həyatını itirdi.

Amma şair doğru deyib:

**Toplum millət olur hünərləriylə,**
**Torpaq Vətən olur igidləriylə!**

Bu səhifədə 1 il əvvəl son zəfər yolçuluğuna çıxaraq, canları bahasına torpağı Vətən edən igidlərimizin bir qrupu haqqında yazılar toplanıb.

***XQ***

## Şəhid komandirlər







**Antiterror tədbirlərinin önündə gedən yüksək rütbəli zabitlər tabeliklərində olan əsgərlərə şəxsi igidlik nümunəsi göstəriblər. Onlardan biri polkovnik-leytenant Rəşad Rəhim oğlu Hüseynov idi.**

Şəhid komandir 10 mart 1980-ci ildə Şirvan şəhərində doğulub. Evli idi, 2 övladı var. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (AAHM) bitirmişdi.

Daxili Qoşunların Xüsusi Dəstəsində hərbi hissənin komandiri olan Rəşad Hüseynov qulluq illəri ərzində “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medala, “Qüsursuz xidmətə görə” hər 3 dərəcədən olan medallara və digər təltiflərə layıq görülmüşdü. Vətən müharibəsində özünü cəsur komandir kimi tanıtmışdı. Suverenliyimizin bərpası uğrunda başlanan sentyabr tədbirləri zamanı o, Kəlbəcər istiqamətində yaralanaraq, tanrı dərgahına yol alıb. Rəşad Hüseynov Şirvan şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunub. Ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilib.

Haqqında deyilənlər: Dövlətini və xalqını canından artıq sevirdi. Hərbi peşənin sirlərini mükəmməl bilirdi. Tabeliyində olan hərbi qulluqçulara tək komandir deyil, həm də böyük qardaş olub, onların hər bir problemini öz müşkülü bilərək, daim dəstək göstərib.

**Rəşadla eyni rütbəni daşıyan zabit Vüsal Rüstəm oğlu Rüstəmov isə 1984-cü il may ayının 11-də Xaçmaz şəhərində dünyaya göz açıb.** Oradakı 3 saylı orta məktəbi bitirdikdən sonra hərbi ali təhsillini AAHM-də alıb.

Vüsal 2006-ci ildə hərbi təhsilini başa vuraraq, ordu sıralarına daxil olub. Düz 17 il Azərbaycanın bir çox bölgələrində xidmət aparıb. Yüksək peşə hazırlığına, zabit bacarıqlarına görə qiymətləndirilən Vüsal polkovnik-leytenantlığa qədər yüksəlmişdi. 2016-cı ildə Aprel döyüşlərində, 2020-ci ildə isə 44 günlük Vətən müharibəsində fəal iştirak edib. Qarabağ uğrunda bir sıra hərbi əməliyyatlarda fərqlənib. Cəbrayılın, Xocavəndin və Füzulinin azad olunmasına görə medalları ilə təltif edilib. 2023-cü ilin antiterror tədbirləri zamanı Komando Briqadasının igid zabiti Vüsal Rüstəmov məxsusi vətənpərvərlik nümunəsi göstərib. Onun qəhrəmanlığının ən ali məqamı isə şəhidlik zirvəsinə yüksəlmək olub. Ruhuna böyük ehtiramla nəşi doğma Xaçmaza aparılaraq, Qobuqırağı kənd qəbiristanlığında torpağa tapşırılıb. Onun şücaəti ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə qeyd edilib. Evli olub, 2 övlad atası idi.

**Şəhid mayor Aqil Fayəddin oğlu Əkbərov Lənkəran rayonunun Xolmili kəndinin igid yetirməsidir.** 14.09.1985-ci ildə Xəzərin sahilindəki həmin kənddə anadan olub.

Bir gün Aqil evlərinin yanından ötən qatara minərək, atası kimi hərbçi olmaq arzusu ilə Bakıya yollanıb. Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olub. Sonra zabit kimi layiqli xidmət edib. İkinci Qarabağ müharibəsində iştirakına görə “Vətən uğrunda” medalı ilə təltif olunub. Aqil Əkbərov 2021-ci ilin sonlarında yaradılan Azərbaycan Komando Briqadasına yazılıb. 25 iyun 2023-cü ildə o, “Cəsur döyüşçü” medalına layiq görülmüş, antiterror tədbirlərindən 7 gün əvvəl isə 38 yaşını zabit dostları ilə qeyd etmişdi. Onu təbrik edib cansağlığı arzulayan həmkarları nə biləydilər ki, bircə həftə ömrü qalıb?

Uğurlu lokal antiterror tədbirləri tabor komandiri Aqil Əkbərovun son döyüşləri olub. O, ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni ilə təltif edilib. Məzarı doğma kəndlərindəki qəbiristalıqdadır, üstündən tər çiçəklər əskik olmur. Həmrütbələri – “Silahsız döyüşçü” adı ilə tanınan igid Sənan Fərman oğlu Qasımov, dəqiq koordinatlar ustası olan artilleriyaçı Elxan Şükür oğlu Nəcəfi, qartal vüqarlı hərbi təyyarəçi Xəyyam Mirazim oğlu Səmədov kimi, o da yaddaşlarda qorxmaz, öndə gedən zabit kimi qalıb.

## Cənab leytenant

**Şəhriyar Bəxtiyar oğlu Əliyev cəmi 26 il yaşasa da, adını gənc zabit kimi Vətənin şöhrət tarixinə qızıl qanı ilə yazıb.**



Şəhriyar Astara rayonunun Şiyəkəran kəndində anadan olub. Uşaq yaşlarından ailəsi ilə birgə Bakıda yaşayıb. Orta təhsilini 307 nömrəli tam orta məktəbində alıb. Məktəbi bitirdikdən sonra Azərbaycan Texniki Universitetinə daxil olub, bakalavriatı bitirib və magistraturaya qəbul edilib. Amma ilyarımdan sonra təhsilini yarımçıq qoyub. Buna səbəb 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başlanması olub. Orduya könüllü yazılan Şəhriyar Daxili Qoşunların Bərdə rayonunda yerləşən “N” saylı hərbi hissəsində vuruşub və Böyük Qələbədən sonra da orduda qalaraq, leytenant kimi xidmətinə davam edib.

Qohumlarının dediyinə görə, 2023-cü il sentyabrın 27-də qəhrəmanımızın Gəncə tərəfdən olan ali təhsilli bir qızla nişan mərasimi olacaq, gələcək ailəsinin təməli qoyulacaqdı. Ancaq bundan düz bir həftə əvvəl azğın erməni separatçılarına qarşı lokal antiterror tədbirləri başlandı və Şəhriyar Ağdərə istiqamətində gedən döyüşlərdə şəhadətə ucaldı.

Son döyüşü ərəfəsində o, atasına zəng edib və həmin aralar başı qarışıq olduğu üçün evə telefon aça bilmədiyinə görə üzr istəyib. Atası isə “Eybi yoxdur, təki sağlıq olsun!”, – deyib. Amma, sən demə, bu, Şəhriyarın son sağlıq günü imiş. Sabahısı onun şəhadət xəbəri yayılıb. Nişan gününə qədər yaşamaq qisməti olmayan qəhrəmanı canından çox sevdiyi müqəddəs Vətən torpağı öz bağrına “nişanlayıb”. O, Cənnətə uğurlanarkən müğənni Çingiz Mustafayevin ifasında məşhur mahnı səsləndirilib:

**Ana, mən şəhid oldum,**
**Yerim gözəldir, təki ağlama.**
**Canım sevgilim, bağışla məni,**
**Səni tək qoydum.**
**Çox deyiləcək sözlərim vardı,**
**Vətən sağ olsun!..**

Bu gün “Vətən sağ olsun!” deyən Şəhriyarın ruhu şaddır ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq və mərdlik göstərərək şəhid olub. Silahlı Qüvvələrimizin zabiti kimi xidməti vəzifələrini, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Prezident İlham Əliyevin mübarək imzası ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda” medalı ilə təltif edilib. Əliyev Şəhriyar Bəxtiyar oğlu Bakıxanov Şəhidlər Xiyabanında dəfn edilib. Məzarı üstünə düzülmüş çiçəklər Vətən torpağını bir boy da ucaldıb.

Yeri gəlmişkən qeyd edək ki, o, nəslinin tək igidi deyil. Şəhriyar əziz canını Vətənə qurban verdiyi gün əsgərlikdə olan bacısı oğlu, 22 yaşlı İlkin Musazadə Xocavənd istiqamətində döyüşlərdə sol əlindən ağır yaralanıb, güllə ovcunu deşib keçib. Düz 16 gün müxtəlif hospitallarda müalicə alan İlkin sonra yenidən hərbi xidmətini davam etdirib. “Şücaətə görə” medalı ilə təltif olunub və bu ilin yanvarında Ordudan tərxis edilib.

## Soyadını doğruldan əsgər

**Əsgər Sənan Qəhrəmanov Qubanın Xucbala kəndindən idi. Onun tərcümeyi-halında “19” rəqəminə neçə dəfə rast gəlinir: 2004-cü il iyulun 19-da dünyaya göz açıb. 2022-ci il iyilun 19-da müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2023-cü il sentyabrın 19-da başlanan lokal xarakterli antiterror tədbirlərində iştirak edib. Şəhadətə ucalanda da Sənanın cəmi 19 yaşı olub.**



Daim öz soyadını doğrultmağa çalışan Azərbaycan ordusunun sıravi əsgəri Sənan Qəhrəmanov qorxmaz, ər igid kimi tanınıb. Ən çətin tapşırıqların öhdəsindən bacarıqla gəlib. Elə həyatını da növbəti tapşırığı layiqincə yerinə yetirib qurtardığı anda itirib.

Qəhrəman şəhid Quba rayonunda dəfn edilmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli sərəncamına əsasən Sənan Qəhrəmanov ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif olunub.

Etnotoponim kimi özündə qıpçaqların “kuç” tayfa adını ehtiva edən Xucbala kəndinin dağlara qalxan yol kənarına yaxın hissəsindəki qəbiristanlıqda üstündən tər güllər əskik olmayan bir məzar var. Bu, güclü tayfa birliyi kimi məşhurlaşmış qıpçaqlar nəslinin igid davamçısı Sənan Qəhrəmanovun uyuduğu məkandır.

## Səma şahini

**Düşmənə sarsıdıcı zərbələr endirən Azərbaycanın dəmir qanadlı şahinləri də milli hərbi aviasiya tariximizə şanlı səhifələr yazıblar. Onlar müharibə zamanı döyüş uçuşları aparıb, hava məkanını qorumağa və aldadıcı manevrlər edərək üstünlüyü əldə saxlamağa nail olublar. İgid şahinlərdən biri də lokal antiterror tədbirlərində şəhid olmuş Elcan Balabəyli idi.**

Elcan 1992-ci ildə Naxçıvan şəhərində doğulub. Əvvəlcə oradakı Heydər Əliyev adına Hərbi Liseydə, sonra Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində oxuyub. 2014-cü ildə təhsilini hava hücumundan müdafiə ixtisası üzrə başa vuraraq leytenant hərbi rütbəsi alıb. Bir il Azərbaycan Ordusunun Təlim-Tədris Mərkəzində təkmilləşdirmə kursu keçib. 2015-ci ildən Azərbaycan Silahlı Qüvvələri sıralarında nümunəvi zabit kimi xidmət edib, kapitan hərbi rütbəsinə qədər yüksəlib.

Döyüş və ictimai-siyasi hazırlığın yüksəldilməsində, hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə dəfələrlə yuxarı komandanlıq tərəfindən diplom və fəxri fərmanlarla təltif olunan Elcan Balabəyli 2016-cı ilin aprel döyüşlərində, 2022-ci ilin qisas əməliyyatında fəallıq göstərib. 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsinə qatılıb, 3 gün sonra Füzuli rayonu istiqamətində yaralanıb. Müalicəsi tamamlanmamış təkidlə yenidən xidmət yerinə qayıdıb, döyüş yolunu Şuşaya qədər davam etdirib.

Ötən ilin sentyabrında Qarabağda lokal xarakterli antiterror tədbirləri zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə düşmənin snayper atəşinə tuş gələrək, qəhrəmancasına şəhid olub.



Qəhrəman şəhidimiz 20 sentyabr 2023-cü ildə doğulduğu Naxçıvan şəhərində torpağa tapşırılmışdır. “Vətənə xidmətə görə” ordeninə, “İgidliyə görə”, 3-cü dərəcəli “Qüsursuz xidmətlərə görə”, Füzulinin, Xocavəndin və Şuşanın azad olunmasına görə medallarına və digər təltiflərə layiq görülmüşdür.

## Qazi öyüncü

**Antiterror tədbirlərinin iştirakçısı, qazi Elmar Elxan oğlu Ağayev antiterror əməliyyatında azğın ermənilərə qarşı igidliklə vuruşub.**



Elmar 2004-cü ildə Lerik rayonunun Noda kəndində anadan olub. 2022-ci ildə hərbi xidmətə çağırılıb və kəşfiyyat qrupunda xidmətə başlayıb. Ötən il təlimlərdə öyrəndiklərini lokal antiterror tədbirləri zamanı bacarıqla tətbiq edə bilib. Gərgin döyüşdə ciddi xəsarət almış yoldaşları ilə müalicə almaq üçün Ağdam Mərkəzi Xəstəxanasına göndərilib. Müalicədən sonra yenidən qulluq etdiyi hərbi hissəyə qayıdaraq, Vətənə xidmətini davam etdirib.

**Qazi Elmar Ağayevin dedikləri:**

– Həmin vaxt ərazi bütövlüyümüzün tam bərpası bütün əsgər heyətimizin tək arzusu olub. Bunun üçün son damla qanımıza kimi vuruşmağa hazır idik. Sentyabrın 19-da səhər saatlarında kəşfiyyat qrupumuz komandir Kamran Cəbrayılovun rəhbərliyi ilə Ağdam–Ağdərə arasında mövqe tutdu. Orada ağır, gərgin döyüşlərdə silahı yerə qoymayan erməni terrorçu qruplaşmasının çox sayda əsgərini məhv etdik. Sərrast atəşlərlə düşməni pərən-pərən saldıq. Kəşfiyyat dəstəmizdən ciddi xəsarət alanlar olsa da, sona qədər inamla irəliləyirdik. Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən separatçı dəstələri sentyabrın 20-də ağ bayraq qaldıraraq təslim olmaq tələbinə boyun əydilər.

Bu gün fəxr edirəm ki, ərazi bütövlüyümüzün tam təmin olunması uğrunda vuruşan Vətən oğullarından biriyəm. Bundan sonra da hər zaman şanlı Azərbaycan Ordusunun formasını geyinərək Vətənimizin müdafiəsinə qalxmağa hazıram.

Elmarın valideynləri – atası Elxan kişi, anası Əfsanə xanım onunla fəxr etdiklərini vurğulayıb deyirlər ki, minlərlə qəhrəman Vətən oğulları kimi, Elmarın da torpaqlarımızın namərd ermənilərdən təmizlənməsi uğrunda gedən döyüşlərdə iştirakının qürurunu yaşayırlar.

Sonda qeyd edək ki, Elmarın ötən il lokal xarakterli antiterror tədbirlərində göstərdiyi hünəri “Şücaətə görə” medalı ilə qiymətləndirilib.

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*




Günün sualı

# Azərbaycan demoqrafik böhranla üzləşə bilərmi?

## *Problemlər təxirəsalınmaz addımlar tələb edir*

**Bəşəriyyətin qarşılaşdığı ciddi problemlərdən biri demoqrafiya ilə bağlıdır. Bu məsələ Azərbaycan üşün də aktualdır. 2018-ci ildə ölkə əhalisinin sayı 10 milyonu keçdi. Hazırda isə bu göstərici 10 milyon 183 min nəfərdir. Əhali artımı yalnız doğuş sayının ölüm sayını üstələməsi ilə təmin edilib. Xarici miqrasiyanın isə əhalinin sayına təsiri çox azdır.**

Ölkə nisbətən gənc əhali strukturuna malik olsa da, onun qocalması fenomeni get-gedə özünü büruzə verir. Təəssüf ki, ümumi nəsilvermə əmsalı son bir neçə ildə davamlı olaraq azalır və 1,6-ya düşüb. Ölkədə doğuş zamanı cins seçimi problemi isə yüksək səviyyədə qalır. Bu da əhali strukturunda kişilərin sayının artmasına şərait yaradır.

Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun baş direktoru, coğrafiya elmlər doktoru, professor, Dövlət Mükafatı laureatı Zakir Eminovla söhbətimiz məhz bu barədədir.



***– Sosial-iqtisadi çətinliklər, miqrasiyaların intensiv xarakter alması bütün dünyada əhalinin sayının artımına mənfi təsir göstərir. Ölkəmizdə bu sahədə vəziyyət nə yerdədir?***

– Demoqrafik problemlərin yaranması, ilk növbədə müasir dövrdə yaranmış sosial-mədəni və iqtisadi vəziyyət, mənzil təminatında olan çətinliklər, qadınların geniş şəkildə istehsal və xidmət sahələrində işə cəlb edilməsi, ailələrin və uşaqların sosial müdafiəsi və s. amillərlə əlaqədardır. Əhalinin sayı doğulan uşaqlar və miqrantlar hesabına çoxalır. Lakin son illərdə onların hər ikisinin sayı, xüsusilə pandemiya dövründə və son bir neçə ildə kəskin şəkildə aşağı düşüb. Ona görə də əhalinin say artımı minimal səviyyəyə qədər azalıb. Belə vəziyyət bir demoqrafik nəsildən sonra (18–22 il) əhalinin sayının artımını təmin etməyə bilər, təsərrüfat sahələrinin əmək ehtiyatları ilə təminatında, kadrların hazırlanmasında ciddi çətinliklər yaranar, əhalinin cins–yaş tərkibi pozular.

2010–2016-cı illərdə respublikada əhalinin sayının illik artımı 100 min nəfərdən çox idi. Məsələn, 2011-ci ildə artım 124 min nəfər (1,4 faiz) təşkil edib. Son illərdə isə bu göstərici bir neçə dəfə azalıb. 2023-cü ildə ölkədə əhalinin sayı 53,7 min nəfər (0,5 faiz), o cümlədən şəhərlərdə 20,6 min nəfər çoxalıb. 1960-cı ildən bəri bunlar əhali artımı üzrə ən aşağı göstəricilərdir. Yaxın illərdə də azalmaların davam edəcəyini söyləmək olar. Ona görə ki, digər demoqrafik göstəricilərdə də ciddi geriləmələr qeydə alınır.

***– Bəs bu mənfi tendensiyaya gətirib çıxaran əsas problemlər hansılardır?***

– Əsas problemlərdən biri əhali arasında nikah yaşının yüksəlməsi, yeni ailə quranların sayının kəskin azalması, boşanmaların artması və evlənmələrin yarısı səviyyəsinə çatmasıdır. 2010-cu ildə ölkədə 79,2 min nikah, 9,1 min boşanma olmuşdursa, 2023-cü ildə bu göstəricilər nikahlar üzrə 54,2 min, boşanmalar üzrə 21,7 min nəşkil edib. 2010-cu ildə boşanmalar nikahların 11,5 faizini, 2023-cü ildə isə 40 faizini təşkil edib. Nikahların hər 1000 nəfərə olan əmsalı bu dövrdə 8,9-dan 5,3-ə qədər azalıb, boşanmalar 1,1-dən 2,1-ə yüksəlib. Bu gün nikaha daxil olmanın orta yaşı 30,2 il təşkil edir.

Ümumi nəsilvermə əmsalı bir qadına düşən doğulan uşaqların sayını müəyyən edir. Bu gün Azərbaycan tədricən biruşaqlı ailə mərhələsinə qədəm qoyur. Ona görə ki, 2023-cü ildə bu əmsal 1,6 səviyyəsində qeydə alınıb. Əhalinin sayının artması üçün isə ailədə 3 uşaq olmalıdır. Mənfi tendensiya yeni tədris ilində 1-ci sinfə gedən şagirdlərin sayında da özünü göstərir. 2017–2018-ci tədris ilində 164 min 523 uşaq, 2020–2021-ci dərs ilində ölkənin bütün ümumi təhsil müəssisələrinin I siniflərinə 156 min 328 uşaq gedib. 2022–2023-cü tədris ilində bu rəqəm 152 minə yaxın, 2023–2024-cü tədris ilində isə 132 min 261 nəfərə enib.

Bu statistik rəqəmlər 1-ci sinfə gedən uşaqların sayında ilbəil azalma olduğunu göstərir. Son 7 il ərzində 1-ci sinfə gedən şagirdlərin sayı təxminən 20 faiz azalıb. Şagirdlərin sayının azalması ciddi siqnaldır və bu tendensiya ciddi demoqrafik problemlərə səbəb olacaq.

Hazırda əmək qabiliyyətli yaşda olan insanlar XX əsrin 60–90-cı illərində doğulub. Ona görə əvvəlki illərdə doğumun yüksək səviyyəsi və son 10–15 ildə kəskin azalması onların sayının əhali arasında yüksək göstəricilərə malik olmasına şərait yaradır. 1960–1990-cı illərdə doğulanlar ölkə əhalisinin 70 faizə qədərini təşkil edib. Ona görə də yaxın illərdə əhali arasında əmək qabiliyyətli yaşdan böyük qrupun payı 20–25 faiz və daha yuxarı olacaq.

***– Ölkədə ciddi narahatlıq doğuran məsələlərdən biri doğumun cins tərkibinin süni surətlə pozulmasıdır. Artıq son 2 onillikdə oğlanlar doğulan uşaqlar arasında çoxluq təşkil edir.***

– Doğrudan da, ölkəmizdə doğumun təbii cins tərkibi pozulub. Bioloji normaya görə, doğulan uşaqlar arasında cinsə görə nisbət 100 qıza 105–106 oğlan təşkil edir. Həyatının ilk 5 ili ərzində oğlan uşaqları arasında ölüm əmsalı daha yüksək olur, 10 yaşa çatanda isə bu nisbət balanslaşır. Beləliklə, doğulan hər 100 qıza düşən oğlan nisbəti 105–106-nı keçməməlidir. Azərbaycanda isə hazırda 100 qıza nisbətdə 116 oğlan doğulur. Doğulan oğlanların sayının çox olması dölün cinsinə görə hamiləliyə son verilməsi ilə bağlıdır. Və bu cür seçim, doğulan uşaqlar arasında cins nisbətinin pozulmasına birbaşa təsir göstərir. Bu həm Azərbaycan üçün, həm də qlobal yanaşsaq, dünya üçün böyük problemdir.

Hazırda kənd əhalisi arasında və əksər rayonlarda kişilər say üstünlüyünə malikdir. Kişilər arasında, xüsusilə şəhərlərdə ölüm səviyyəsi kəskin artmışdır. Ölümün yüksək göstəriciləri 30–40 yaşdan 50 yaşa qədər olan əhali arasında da qeydə alınır. Ona görə ölkədə kişilərin sayının artımında ciddi problemlər yaranmışdır.

***– Təəssüf ki, Azərbaycan körpə və ana ölümləri yüksək olan ölkələr sırasına daxil edilir.***

– Keçən il ölkədə 33 ana ölümü olub, onun hər 100 min diri doğulan uşağa görə nisbət əmsalı 29,3 səviyyəsinə qalxıb. Bu isə 2015-ci ilə nisbətən 2 dəfə çoxdur. Mövcud vəziyyət analara və uşaqlara göstərilən tibbi xidmətin aşağı səviyyəsi və kadrlarla təminatda olan çətinliklər ilə əlaqədardır. Regionlarda bu sahədə vəziyyət daha pisdir.

Gərgin demoqrafik vəziyyət həm də körpə ölümü ilə bağlı yaranıb. 2023-cü ildəki 2039 körpə ölümü son 25 ilin ən yüksək göstəricisi hesab oluna bilər. Təəssüf ki, bu nisbi əmsallara da aid edilir (hər 1 min diri doğulan uşağa görə 18,1, o cümlədən şəhərlərdə 24,2).

***– Şəhərlərimizdə də əhalinin say artımı aşağı həddə qədər azalıb. Buna səbəb nədir?***

– Bəli, şəhərlərdə demoqrafik potensial çox zəifdir. Şəhərlərin, xüsusilə rayon mərkəzlərinin iqtisadi, sosial-mədəni bazasının zəif olması, bu sahədə əsaslı tədbirlərin aşağı səviyyədə görülməsi şəhərlərin demoqrafik inkişafı prosesinə mənfi təsir göstərir. Şəhər yerlərində çox uşaq böyütmək imkanı məhdud olduğundan, ailələrin çoxu ən yaxşı halda iki uşağa üstünlük verir. Burada mənzil şəraiti də böyük rol oynayır.

Elə ailələr var ki, kirayədə qalır, yaxud iki otaqlı mənzildə yaşayırlar. Uşaq sayını da şəraitə görə planlayırlar. Kənd yerlərində çox uşaq böyütmək imkanı var. Ona görə də, ailələrdə uşaq sayı çox olurdu. Şəhər yerlərində isə bu imkanlar məhduddur. Kənddən şəhərə axın doğulan uşaqların sayına mənfi təsir göstərir. Ölkə əhalisi şəhərlərə toplaşır. Hazırda ölkədə urbanizasiya səviyyəsi 50–55 faiz, əksər inzibati rayonlarda 25–30 faiz arasındadaır və bu vəziyyət yarım əsrdən çoxdur ki, dəyişmir.

Bakı və digər şəhərlər arasında kəskin fərqlər ortaya çıxır. Nəticə olaraq Bakı ətrafında böyük bir "yalançı urbanizasiya" zonası yaranıb. Bu isə regionların inkişafında başlıca maneə olaraq qalır. Əhali uzun illərdir ki, Abşeronda və Bakı şəhər ətrafında cəmlənir.

2011-2015-ci illərdə Abşeron rayonunda miqrasiya hesabına əhali artımı 3,6 min, sonrakı illərdə 2,1 min nəfər olmuşdur. Nəzərə almaq lazımdır ki, bunlar qeydiyyatı aparılan əhalidir. Qeydiyyatsız yaşayan əhalinin sayı dəfələrlə çoxdur. Azərbaycanda demoqrafik inkişafın və məskunlaşmanın nizamlanması üçün "Demoqrafiya və əhali sakinliyi" Qanunun hazırlanması və qəbul edilməsi vacibdir. Eyni zamanda regionların inkişafı, onların demoqrafik və iqtisadi, sosial-mədəni potensialı arasında nisbətin tarazlığının təmin edilməsi vacibdir.

Bu gün dünyanın əksər ölkələri demoqrafik böhran astanasındadır. Yaxın bir neçə ildə böhran daha da kəskinləşə bilər. Ona görə ölkədə Demoqrafik Tədqiqatlar Mərkəzinin yaradılmasına ehtiyac var. Yaranmış vəziyyətin real olaraq qiymətləndirilməsi və həlli yollarının müəyyən edilməsinin vaxtı çatmışdır.

***– Ölkədə demoqrafik inkişaf sahəsində elmi-praktik tədqiqatların aparılması və geniş ictimaiyyətə çatdırılmasında hər hansı çətinliklərlə qarşılaşırsınızmı?***

– Coğrafiya İnstitutunda geniş tədqiqatlar aparılır, məqalələr və monoqrafiyalar nəşr edilir, aparılan tədqiqatların nəticələri dünyanın nüfuzlu elmi jurnallarında çap olunur. Amma müəyyən çətinliklərimiz də var. Tədqiqatların daha səmərəli, dəqiq aparılması, praktiki işlərin həyata keçirilməsi üçün kadrlarla təminatda problem yaşayırıq.

Uzun illərdir ki, cihazlar, avadanlıqlar, texniki vasitələr ilə təminat zəifdir. Nəticə olaraq bir çox hallarda tədqiqatlar tamamlanmır, nəticələr yarımçıq qalır, onların aidiyyəti orqanlar tərəfindən qəbul edilməsində çətinliklər əmələ gəlir. İnanıram ki, bu problemlər tezliklə aradan qaldırılacaq və bizim işlərin keyfiyyəti də yüksələcək.

***Müsahibəni apardı:***
***P.ƏFƏNDİYEV***
***XQ***

Beynəlxalq həyat

# Əşyalar ölüm saçır...

## *Soyuducu da silah ola bilər*

**Dünya Livanda və Suriyada elektron informasiya daşıyıcılarının – telefonların, peycerlərin və radioötürücülərin kütləvi şəkildə partladılmasından danışır. Partlayışlar nəticəsində yüzlərlə yaralının və onlarla itkinin olduğu bildirilir. Elektron avadanlıqların partladılmasının arxasında İsrailin olduğunu iddia edirlər. Livandakı partlayışlarla bağlı belə bir ümumi rəy formalaşır ki, dünya yeni və daha təhlükəli dövrə qədəm qoyur.**

Ötən çərşənbə günü məlum oldu ki, məsələ təkcə yüzlərlə peycerin partlayışları ilə məhdudlaşmadı. Gözlənilmədən Livanda portativ radio stansiyaları və digər elektron qurğular partlamağa başladı. "Əl-Hədət" telekanalının məlumatına görə, radiostansiyalardan başqa, smartfonlar, barmaq izi cihazları və günəş panelləri və litium-ion batareyaları ilə işləyən digər qurğular partladı. Livanın Səhiyyə Nazirliyi azı 25 nəfərin öldüyünü, 300-dən çox insanın yaralandığını açıqladı. "Hizbullah" partlayışlara görə yenidən İsraili günahlandırdı və qisas alacağına söz verdi.

İsrailin "Valla" portalının jurnalisti Barak Ravid məlumatlı mənbələrə istinadən X sosial şəbəkəsində yazır ki, partlayışların ikinci dalğasının, eləcə də peycerlərlə əməliyyatın arxasında İsrail dayanır. Rəsmi olaraq yəhudi dövləti sentyabrın 17 və 18-də baş verən partlayışlarla bağlı şərh vermir. Ancaq bir sıra KİV-də hadisə ilə bağlı bəzi detallara rast gəlmək olar. Məsələn, "The New York Times" (NYT) mənbələrə istinadən yazır ki, İsrail "Hizbullah" hərəkatının peycerlərdən kütləvi şəkildə istifadə etmək qərarından əvvəl Livanda elektron partlayışlar üçün hazırlıqlar həyata keçirib. Nəşrin məlumatına görə, bu məqsədlə Macarıstanda Tayvanın "Gold Appolo" şirkəti ilə cihazların yığılması üçün müqavilələr bağlayan BAC Consulting şirkəti yaradılıb. Qəzet əməliyyatın özünü müasir troya atı kimi qələmə verir.

NYT-nin həmsöhbətləri iddia edirlər ki, ən azı iki gizli şirkət İsrail kəşfiyyatının peycerlərin istehsalında iştirakını gizlətmək üçün yaradılıb.



Onlar, həmçinin bildiriblər ki, BAC Consulting "Hizbullah"dan başqa bütün müştərilər üçün müntəzəm peycerlər istehsal edir. İddia olunur ki, hərəkət istiqamətini müəyyənləşdirmək üçün hazırlanan cihazların batareyalarına PETN partlayıcı maddə qoyulub. Bundan başqa, NYT hadisə ilə bağlı hazırladığı digər məqaləsində yazır ki, peycerlər və radio stansiyalarına hücumlar "Hizbullah"ı pis vəziyyətə salıb, lakin hərəkat bu prosesi dayandıra bilmir.

Məqalə müəllifləri yazır: "Hücum, şübhəsiz ki, qruplaşmaya ziyan vurdu və onu gözdən saldı, onun Yaxın Şərqdəki ən müasir anti-İsrail qüvvələrindən biri kimi imicini əhəmiyyətli dərəcədə ləkələdi". "Ancaq "Hizbullah" mühitə uyğunlaşma tarixinə malikdir: 2006-cı ildə İsrail ilə apardığı son böyük müharibədə çox döyüşçü itirdi, lakin sonrakı illərdə daha da güclənməyi bacardı". Qəzetin hesabatında iddia edilir ki, "Hizbullah" liderləri cavab vermək üçün təzyiq hissi ilə hər iki tərəf üçün fəlakətli nəticələrə səbəb ola biləcək genişmiqyaslı müharibədən qaçmaq istəyi arasında "ilişib qalıblar".

"The Washington Post" qəzetində dərc olunan məqalənin müəlliflərinin fikrincə, hücum kibermüharibənin həyata keçirilməsində "yeni və çox təhlükəli eranın" başlanğıcından xəbər verir. "İnternetə qoşulmuş istənilən cihaz potensial olaraq silaha çevrilə bilər", – nəşr yazır. Demək olar ki, hər bir "ağıllı" cihazın sxemləri manipulyasiya edilə bilər ki, avadanlıq təhlükəli nasazlıqlar yaratmağa başlasın. Məqalədə qeyd edilir ki, gələcəkdə insanın əleyhinə işləyə biləcək cihaz onun şəxsi telefonu, soyuducusu və ya televizoru ola bilər.

"İsrail çərşənbə axşamı günü hücuma görə məsuliyyəti öz üzərinə götürmədi, lakin buna ehtiyac da yox idi", - "The Washington Post" davam edir. "Livan ərazisinə edilən bu cür mürəkkəb və cəsarətli hücumu heç bir başqa ölkə təşkil edə bilməzdi". Qəzet yazır ki, bu hadisə hətta ABŞ-da keçiriləcək seçkilərə də təsir edə bilər, Qəzzada atəşkəs və israilli girovların azad edilməsi "şanslarını sarsıda bilər".

ABŞ-nin daha bir nüfuzlu qəzeti "The Wall Street Journal" yazır ki, İsrail kəşfiyyatının "Hizbullah"ın kommunikasiya təchizatı zəncirinə nüfuz etməsi hələ də qaranlıq olaraq qalır. "Hizbullah" İsrail ilə müqayisədə texnoloji və kəşfiyyat sahəsindəki boşluğu aradan qaldırmaq istəyir, lakin indi fərqin daha da böyük olduğunu anladı".

***S.ELAY***
***XQ***

# Özbəkistanda Üzeyir Musiqi Günü

**Deaşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) Üzeyir Musiqi Günü qeyd olunub.**



Tədbirdə Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, ali məktəblərin professor - müəllim heyəti, tələbələr, yerli azərbaycanlılar, jurnalistlər iştirak edib.

AMM direktorunun müavini Nadir Əlimirzəyev bildirib ki, 18 sentyabr Azərbaycan professional musiqi sənətinin banisi, Şərqdə ilk operanın müəllifi Üzeyir Hacıbəylinin doğum günüdür. 1995-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illiyi ərəfəsində 18 sentyabr Üzeyir Musiqi Günü elan edilib. Bu gün dahi Üzeyir bəyin ruhu şaddır, çünki Azərbaycan musiqisi doğma Qarabağda, Şuşada səslənir.

"Özbəkistan–Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov xalqlarımızın dostluğindan danışıb, Azərbaycan mədəniyyətinin və incəsənətinin Özbəkistanda tanınmasında AMM-nin rolunu qeyd edib.

Sonra Mədəniyyət Mərkəzinin nəzdindəki "Azərbaycan" rəqs ansamblının üzvləri mərasimi milli rəqslərimizlə rövnəqləndiriblər.

Sonda dahi bəstəkar Üzeyir Hacıbəylinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə bərpa edilən və rənglənən eyniadlı operettası əsasında Azərbaycan kino sənətinin əfsanəsi olan "Arşın mal alan" filmi nümayiş olunub.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 205 (30609) 20 sentyabr 2024-cü il, cümə

# Gəncə bütün fəsillərdə gül-çiçəklidir

**Gəncədə hansı küçəyə, parka, meydana gedirsən, qarşına belə gözəl tər çiçəklər, güllər çıxır. Hara baxırsan bütün günü şəhər gülçülük təsərrüfatının işçiləri yolların, səkilərin kənarlarında iş başındadırlar, gözəllik yaradırlar…**



Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi şəhərin ekoloji tarazlığının qorunması, həmçinin yaşıllıq zolaqlarının artırılması məqsədilə yaşıllaşdırma aksiyasını davam etdirir. Qurumun Yaşıllaşdırma şöbəsi tərəfindən bu dəfə "Avropa Gənclər Paytaxtı" parkında, həmçinin, Nizami Gəncəvi prospektində yerləşən yolayrıcı dairələrində, küçə və prospektlərin kənarlarına, şəhərin Baş Meydanına mövsümi dekorativ gül-çiçək əkilib. Güllərin daha uzunömürlü olması üçün əkindən öncə ərazilər torpaq, torf və müxtəlif gübrələrlə zənginləşdirilib. Ərazidə mövcud yaşıllığa aqrotexniki qulluq göstərilib, suvarılması təmin edilib. Adıçəkilən ərazilər ömrünü başa vuran ağac və kollardan təmizlənib.

Yaşıllaşdırma şöbəsinin müdiri Elmar Əzizovla bu barədə söhbət edərkən dedi:



–"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən aksiyanın məqsədi şəhər əhalisinin və qonaqların mənalı istirahətinin təmin edilməsidir. Bununla yanaşı, Gəncənin ekoloji mühitinin sağlamlaşdırılmasının sürətlənməsi, insanlar arasında ekoloji mədəniyyətin və təbiətə qayğı hissinin güclənməsinə böyük töhfə verməkdir.

Bir məsələni də qeyd edək ki, şəhərdə təmizliyin və yaşıllıqların qorunması istiqamətində son illər Gəncədə xeyli iş görülsə də, əhalinin belə aksiyalarda yaxından iştirak etməsi çox vacibdir. Təəssüf ki, bəzən kommunal təsərrüfatı işçilərinin zəhmətinə laqeyd qalanlar, şəhəri zibilliyənlər, məişət tullantılarını hara gəldi, boşaldanlar da tapılır. Bu məsələdə izahat-təbliğat işinin daha da gücləndirilməsinə ehtiyac var.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

**Gəncə şəhəri**

# Olimpiya Oyunları bitdi, idman həyatı isə davam edir

**Dördilliyin ən nüfuzlu idman yarışı olan Paris Yay Olimpiya və Paralimpiya Oyunları başa çatsa da, əldə edilən nəticələr təhlil edilir, növbəti olimpiadada üçün hədəflər müəyyənləşdirilir. Azərbaycanın gənclər və idman nazirinin müavini Mariana Vasileva ilə müsahibəmiz də bu mövzuda oldu.**

Nazir müavini əvvəlcə dünyanın ən nüfuzlu idman yarışı olan Olimpiya Oyunlarında komandamızın qazandığı yaxşı nəticələrdən söz açdı:

– Olimpiya Oyunlarında əldə edilən nəticələrə Azərbaycan Prezidenti İlham Əliyevin verdiyi qiymət bizim üçün çox vacibdir. Olimpiyaçılarla görüşdə dövlət başçısı komandamızın "Paris-2024"-də ölkəmizi ləyaqətlə təmsil etdiyini, Azərbaycan Bayrağını dəfələrlə ucaldıb, xalqımızı sevindirdiyini vurğulayıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Parisdə qələbə qazanan idmançılarımızı təbrik etmələri də onlara yüksək diqqətin, uğurlarının yüksək səviyyədə qiymətləndirilməsinin bir nümunəsidir.

Şübhəsiz, yarışlara lisenziya qazanmış idmançılarımızla qürur duyuruq. Bu mötəbər oyunlara lisenziya qazanmaq o qədər də asan deyildi. Lisenziyaçıların sayına görə, müəyyən ölkələri geridə qoymuşuq. İlk dəfə medal qazanan ölkələrin siyahısında 30-cu yerdə qərarlaşmağımız da tarixi nəticədir. Yekunlar daha yaxşı ola bilərdi. Bunun üçün irəli baxmalı, təhlillər aparmalıyıq. Növbəti Olimpiya Oyunlarına daha çox lisenziya əldə etməyə, eləcə də medalların sayını artırmağa nail olmalıyıq.

**– Olimpiya yığmamız ilk dəfə komanda idman növlərindən basketbolda təmsil olundu. Gələcəkdə digər komanda idman növlərində təmsilçiliyimizə ümid edə bilərikmi?**

– Qızlardan ibarət basketbol yığmamızın Parisdə iştirakı daha bir tarixi uğur idi. bunu da deyim ki, ilk dəfə olimpiadada gender bərabərliyi təmin olundu. Komandamızın heyətində 28 kişi, 20 qadın Parisdə təmsil olundu. Bu, Azərbaycan idmanı



siyası məqsədilə həyata keçirilən tədbirlərin mühüm bir istiqaməti də onların idman bacarıqlarının inkişafına yönəlib. Bu gün paralimpiyaçılarımızın əldə etdikləri böyük uğurlarla fəxr etmək olar.

**– Son illər güləş, cüdo, gimnastika və digər ənənəvi növlərdə yeniyetmə və gənclər böyük uğurlar əldə ediblər. Bu inkişafın sürətləndirilməsi üçün hansı işlər zəruridir?**

– Hazırda ən mötəbər yarışlarda əldə etdiyimiz nailiyyətlərin əsasında uşaqlar arasında idmanın inkişafı, onun kütləviliyinin artırılması durur. Bu gün böyük uğurlar qazanan yeni nəsil yetişmirsə, gələcək nailiyyətlərdən söhbət gedə bilməz. Yeniyetmə və gənc idmançılarımızın güclü potensialı

Artıq körlinq üzrə bölmə də açılıb. Bu idman növü ilə həm də paralimpiyaçılar məşğul ola bilərlər. Bu idman növlərinin hər 3-ü populyarlıq qazanmağa başlayıb. Hazırda tennisin inkişafına da böyük diqqət var və yeni nəsil tennisçilər yetişir. Ötən il tennisçilərimiz universiada yarışlarında iştirak ediblər. Suyatullanma növündə isə bir gənc cütlük bu idman növünün sirlərini uşaqlara öyrədir. Artıq onların yetirmələri Bolqarıstanda beynəlxalq turnirdə mükafat da qazanıblar. Bu nailiyyət uşaqlarda suyatullanmaya marağı xeyli artırıb.

Tennis Federasiyası yeni növ olan padel tennisini də inkişaf etdirir. Ölkəmizdə ilk dəfə padel tennisi üzrə beynəlxalq miqyaslı "Sea Breeze Padel Cup" turniri keçirilib. Bu idman növü də populyarlıq qazanmağa başlayıb. Çünki istənilən yaş qrupunda insanlar onunla məşğul ola bilərlər. Fikrimcə, insanlar tennisdənsə, padel tennisinə daha tez uyğunlaşa bilərlər.

**– Ölkəmizdə idmanın maddi-texniki bazasının daha da təkmilləşdirilməsi istiqamətində böyük işlər görülür. Paytaxtla yanaşı, bölgələrdə beynəlxalq idman yarışlarının keçirilməsi üçün böyük imkanlar yaranıb...**

– Azərbaycandakı müasir idman infrastrukturu dünya ölkələri üçün nümunədir. Demək olar ki, bütün şəhərlərimizdə Olimpiya idman kompleksləri var. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Velopark, Atıcılıq Mərkəzi və digər müasir standartlı idman qurğularında irimiqyaslı yarışların keçirilməsi üçün hər bir şərait var. Bu cür geniş imkanlar yaratdığına görə, ölkə rəhbərliyinə minnətdarıq. İdmanın inkişafı üçün maddi-texniki baza mühüm rol oynayır.

Bu il Gəncə İdman Sarayı açıldı. Bu şəhərdə, eyni zamanda müasir standartlara uyğun Gəncə stadionu yenidən inşa edilir. Yevlaxda da Olimpiya İdman Kompleksi tikilir. Yenilərlə yanaşı, çoxlu idman obyektlərində təmir işləri gedir. Azərbay-



üçün ciddi nailiyyətdir. Basketbolçularımız bu idman növünün vətəni ABŞ yığmasını, eləcə də Çin yığımasını məğlub etdilər.

Məncə, təcrübə kifayət etmədi ki, digər komandalar üzərində də qələbə qazansınlar. Əgər onlar amerikalı rəqiblərini məğlub etmişdilərsə, digər yığmalar üzərində də qələbə qazanıb yarımfinala və finala çıxa bilərdilər.

Komanda idman növlərimiz inkişaf edir. Məsələn, klassik voleybolda Olimpiya Oyunlarında təmsilçiliyimiz hələ real olmasa da, çimərlik voleybolunda həm kişilər, həm də qadınların şansı var. Amma burada da federasiyanın mükəmməl hazırlıq planı olmalıdır. Bu işin öhdəsindən gələ bilən məşqçi heyəti, eləcə də idmançılar seçilməlidir.

**– Paralimpiya Oyunlarında komandamız uğurla çıxış etdi...**

– Paris Paralimpiadasında təmsilçilərimizin nəticələri çox yaxşı oldu. 18 idmançı ilə yarışa qatılan komandamız 11 mükafat qazandı. Ümumiyyətlə, paralimpiyaçılarımız beynəlxalq arenalarda nüfuzlu yarışlarda böyük uğurlar əldə edirlər. Onların uğurlarının layiqli şəkildə dəyərləndirilməsi ölkəmizdə paralimpiya idman növlərinin sürətli inkişafına geniş imkanlar yaradıb.

Sağlamlıq imkanları məhdud insanların idmana, paralimpiya idman növlərinə olan maraqlarının hərtərəfli dəstəklənməsi əlilliyi olan şəxslərlə bağlı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu kateqoriyalardan olan şəxslərin cəmiyyətə inteqra-

var və bu, bizi çox sevindirir. Bəli, cüdo, güləş, bədii gimnastika və bəzi başqa növlərdə uğurlu nəticələr qazanılıb. Amma digər idman növlərimizdə də çoxlu gözəl nəticələrimiz olub. Stolüstü tennis, atletika, ağırlıqqaldırma üzrə beynəlxalq arenalarda çoxlu mükafatlar əldə etmişik. Eləcə də, badmintonçularımız mötəbər yarışlarda mükafatlar qazanıblar. Üzgüçülük üzrə idmançımız bu yaxınlarda keçirilən "Asiya uşaqları" Oyunlarında gözəl nəticəyə imza atıb.

Gənclər və İdman Nazirliyi federasiyalar, idman mütəxəssisləri ilə birlikdə yeni strategiya hazırlayır. Azərbaycan idmanının yeni strategiyası peşəkar idman növlərini, o cümlədən uşaqları və gəncləri, bütün idman sahələrini əhatə edəcək. Uşaq və gənclərin gələcəkdə idmanla daha fəal məşğul olması üçün planlarımız böyükdür.

**– Ölkəmizdə ənənəvi idman növləri ilə yanaşı, yenilərinin də inkişafı diqqət mərkəzindədir. Bu sahədə görülən işlərlə bağlı nə deyə bilərsiniz?**

– Qarşımıza bütün idman növlərini inkişaf etdirməklə bağlı tapşırıq qoyulub. Bəzi idman növləri üzrə mütəxəssislər çatışmır. Xaricdən mütəxəssislərin gətirilməsi ilə bağlı işlər görülür. Qış idman növlərini inkişaf etdirmək istəyirik. Heydər Əliyev adına İdman Konsert Kompleksində ötən ildən fəaliyyətə başlamış Buz Arenasında hokkey üzrə bu gün 20-dən artıq oğlan məşq keçir. Artıq həvəskar hokkey komandası var. 50–60 qız fiqurlu konkisürmə ilə məşğul olmağa başlayıb.

canda 2025-ci ildə keçiriləcək III MDB Oyunlarına Gəncə və ətraf şəhərlər evsahibliyi edəcək.

Ölkəmizin I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları kimi multi-idman tədbirlərinə evsahibliyi nümunə kimi göstərilir. Bir neçə gün bundan əvvəl Bakıda Formula 1 Azərbaycan Qran-Prisi möhtəşəm şəkildə təşkil edildi. Sevindirici haldır ki, respublikamızda reallaşdırılan infrastruktur layihələri ayrılıqda götürülmüş bir sahəni deyil, müxtəlif istiqamətləri əhatə edir. Ona görə də, həm paytaxtda, həm də bölgələrdə ən böyük idman tədbirlərinin keçirilməsi üçün geniş imkanlar var.

**– Milli idmanımızın gələcək hədəfləri ilə bağlı fikirlərinizi bilmək istəyərdik.**

– İdman bir yerdə dayanmağı sevmir. Həmişə irəli can atmalı, özümüz üçün yeni hədəflər müəyyənləşdirməliyik. Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən biridir. Ölkəmiz həm də güclü idman dövlətlərindən biri kimi diqqət mərkəzindədir. Buna görə, bizim də üzərimizə böyük məsuliyyət düşür.

Növbəti 4 il üçün "Los-Anceles–2028"ə ən yüksək səviyyədə hazırlaşmağı qarşıya hədəf kimi qoymuşuq. Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, III MDB Oyunları, universiada kimi multiidman yarışlarında, Avropa, dünya çempionatlarında yüksək səviyyədə çıxış etmək üçün səylərimizi artıracağıq.

***Leyla QURBANOVA***
***XQ***

# Yayın vida yağışı

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var.

Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-18° isti, gündüz 22-25° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 761 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 65-70 faiz, gündüz 40-45 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 23-28° isti, dağlarda gecə 5-9° isti, gündüz 10-15° isti olacaq.

***Q.QASIMOV***
***XQ***



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3924
SİFARİŞ 2119
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00